RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 78 (9245) 15 APREL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Pravoslav inanclı vətəndaşlarımız müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər

### Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir.

Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətlərini yaşatmaq üçün geniş imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz həmvətənlər!

Pasxa bayramı dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzidir. Bu əziz gün münasibətilə bir daha hər birinizə səadət, ailələrinizə xoş bayram ovqatı və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*



## Yeni strateji tərəfdaş

**İlham Əliyevin Bosniya və Herseqovinaya rəsmi səfəri, imzalanan birgə bəyannamə münasibətlərin daha da dərinləşməsinə yeni impuls verdi**

Cənubi Qafqazda əsas söz sahibi olan dövlət kimi müstəqil xarici siyasət yürüdən Azərbaycan dünyanın aparıcı güc mərkəzləri, əksər dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx tərəfdaşlıq münasibətləri qurub.

Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil xarici siyasət Azərbaycanı dünyada həm də etibarlı tərəfdaş kimi tanıdıb. Rəsmi Bakı diplomatik əlaqələrdən başlamış dərin siyasi, iqtisadi-ticari, humanitar-mədəni münasibətlərə qədər bir çox dövlətlə əməkdaşlıq edir. Onlardan biri də Bosniya və Herseqovinadır.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında 28 illik diplomatik münasibətlər var. 1995-ci il fevralın 9-da Bosniya və Herseqovina Azərbaycanın müstəqilliyini tanıyıb. Azərbaycanın bu ölkənin Sarayevo şəhərində diplomatik nümayəndəliyi 2011-ci il martın 1-də təsis olunub. 2022-ci ilin iyunun 14-də isə Prezident İlham Əliyev Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Sərəncam imzalayıb. Dost ölkənin də Bakıda səfirliyinin açılması gözlənilir.

Aprelin 13-də İlham Əliyevin bu ölkəyə səfəri, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə keçirilən görüş, iki ölkə arasında imzalanan strateji tərəfdaşlıq haqqında birgə bəyannamə, mətbuata birgə bəyanatlar mövcud tərəfdaşlığı daha da gücləndirmək üçün real zəmin formalaşdırdı.

→ 5

## Zərifə Əliyeva - 100

*Akademik Zərifə xanım Əliyeva*

## Yüksək əqidə

*(Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)*



Azərbaycanın gənc həkim-mütəxəssisləri Şərq və Qərbin yüzilliklərlə formalaşmış ən yaxşı ənənələri əsasında tərbiyə edilib böyüyürdülər. Onlar öz müəllimlərinə ehtiram, yüksək etik münasibət, yüksək insanpərvərlik və öz ölkəsinə, torpağına son dərəcə sadiqliklə inkişaf edirdilər. Bu planda məşhur N. Nərimanovun öz oğluna yazdığı məktub-vəsiyyətnaməsi təqdirəlayiqdir:

"Əziz oğlum, Nəcəf! Əgər mənə yaşamaq qismət olsa, mən səni elə tərbiyə eləməyə çalışacağam ki, sən bəşəriyyətə xeyir gətirə biləsən. Əgər mənim nəsibim ölmək olsa, onda mən səndən xahiş edəcəyəm ki, sən insanlara heç olmasa atanın azca da olsa edə bilmədiyi qədər yaxşılıq et. İnanıram ki, mənim başladığım işləri sən davam etdirəcəksən".

İkinci Dünya müharibəsinin odlu illərində azərbaycanlıların yüksək mənəvi-əxlaqi keyfiyyətləri aydın şəkildə özünü göstərdi. Belə bir sərt imtahanda, yoxlamada bizim həkimlər davamlılıq, öz yüksək məğrurluğunu göstərməyib harada göstərəcəkdilər? Bu imtahandan onlar namusla, polad kimi möhkəmliklə çıxdılar. Qeyri-insani gərginlik şəraitində yuxusuz gecələrdə, aclıqda respublika həkimləri qısa müddətdə hospitallar yaratdılar və onları yeni tibbi ləvazimatlarla, yüksəkixtisaslı mütəxəssislər və tibb işçiləri ilə təmin etməyə nail oldular. Hərbi travmaların, sağalmayan yaraların, yanıqların, donmaların müalicəsində Azərbaycanın möcüzəli təsirə malik kurort mənbələrindən (palçıq, naftalan, mineral odlar və s.) geniş istifadə olunurdu.

→ 7



## Türkiyə Azərbaycanın gücünə güc qatır

### Şuşa Bəyannaməsi qardaş ölkələrin strateji tərəfdaşlığını daha da möhkəmləndirib

Tarixi köklərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri Vətən müharibəsindən başlayaraq strateji tərəfdaşlıqda yeni istiqamət aldı. İkinci Qarabağ savaşında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda digər rəsmilərin ölkəmizə dəstək nümayişi, hər an yanımızda olduqlarını bildirmələri bəzi dövlətlərin işlərimizə qarışmasına imkan vermədi.

Müharibədən sonrakı dövrdə münasibətlər daha da inkişaf etməyə başladı. Bu əlaqələrin rəsmi sənədi isə 2021-ci il iyunun 15-də mədəniyyət paytaxtımız Şuşada imzalandı. Rəcəb Tayyib Ərdoğan ilk Qarabağ səfərində Prezident İlham Əliyevlə birgə tarixi sənədi imzaladılar. Beləliklə, Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq və əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəldi.

Tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoyan Şuşa Bəyannaməsi "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, həmçinin "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni özündə rəhbər tutur.

→ 9

## Ermənin vəhşi xisləti dəyişmir

### Dünya Hayastanın cinayət əməllərinə susmamalıdır

Birinci Qarabağ müharibəsindən etibarən erməni silahlı qüvvələri tərəfindən azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı qırğınlar törədilib, 1992-ci ildə Xocalıda soyqırımı həyata keçirilib. Bu günədək Hayastan Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verməyib.

İşğal dövründə Hayastan torpaqlarımızı mina tarlasına çevirib və ilkin hesablamalara görə, ərazilərimizdə bir milyondan çox mina basdırıb. Hayastan torpaqlarımıza basdırdığı minaların dəqiq xəritələrini verməkdən boyun qaçırmaqla yanaşı, 44 günlük müharibədən sonra da terrorçu əməllərindən vaz keçməyərək Laçın yolundan istifadə edərək ərazilərimizdə mina basdırmaqda israrlı olub. Xeyli sayda hərbi və mülki şəxsimiz Hayastanın mina terrorunun qurbanı olub.

Elə aprelin 13-də Laçın rayonunun Sus kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə mina partlayışı hadisəsinin baş verməsi və nəticədə bir nəfər mülki şəxsin xəsarət alması ermənilərin mina terrorunun xalqımızın həyatına təhlükə olduğunu bir daha sübut edir.

→ 5

## Sarkisyan Paşinyanı saxtakarlıqda ittiham edir

### Hayastan sonu görünməyən növbəti siyasi böhrana yuvarlanır

**Hayastanda son günlər iqtidar və müxalifətin qarşılıqlı ittihamları getdikcə daha sərt xarakter alır. Görünən odur ki, müxalifət həm də Nikol Paşinyanı təhdid etməklə təzyiqlərini artırmağa çalışır.**

Hayastanın üçüncü prezidenti Serj Sarkisyan deyib ki, hakimiyyət özünü gic yerinə qoyaraq, protokol qaydası haqqında qanunu kobud şəkildə pozub, açıq və gizli şəkildə ölkədə anti-Rusiya əhvali-ruhiyyəsi yaratmaqla, "1 Mart" işi üzrə KTMT-nin sabiq baş katibi, general-polkovnik Xaçaturova qarşı əsassız ittiham irəli sürərək İrəvan-Moskva münasibətlərini korlayıb.

→ 12

## Fransa polisi növbəti dəfə qəddarlığı ilə diqqət çəkdi

### Fransızlar prezident Emmanuel Makronun Çinə səfərini biabırçılıq adlandırdılar

**Fransa paytaxtında sosial problemlərə qarşı yeni etiraz dalğası ciddi iğtişaşlara səbəb olub. Parisdə asayiş keşikçiləri ilə etirazçılar arasında baş vermiş toqquşmalar nəticəsində onlarla polis yaralanıb, çox sayda nümayişçi saxlanılıb.**



Bundan əvvəl aksiya iştirakçıları prezident Emmanuel Makronun paytaxtdakı sevimli restoranına od vurublar. Həmkarlar ittifaqlarının məlumatına görə, bu aksiya əvvəlkilərdən daha kiçik miqyasda olsa da, ölkə üzrə 1,5 milyon insanı əhatə edib. Yerli hüquq-mühafizə orqanlarının rəsmi məlumatları isə əhəmiyyətli dərəcədə fərqlənir - Fransada 380 min nümayişçi küçələrə çıxıb.

→ 12

## Azərbaycanda ilk dəfə birinci rübdə 1 milyard dollara yaxın ixrac həyata keçirildi



Elektrik enerjisi ixracının əhəmiyyətli səviyyədə artımı Türkiyəyə həyata keçirilən ixracın sürətli artımı ilə əlaqədardır. 2023-cü ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları təşkil edib. Yalnız fevral ayında isə qardaş ölkəyə ixracın dəyəri 2 dəfə artaraq 167,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Adıçəkilən ixracın dəyərinin əhəmiyyətli artımının əsas səbəbi elektrik enerjisi ilə əlaqədardır.

→ 10



## Ermənistanda Avropa Çempionatının açılışında Azərbaycan bayrağı yandırılıb

**Dünən Ermənistanda keçirilən Ağır Atletika üzrə Avropa Çempionatının açılış mərasimində ölkəmizə qarşı təxribat baş verib.**

AZƏRTAC erməni mediasına istinadla xəbər verir ki, İrəvanda keçirilən çempionatın açılış mərasimində Azərbaycanın Dövlət Bayrağı yandırılıb.

Bayraqların paradında Azərbaycan bayrağı zala gətirildikdən sonra azarkeşlərdən biri səhnəyə çıxaraq qızın əlindən milli simvolumuzu götürərək yandırıb və zaldan çıxarıb.

Mühafizəçi həmin şəxsi saxlayıb. Daha sonra içəriyə yeni bayraq gətirilib.

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12 (I kitab), maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; 2019, № 1, maddə 34, № 3, maddə 392, № 6, maddə 987; 2020, № 5, maddələr 512, 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1423; 2021, № 7, maddə 701, № 8, maddə 894; Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 646-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 16-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"1. Yay və qış otlaqları xırdabuynuzlu heyvandarlıq təsərrüfatlarının ehtiyacları nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə inzibati-ərazi vahidləri arasında bölüşdürülür.

2. Yay və qış otlaqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra - informasiya sistemi) vasitəsilə "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsində müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə dövlət və bələdiyyə mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə, digər heyvandarlıq təsərrüfatı sahibi fiziki və hüquqi şəxslərə isə yalnız icarəyə verilir.

3. Dövlət mülkiyyətində olan örüş və biçənək sahələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə informasiya sistemi vasitəsilə heyvandarlıq təsərrüfatı sahibi və ya belə təsərrüfat qurmaq istəyən fiziki və hüquqi şəxslərə icarəyə verilir. Bələdiyyələrin mülkiyyətində olan yaşayış məntəqələrinin yaxınlığında ümumi örüş sahələri ödənişsiz və müddətsiz olaraq məntəqə əhalisinin heyvanlarının yemlənməsi üçün istifadə olunur. Bələdiyyələrin ehtiyat torpaq fondunda olan digər örüş və biçənək sahələri açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə heyvandarlıq təsərrüfatı sahibi olan və ya belə təsərrüfat qurmaq istəyən hüquqi və fiziki şəxslərin icarəsinə verilir və bu barədə məlumat informasiya sisteminə daxil edilir.

4. Yay və qış otlaqlarının (qış otlağının 3 faizə qədər hissəsində yaşıl yem üçün xəsil əkini istisna olmaqla), örüş və biçənəklərin əkin məqsədli istifadəsinə yol verilmir. Hüquqi və fiziki şəxslər yay və qış otlaqlarından, örüş və biçənək sahələrindən səmərəli istifadə etməli, bitki örtüyünü, su mənbələrini, köç yollarını və mal-qara düşərgələrini qoruyub saxlamalı, baytarlıq-sanitariya qaydalarına və digər tələblərə riayət etməlidirlər. Yay və qış otlaqlarında tələbata uyğun olaraq çoban evləri, yataqlar, digər mədəni-məişət və istehsal təyinatlı tikililər (əsaslı tikintilər istisna olmaqla) inşa edilə bilər.

5. Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

2. 67-ci maddə üzrə:

2.1. 1-ci hissəyə "hüquqların" sözündən sonra "(müddəti on bir aydan az olan icarə və istifadə hüquqları istisna olmaqla)" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar müvafiq məlumatlar (torpaq üzərində qeydiyyata alınmış hüquqlar, hüquqların yüklülüyü (məhdudlaşdırılması), hüquq sahibləri, icarə və ya istifadə barədə əqdlərin tərəfləri, əqdin müddəti və məqsədi) daşınmaz əmlakın dövlət reyestrindən informasiya sisteminə real vaxt rejimində ötürülür, habelə on bir aydan az müddətə bağlanılmış istifadə və ya icarə müqavilələri istifadəyə verən və ya icarəyəverən tərəfindən bilavasitə informasiya sisteminə daxil edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 176 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2000-ci il 6 mart tarixli 291 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 16-cı maddəsinin 1-ci, 2-ci (hər iki halda) hissələrində, 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 16-cı maddəsinin 1-ci, 2-ci (ikinci halda) (dövlət mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 5-ci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində(ikinci halda)(yay, qış otlaqlarının icarəyə və bələdiyyə mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə)və 3-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə rayon (şəhər) icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) "informasiya sistemi" dedikdə "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486; 2000, № 3 (I kitab), maddə 158; 2001, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 4, maddə 231; 2006, № 8, maddə 660; 2008, № 3, maddə 174, № 8, maddə 714; 2009, № 7, maddə 542; 2012, № 11, maddə 1080; 2014, № 10, maddə 1217, № 12, maddə 1552; 2016, № 2 (II kitab), maddə 239; 2017, № 7, maddə 1320, № 12 (I kitab), maddə 2342; 2019, № 3, maddə 436, № 5, maddə 843; 2020, № 5, maddə 559; 2022, № 12, maddə 1432; 2023, № 1, maddə 71)2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddən "16-cı maddəsinin 8-ci hissəsində," sözləri çıxarılsın;

2.2. 2.1-1-ci bəndə "Məcəllənin" sözündən sonra "16-cı maddəsinin 1-ci, 2-ci (hər iki halda) hissələrində, 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində," sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2.1-2-ci, 2.3-2-ci,2.5-1-ci və 2.5-2-ci bəndlər əlavə edilsin:

"2.1-2. həmin Məcəllənin 16-cı maddəsinin 1-ci, 2-ci (ikinci halda) (dövlət mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 5-ci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"2.3-2. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (ikinci halda) (yay, qış otlaqlarının icarəyə və bələdiyyəmülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 3-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə rayon (şəhər) icra hakimiyyəti orqanları nəzərdə tutulur;";

"2.5-1. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

2.5-2. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) "informasiya sistemi" dedikdə "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur;";

2.4. 2.3-1-ci bəndə "müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini" sözlərindən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (kənd təsərrüfatı məqsədləri üçün verilən torpaq sahələrinə dair sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə uyğun olaraq)," sözləri əlavə edilsin.

3. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6mart tarixli 291 nömrəli Fərmanının(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 158; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 2, maddə 69; 2006, № 8, maddə 660; 2007, № 11, maddə 1110; 2008, № 3, maddə 174, № 6, maddə 498; 2010, № 7, maddələr 542, 610; 2012, № 11, maddə 1081; 2014, № 11, maddə 1419; 2016, № 2 (II kitab), maddə 240; 2021, № 7, maddə 728; 2022, № 12, maddə 1432)1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzasa "otlaqları torpaqlarının" sözlərindən sonra "(dövlət mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə)" sözləri əlavə edilsin;

3.2. səkkizinci abzasdan "16-cı maddəsinin 1-ci hissəsində," sözləri çıxarılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti"Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147; 2022, № 3, maddə 228, № 9, maddə 1036) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2.3-cü yarımbəndə ikinci halda "qeydiyyatının aparılması," sözlərindən sonra "karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi ilə əlaqədar hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi," sözləri əlavə edilsin.

2. 5.1.28-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.29-cu yarımbənd əlavə edilsin:

"5.1.29. karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi ilə əlaqədar heyvanların, heyvan mənşəli məhsulların və xammalın məhv edilməsi, emalı və ya təkrar emalı məqsədilə götürülməsi və ya götürülmədən məcburi zərərsizləşdirilməsi, habelə həmin xəstəliklər nəticəsində hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi barədə məlumatlar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2023-cü il*

# "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 154; 2001, № 3, maddə 149; 2002, № 5, maddə 241, № 12, maddə 706; 2003, № 1, maddə 14; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 503; 2015, № 3, maddə 247; 2018, № 6, maddə 1183; 2019, № 1, maddə 34, № 7, maddə 1178; 2020, № 5, maddə 509; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli və 20 dekabr tarixli 734-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 10-1.1-ci maddənin birinci cümləsində "ərizə" sözü "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra - informasiya sistemi) vasitəsilə elektron ərizə (bundan sonra - ərizə)" sözləri ilə əvəz edilsin.

2. 10-1.3.2-ci maddəyə "orqana (quruma)" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin.

3. 10-1.4-cü maddədə "təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir" sözləri "informasiya sistemi vasitəsilə təqdim edir" sözləri ilə əvəz edilsin.

4. 10-1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10-1.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 10-1.3.2-ci maddəsinə əsasən razılıq alınması üçün təqdim olunan müraciətə və ona əlavə olunan sənədlərə informasiya sistemi və dövlət torpaq kadastrının məlumatları əsasında 15 gün müddətində baxaraq dövlət torpağının icarəyə verilməsinə razılıq verir və ya həmin müraciət və əlavə olunan sənədlər qeyd olunan məlumatlarla uyğunsuzluq təşkil etdikdə dövlət torpağının icarəyə verilməsinə razılıq vermir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) icarə müqaviləsinin bağlanmasına razılıq verilməsindən imtina barədə qərarı imtina hallarına istinad edilməklə əsaslandırılmalıdır.".

5. 23-cü maddənin birinci hissəsinin səkkizinci abzası doqquzuncu abzas hesab edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"icarəyə götürülmüş dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin istifadəsi, keyfiyyətinin yaxşılaşdırılması, qorunması və mühafizəsi barədə görülən işlərə dair informasiya sisteminə məlumat təqdim etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

# "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanununun tətbiqi və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 10-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (birinci halda) "informasiya sistemi" dedikdə "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur;

1.4. həmin Qanunun 10-1.3.2-ci maddəsində, 10-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 10-1.6-cı maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) və Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) nəzərdə tutulur.

2. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 577; 2005, № 11, maddə 1016; 2006, № 7, maddə 590; 2007, № 11, maddə 1110; 2010, № 7, maddə 610; 2014, № 11, maddə 1418; 2016, № 2, maddə 254, № 11, maddə 1818; 2018, № 6, maddə 1228; 2020, № 4, maddə 416; 2022, № 12, maddə 1445) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "10-1.1-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(hər iki halda)" sözləri əlavə edilsin;

2.2. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. həmin Qanunun 10-1.3.2-ci maddəsində, 10-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 10-1.6-cı maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) və Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) nəzərdə tutulur;";

2.3. 2.8-ci bəndə "10-1.1-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(birinci halda)" sözləri əlavə edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu və 2.10-cu bəndlər əlavə edilsin:

"2.9. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (birinci halda) "informasiya sistemi" dedikdə "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147; 2022, № 3, maddə 228, № 9, maddə 1036) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.1.3-3-cü və 3.2.3-3-cü yarımbəndlər əlavə edilsin:

"3.1.3-3. "kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi" altsistemi;";

"3.2.3-3. "kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi" altsistemi vasitəsilə kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar müraciətlərin qəbulu, baxılması və cavablandırılması;".

2. 5.1.28-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsunvə aşağıdakı məzmunda 5.1.29-cu və 5.1.30-cu yarımbəndlər əlavə edilsin:

"5.1.29. kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar daxil olmuş müraciətlər və həmin müraciətlərə baxılması üzrə sənədlər;

5.1.30. icarəyə götürülmüş dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin istifadəsi, keyfiyyətinin yaxşılaşdırılması, qorunması və mühafizəsi barədə görülən işlərə dair icarəçilər tərəfindən təqdim edilmiş məlumatlar.".

3. 7.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 18-ci və 19-cu abzaslar əlavə edilsin:

"18. dövlət mülkiyyətində olan torpaqları icarəyə (istifadəyə) götürmək məqsədilə müraciət etmək;

19. icarəyə götürdüyü dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin istifadəsi, keyfiyyətinin yaxşılaşdırılması, qorunması və mühafizəsi barədə görülən işlərə dair məlumat təqdim etmək;".

4. 7.1.9-cu yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.10-cu və 7.1.11-ci yarımbəndlər əlavə edilsin:

"7.1.10. rayon (şəhər) icra hakimiyyəti orqanları:

1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar daxil olmuş müraciətlərə baxmaq;

7.1.11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti:

1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar daxil olmuş müraciətlər üzrə rəy vermək.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

## M.Q.Məmmədovun Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məcnun Qadir oğlu Məmmədov Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

## A.Q.Kərimlinin Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,14 aprel 2023-cü il*

## A.Q.Kərimlinin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,14 aprel 2023-cü il*

## Azərbaycan Respublikası Audiovizual Şurasının üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aşağıdakı şəxslər Azərbaycan Respublikası Audiovizual Şurasının üzvləri təyin edilsin:

Xəlilov Aslan Xası oğlu
Məmmədov İsa Rəhman oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

## "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci iI 22 noyabr tarixli 316 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1011; 2008, № 8, maddə 718; 2009, № 8, maddə 630; 2010, № 3, maddə 186; 2015, № 7, maddə 841; 2018, № 4, maddə 672, № 12 (I kitab), maddə 2553; 2019, № 8, maddə 1386; 2020, № 4, maddə 405, № 5, maddə 562; 2022, № 8, maddə 867; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2038 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.7-1-ci bənddə ", 24.1-ci maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 2.7-5-ci bənd əlavə edilsin:

"2.7-5. həmin Qanunun 24.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (götürülməsi, məhv edilməsi, zərərsizləşdirilməsi, emalı və ya təkrar emalı ilə bağlı qərar qəbul edilməsinə münasibətdə) və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (götürülməsinin, məhv edilməsinin, zərərsizləşdirilməsinin, emalının və ya təkrar emalının təmin edilməsinə münasibətdə) nəzərdə tutulur.".

3. 2.8-ci bəndə "birinci halda" sözlərindən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB Parlamentlərarası Assambleyasının 55-ci plenar iclasında Ermənistanın hərbi-siyasi təxribatları barədə çıxış edib

Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində aprelin 14-də MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 55-ci plenar iclasında çıxış edib. Spiker Sahibə Qafarova çıxışında Ermənistanın hərbi-siyasi təxribatları barədə geniş məlumat verib.









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Ermənistanın Avropa İttifaqının missiyasının bu ölkədə olmasından sui-istifadə etməsi və vəziyyətin qəsdən gərginləşməsinə yönəlmiş siyasət yürütməsi aydın müşahidə olunur. Ermənistan Silahlı Qüvvələri və qanunsuz erməni silahlı birləşmələri Azərbaycan-Ermənistan sərhədi boyunca və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində atəşkəs rejimini pozmaqda davam edir ki, bu da insan tələfatına səbəb olur. Spiker bir neçə gün əvvəl Ermənistanın sərhəddə növbəti hərbi təxribat törətdiyini və nəticədə üç azərbaycanlı hərbçinin həlak olduğunu diqqətə çatdırıb.

Sahibə Qafarova həmçinin diqqətə çatdırıb ki, bir neçə gün əvvəl Ermənistan sərhəddə itkin düşmüş iki Azərbaycan hərbçisini saxlayıb. Dərhal sosial şəbəkələrdə onlara münasibətdə fiziki işgəncəni və qeyri-insani rəftarı göstərən videogörüntülər yayılıb. Müvafiq beynəlxalq təşkilatlar sözügedən zorakılığı araşdırmalı və ona lazımi qiymət verməlidirlər.

Çıxışında Milli Məclisin Sədri onu da qeyd edib ki, Ermənistan tərəfindən basdırılan və sayı bir milyondan çox olan minalar hələ də bərpa işlərində ən böyük problemlərdən biridir. Vətən müharibəsindən sonrakı iki il ərzində 300-ə yaxın Azərbaycan vətəndaşı minaya düşərək həlak olub və ya ağır yaralanıb. Dəfələrlə tələb olunmasına baxmayaraq, Ermənistan indiyədək minalanmış ərazilərin dəqiq xəritələrini ölkəmizə təqdim etməyib.

Spiker bildirib ki, Parlamentlərarası Assambleyanın Səmərqənd şəhərində keçirilən 54-cü plenar iclasında bizim tərəfimizdən ümid ifadə olunub ki, Ermənistan münasibətlərin normallaşdırılması prosesini ləngitməyəcək, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması və 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyannamənin bütün bəndlərinin icrası üçün real addımlar atacaq. Üstəlik, 2022-ci ilin oktyabrında Praqa və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıyıblar.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, məhz Azərbaycan Ermənistana beynəlxalq hüququn 5 ümumi qəbul edilmiş prinsipləri əsasında sülh təklif edib.

Spiker təəssüflə qeyd edib ki, proses istənildiyi kimi getmir. Ermənistan hakimiyyətinin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, eləcə də daxili işlərinə müdaxiləyə yönəlmiş ritorikasının güclənməsi ciddi narahatlıq doğurur. Qeyd olunub ki, Ermənistan götürdüyü öhdəliklərin əksinə olaraq hələ də öz silahlı qüvvələrini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən tam çıxarmayıb. Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbi qulluqçusu hələ də Azərbaycan ərazisindədir. Həmçinin Ermənistan Laçın yolundan minaların, hərbi texnikanın və silahların daşınması, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində şəxsi heyətin rotasiyası, habelə Azərbaycanın qanunsuz istismar edilmiş faydalı qazıntılarının Ermənistana daşınması üçün istifadə edir.

Parlamentin sədri diqqətə çatdırıb ki, Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin 12 dekabr 2022-ci ildən Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiya məhz buna qarşı yönəlib. Laçın yolu yalnız humanitar məqsədlər üçün istifadə olunmalıdır.

Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin 6 mindən çox nəqliyyat vasitəsinin, tibbi yardıma ehtiyacı olan şəxslərin, humanitar yüklərin Laçın yolundan maneəsiz keçməsi sübut edir ki, Ermənistanın, guya, bu yolun bağlanması, qondarma "humanitar fəlakət" barədə iddiaları tamamilə əsassızdır və yalandır.

Spiker vurğulayıb ki, Laçın yolunun Ermənistan-Azərbaycan sərhədində sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması barədə Azərbaycanın təklifi bu yolun istifadəsində şəffaflığı təmin edəcək, lakin erməni tərəfi bunda maraqlı deyil və təklifi qəbul etmir. Həmçinin üçtərəfli Bəyanata uyğun olaraq Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəlikləri hələ də yerinə yetirmir.

Sahibə Qafarova bildirib ki, Ermənistan tərəfi 2022-ci ilin dekabrında Moskvada xarici işlər nazirlərinin iştirakı ilə planlaşdırılan son görüşü boykot edərək danışıqlar prosesindən birtərəfli qaydada çıxıb və beynəlxalq səylərə zidd olaraq sülh müqaviləsi üzrə birbaşa danışıqların aparılmasına mane olmağa davam edir.

Spiker bildirib ki, Ermənistanın nəyə ümid etdiyi və vaxtı niyə uzatdığı hələ də aydın deyil. Bir şey aydındır ki, sülh sazişinin imzalanması regionumuzda sülhə, sabitliyə və firavanlığa nail olmağın yeganə yoludur. Onun alternativi yoxdur.

Milli Məclisin Sədri çıxışında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri haqqında da danışıb, Azərbaycanın 9 şəhərinin və yüzlərlə kəndinin işğal dövründə yer üzündən silindiyini diqqətə çatdıraraq, görülən işlərin həcminin böyük olduğunu vurğulayıb. O məlumat verib ki, bu ərazilərin bütün infrastrukturu - yollar, elektrik stansiyaları, su kəmərləri yenidən tikilir. Laçın rayonunda artıq işğaldan azad olunmuş ərazilərdəki üçüncü beynəlxalq hava limanı inşa olunur. Görülən işlərin miqyasının aydın təsəvvür edilməsi baxımından qeyd olunub ki, 2021-2022-ci illərdə Azərbaycan hökuməti bərpa işlərinə təxminən 4 milyard ABŞ dolları xərcləyib, bu il isə bu məqsədlər üçün ən azı 1,7 milyard ABŞ dolları ayrılması planlaşdırılır. Həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün qəbul edilən "Böyük qayıdış" Proqramı da uğurla icra edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir.

Spiker fürsətdən istifadə edərək işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistanın məktəb, Qazaxıstanın isə yaradıcılıq mərkəzi tikməsinə görə özbək və qazax həmkarlarına minnətdarlığını bildirib. Vurğulayıb ki, bu, xalqlarımız arasında qardaşlıq, dostluq və həmrəyliyin bariz nümunəsidir.

Artıq Azərbaycanın Qarabağ iqtisadi rayonunun erməni sakinləri ilə dialoq qurmaq üçün addımlar atılır. Martın əvvəlində Xocalıda onlarla bu məsələlərə cavabdeh olan şəxs arasında görüş keçirilib. Həmin şəxs həm də Milli Məclisin deputatıdır. Bu dialoq davam edəcək. Azərbaycan Qarabağda yaşayan erməni vətəndaşlarını cəmiyyətə yenidən inteqrasiya etməkdə qərarlıdır. Bu sırf Azərbaycanın daxili işidir. Onların hüquqları və təhlükəsizliyi Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericilik aktlarına uyğun olaraq təmin ediləcək.

Milli Məclisin Sədri çıxışında həmçinin MDB Parlamentlərarası Assambleyasının fəaliyyətinə də toxunaraq bildirib ki, MDB Parlamentlərarası Assambleyası birlik ölkələri arasında əməkdaşlığın effektiv mexanizmi kimi ötən dövr ərzində böyük inkişaf yolu keçərək bu gün qarşılıqlı əlaqələrin müxtəlif sahələrinə öz töhfəsini verən mühüm parlamentlərarası instituta çevrilib. Sahibə Qafarova Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyası çərçivəsində fəaliyyətə həmişə önəm verdiyini, yeni ideya və təkliflər irəli sürərək təşkilatın fəaliyyətinin və parlamentlərarası əməkdaşlığın möhkəmlənməsində fəal iştirak etdiyini bildirib.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova növbəti dəfə Ermənistan parlamenti spikerinin yalanlarını ifşa etdi





Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 14-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 55-ci plenar iclasının yekunlarına həsr olunmuş brifinqdə Ermənistan parlamenti sədrinin ölkəmiz haqqında yalan və əsassız iddialarına cavab verib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker bildirib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik işğalı zamanı meşələrimizi və qoruqlarımızı məhv edən, təbii sərvətlərimizi qanunsuz istismar edən, torpaq və çayları çirkləndirən bir ölkənin nümayəndəsi kimi Ermənistan parlamenti sədrinin Azərbaycanın suveren ərazilərində hər hansı "ekoloji narahatlıqlar" barədə danışmağa mənəvi haqqı yoxdur.

Milli Məclisin Sədri qeyd edib ki, Ermənistan tərəfi nədənsə Beynəlxalq Məhkəmənin əsassız saydığı və Ermənistanın Azərbaycan hökuməti tərəfindən Laçın yolunda etirazların təşkili və dəstəklənməsinə dair, eləcə də Ermənistandan təbii qaz tədarükünün və digər ictimai xidmətlərin göstərilməsinin dayandırılması ilə bağlı iddialarını tamamilə rədd etdiyi barədə susur. Məhkəmənin qərarı həmçinin Laçın yolundan qeyri-qanuni hərbi və iqtisadi məqsədlər üçün istifadənin yolverilməzliyi ilə bağlı Azərbaycanın mövqeyi ilə də uyğundur.

Sahibə Qafarova brifinqdə deyib ki, Azərbaycanın erməni vətəndaşlarına qarşı hansısa "terror" iddialarının absurdluğu ondan ibarətdir ki, bu iddialar 30 illik işğal dövründə etnik təmizləmə və kütləvi qətllər törətmiş, 1 milyona yaxın azərbaycanlını öz doğma yurdlarından zorla qovaraq, Azərbaycana məxsus bütün tarixi və dini abidələri vəhşicəsinə məhv edən bir ölkənin nümayəndəsi tərəfindən irəli sürülür.

Sahibə Qafarova həmçinin vurğulayıb ki, Azərbaycanın Ermənistanın suveren ərazisini işğal etməsi ilə bağlı iddialar tamamilə əsassızdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini 30 il işğal altında saxlamış və Qazax rayonunun 7 kəndini və Naxçıvan Muxtar Respublikasının Kərki kəndini hələ də işğal altında saxlayan ölkə olaraq Ermənistan danışıqlar masasına qayıtmalı və sülh müqaviləsi, eləcə də Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzərində işi davam etdirməlidir.

***"Azərbaycan"***

# Mədəniyyət komitəsinin iclası keçirilib

Aprelin 14-də Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Qənirə Paşayeva iclası açaraq gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə bir məsələ - İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi daxil edilib.

Qeyd edilib ki, "İctimai Televiziya və Radio Yayımı haqqında" qanuna uyğun olaraq İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüş şəxslərin 6 illik səlahiyyət müddəti 2023-ci ilin aprelində başa çatır. Ona görə də qanunvericiliyə əsasən, yeni namizədlərin irəli sürülməsi ilə bağlı müvafiq təşkilati tədbirlər görülüb və Milli Televiziya və Radio Şurası adıçəkilən qurumların hərəsindən iki nəfər olmaqla yeni namizədləri Milli Məclisə təqdim edib.

Komitə sədri televiziyaların, o cümlədən İctimai Televiziyanın fəaliyyətinin dövlətimiz və cəmiyyətimiz üçün önəmini vurğulayıb, onların səmərəli və məhsuldar fəaliyyəti ilə bağlı fikirlərini səsləndirib. O, cəmiyyətin maarifləndirilməsində, bədii zövqün formalaşdırılmasında, informasiya xidmətinin göstərilməsində, həmçinin azərbaycançılıq ideologiyasının təbliği və Azərbaycan dilinin qorunması istiqamətində televiziyaların üzərinə düşən məsuliyyəti xüsusi vurğulayıb.

Sonra komitə üzvləri Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Əziz Ələkbərov, Aqil Abbas, Razi Nurullayev, Novruzəli Aslanov, Ülviyyə Ağayeva və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev müzakirə olunan məsələ ilə bağlı çıxış ediblər. Onlar ölkəmizdə televiziya məkanındakı mövcud durumdan söz açaraq, televiziya proqramlarının, verilişlərin, xəbərlərin keyfiyyətinin, peşəkarlığının yüksəldilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Müzakirələrin yekununda İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi parlamentin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti qardaş Türkiyədə səfərdədir

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyədə səfərdədir.






AZƏRTAC xəbər verir ki, YAP nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov Rayon Təşkilatının sədri Samir Vəliyev daxildirlər.

Nümayəndə heyəti əvvəlcə aprelin 13-də Bursa şəhərinə səfər edib. Bursa Böyükşəhər Bələdiyyəsinin binasında keçirilən və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala və Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaşın iştirak etdikləri görüşdə Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin dostluq, qardaşlıq və həmrəylik örnəyi olduğu vurğulanıb.

Efkan Ala bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sayəsində Türkiyə-Azərbaycan münasibətləri ən yüksək səviyyəyə çatıb. İki ölkə arasındakı qardaşlıq münasibətlərinin bütün dünya üçün nümunə olduğunu deyən Efkan Ala diqqətə çatdırıb ki, dostluq və əməkdaşlıq, həyata keçirilən beynəlxalq layihələr böyük bir coğrafiyaya sülh, inkişaf və rifah gətirib. O, mayın 14-də Türkiyədə keçiriləcək seçkilərin önəmindən bəhs edib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident İlham Əliyevin "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır" fikrini xatırladaraq, iki qardaş dövlətin birliyinin əbədi və sarsılmaz olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan-Türkiyə qardaşlığı Prezident Rəcəb Tayyib Ərdoğanın qardaş ölkəyə rəhbərliyi dövründə daha da dərinləşib. İşğal altındakı torpaqlarımızın azad edilməsi üçün aparılan 44 günlük Vətən müharibəsində "bir millət, iki dövlət" prinsipinə layiq mövqe nümayiş etdirildi. Qardaş Türkiyə Azərbaycana böyük siyasi və mənəvi dəstək verdi.

Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaş qonaqlara şəhər haqqında ətraflı məlumat verib. Bildirib ki, Türkiyədə özünəməxsus xüsusiyyətləri ilə seçilən bölgələrdən biri də Bursadır. Bu şəhər turizm, kənd təsərrüfatı, mədənçilik kimi mühüm sahələrdə böyük imkanlara malikdir. O, həmçinin Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını işğaldan azad etməsindən qürur duyduqlarını dedi. Bursanın 2022-ci ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı olduğunu xatırladan bələdiyyə sədri keçirilən tədbirlər çərçivəsində qardaş Azərbaycandan nümayəndə heyətlərinin gəldiyini xatırladıb. Alinur Aktaş Türk Dünyasının Mədəniyyət Paytaxtı estafetinin Şuşaya verilməsindən qürurlandıqlarını bildirib. O, füsunkar mənzərəsi ilə seçilən Şuşanın Türk Dünyasının Mədəniyyət Paytaxtı çərçivəsində təqdim etdiyi rəngarəng proqramları ilə dünyanın hər yerindən turistləri cəlb edəcəyini vurğulayıb.

Sonra Azərbaycan nümayəndə heyəti Bursa Böyükşəhər Bələdiyyəsinin tarixi binasının xatirə kitabına ürək sözlərini yazıb.

Bildirilib ki, 1880-ci ildə inşa olunan bu bina Türkiyənin ən qədim bələdiyyə binasıdır.

Bursa Təyyarə Mədəniyyət Mərkəzi ilə tanış olan nümayəndə heyəti sonra şəhərlə tanış olub, yerli sakinlərlə söhbət edib. Söhbət əsnasında bildirilib ki, Azərbaycan və Türkiyə tarixboyu bir sıra sınaqlarla üzləşsə də, həmin çətinliklərdən mətanətlə çıxıb. Ən qürurlandırıcı məqam odur ki, dövlətlərimiz və xalqlarımız bu çətinliklərin öhdəsindən gəlmək üçün bir-birinə əsl qardaşlıq dəstəyi göstərib.

# Gənclər Fondunun cari il üzrə fəaliyyət planı təsdiq edilib

Aprelin 14-də Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.



Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin sədrliyi ilə keçirilən iclasda fondun 2022-ci il üzrə hesabatı dinlənilib, gənclər üçün təhsil və məşğulluq proqramları, gənclər təşkilatlarına dəstək mexanizmləri, gənclər sahəsində beynəlxalq əməkdaşlıq və gənclərin asudə vaxtının səmərəli təşkili istiqamətlərdə fikir mübadiləsi aparılıb. Eyni zamanda 2023-cü il üzrə fondun fəaliyyət planı müzakirə olunaraq təsdiq edilib. Həmçinin cari ilin fevral ayında Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə humanitar dəstək məqsədilə qardaş ölkəyə yollanan Azərbaycan könüllülərinin fəaliyyətinə dair məlumat və videotəqdimat iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Müşahidə Şurasının sədri 2023-cü ilin dövlət başçısı İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan edilməsini xüsusi qeyd edərək, Ümummilli liderin əziz xatirəsinin və irsinin gənclər arasında yaşadılması və təbliği məqsədilə müvafiq tədbirlər planının hazırlandığını bildirib və bu günədək həyata keçirilən layihələrə nəzər yetirilməsini təklif edib. Bununla əlaqədar gənclər təşkilatları üçün elan edilmiş 17-ci qrant müsabiqəsi çərçivəsində "Heydər Əliyev İli"nin prioritet mövzular siyahısına daxil edildiyi vurğulanıb. Elan fondun müvafiq internet resurslarında (internet səhifəsində https://youthfoundation.az/?p=153672, "GencApp" mobil tətbiqi və sosial şəbəkələrdə) yerləşdirilib.

Gündəliyə uyğun olaraq iclasda Müşahidə Şurası tərəfindən fondun fəaliyyətini tənzimləyən bir sıra qaydalara dəyişikliklər edilib.

İclasda həmçinin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" dövlət başçısının 2021-ci il 7 iyul tarixli Fərmanına uyğun olaraq fondun nəzdində fəaliyyət göstərən Gənclərin İnkişafı və Karyera Mərkəzinin regional mərkəzlərinin yaradılması yolu ilə strukturunun təkmilləşdirilməsi qərara alınıb. Dəyişikliklər fəaliyyətin effektivliyini saxlamaqla strukturun optimallaşdırılmasına imkan yaradacaq.

Qeyd edək ki, Gənclər Fondunun Müşahidə Şurasının tərkibinə - gənclər və idman nazirinin müavini İndira Hacıyeva, mədəniyyət nazirinin müavini Səadət Yusifova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, elm və təhsil nazirinin müavini Həsən Həsənli, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) sədri Azər Əliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri Pərviz Mirələmli, Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) İdarə Heyətinin üzvü Emiliya Bayramova və Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) İdarə Heyətinin üzvü Bəxtiyar İslamov daxildirlər.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu cədvəlinə əsasən, aprelin 14-də energetika naziri Pərviz Şahbazov Şamaxıda vətəndaşları qəbul edib.

Nazirlikdən bildirilib ki, qəbulda vətəndaşların elektrik enerjisi və qaz təchizatı, sayğaclaşma, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Şamaxı, Ağsu, Ağcabədi və Qobustan rayonlarından olan vətəndaşlar iştirak edib.

* * *

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Kürdəmir rayonunda Kürdəmir və Hacıqabul rayonlarının sakinlərini qəbul edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qəbul zamanı vətəndaşların pensiya və müavinət, digər sosial təminat növlərinə hüququn müəyyən olunması, mənzil və avtomobillə təminat, əlillik və reabilitasiya, aktiv məşğulluq proqramlarına cəlbolunma məsələlərinə dair müraciətləri dinlənilib. Müraciət edənlər arasında şəhid ailəsi üzvü və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılaraq nəticəsinə uyğun tədbirlər görülüb. Müraciətlərinə uyğun olaraq müvafiq mövzularda izahatlar verilməklə vətəndaşlar sosial müdafiə və aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq, ictimai işlər proqramlarına, reabilitasiya və sosial xidmətlərə cəlb edilmək üçün qeydiyyata alınıblar.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova aprelin 14-də Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində Mingəçevir və Yevlaxdan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən vətəndaşlar əsasən sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, ailələr boşandıqdan sonra uşaqlarla ünsiyyətin bərpası, alimentin alınması, ünvanlı sosial yardım, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşların Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

* * *

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsini müvəqqəti icra edən Köçərli Həsənov aprelin 14-də Naftalan şəhərində Naftalan, Goranboy və Xocalıdan olan sakinlərlə görüşüb.

"Azərsu"dan verilən məlumata görə, Naftalan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 29 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və tullantı sularının axıdılması xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Müraciətlərin araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

***AZƏRTAC***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Bursa şəhərinə səfəri başa çatıb

Qardaş Türkiyədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Ədalət və İnkişaf Partiyasının Bursa şəhər təşkilatında görüş keçirilib.







AZƏRTAC xəbər verir ki, görüşdən sonra təşkil edilən mətbuat konfransında müzakirə olunan məsələlər barədə KİV nümayəndələrinə məlumat verilib.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Bursa Şəhər Təşkilatının sədri Davut Gürkan ölkələrimiz arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətindən danışıb. O, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin səfərinin həmrəyliyin nümunəsi olduğunu söyləyib. Davut Gürkan Azərbaycanın və Türkiyənin istənilən şəraitdə və vəziyyətdə bir-birinin yanında olduqlarını qeyd edib. Bildirilib ki, "bir millət, iki dövlət" amalına əsaslanan Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı illər keçdikcə daha da dərinləşib və güclənib. Davut Gürkan hər iki ölkənin iqtidar partiyaları arasında çox güclü əlaqələrin qurulduğunu da xatırladıb.

Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala bildirib ki, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan ölkələr yoxdur. Dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri müharibədən sonrakı dövrdə də yüksələn xətt üzrə inkişaf edir. Qardaş ölkələrimizin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iradəsi, səyləri sayəsində uğurla inkişaf edir. İki qardaş ölkənin hakim partiyaları YAP və AK Parti də bu prosesdə çox mühüm rol oynayırlar. Son iki-üç il ərzində partiyalar arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Söhbət zamanı YAP ilə AK Parti arasında münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. 2021-ci ildə iki partiya arasında imzalanmış əməkdaşlıq protokolundan irəli gələrək mühüm addımların atıldığı, qarşılıqlı səfərlərin əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyi diqqətə çatdırılıb.

Sonra YAP nümayəndə heyəti Bursa Sənaye-Ticarət Palatasında olub. Görüşdə Türkiyə ilə Azərbaycan arasındakı strateji müttəfiqliyə əsaslanan çoxşaxəli münasibətlərin nümunəvi xarakter daşıdığı qeyd edilib. Bildirilib ki, bütün sahələrdə olduğu kimi, iqtisadi müstəvidə də ölkələrimiz arasında səmərəli əməkdaşlıq mövcuddur və iş adamları bu prosesdə fəal rol oynayırlar. Səfər çərçivəsində nümayəndə heyəti Bursada tarixi məkanları ziyarət edib.



Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti həmçinin Bursada Qafqaz-Axıska dərnəkləri və azərbaycanlı tələbələrin iştirakı ilə təşkil edilən iftar mərasimində iştirak edib. İftardan əvvəl müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

Çıxışlarda Azərbaycan ilə Türkiyənin "bir millət, iki dövlət" kimi tarixi köklərə bağlı olduğu, ortaq dini və milli dəyərlərin yaşadıldığı vurğulanaraq, dostluq, qardaşlıq mesajları verilib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü reallıqlar Türkiyə Respublikasının qurucusu, Böyük Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" kəlamlarının real həyatda təsdiqini tapdığını əks etdirir.

Tahir Budaqov bildirib ki, Azərbaycan-Türkiyə əlaqələri son dövrlər daha da inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə qalxıb. Xalqımız Türkiyənin İkinci Qarabağ müharibəsində verdiyi qardaşlıq dəstəyini heç zaman unutmur. Eyni zamanda Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında yaxından iştirak edirlər. Azərbaycan da çətin anlarda daim Türkiyənin yanındadır. Fevral ayında baş verən zəlzələlər zamanı Azərbaycan xalq və dövlət olaraq qardaş Türkiyəyə öz yardımını göstərdi və bu dəstək bu gün də davam edir. Nümayiş etdirilən qarşılıqlı həmrəylik, dəstək, birlik və vahid mövqe, həyata keçirilən layihələr onu deməyə əsas verir ki, xalqlarımızın böyük qürur duyduqları Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillər tərəfindən də davam etdiriləcək.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov Rayon Təşkilatının sədri Samir Vəliyev daxildirlər.

# *Xələf XƏLƏFOV:* "Ermənistanın təxribatları onun sülh prosesində maraqlı olmadığının bariz nümunəsidir"

Aprelin 14-də Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov Səmərqənd şəhərində keçirilən Müstəqil Dövlətlər Birliyinin (MDB) Xarici İşlər Nazirlərinin məhdud tərkibdə keçirilən iclasında çıxış edib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir müavini çıxışında ölkəmizin MDB çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığa və hökumət başçıları, o cümlədən xarici işlər nazirlikləri səviyyəsində məhsuldar qarşılıqlı fəaliyyətin davam etdirilməsinə əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Çıxış zamanı MDB-nin qarşılıqlı fəaliyyət məsələləri ilə yanaşı, müasir dünyada təhlükəsizlik və yeni çağırış və təhdidlərə qarşı mübarizənin aktual məsələlərinin müzakirə olunduğu siyasi məsləhətləşmələr mexanizmi olduğu bildirilib. Mövcud çətin beynəlxalq şəraitdə MDB ölkələrinin xüsusən təhsil, elm, mədəniyyət, səhiyyə, gənclər və idman sahələrində əməkdaşlığı genişləndirməkdə davam etdirdikləri diqqətə çatdırılıb.

Nazir müavini daha sonra Azərbaycanın keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması, o cümlədən ölkəmizin regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində davam edən səylərindən, Azərbaycan hökuməti tərəfindən işğaldan azad edilmiş ərazilərin genişmiqyaslı bərpası və inkişafı məqsədilə həyata keçirilən layihələrdən, erməniəsilli əhalinin reinteqrasiyası prosesindən bəhs edib.

Azərbaycan tərəfindən atılan müsbət addımların fonunda Ermənistanın əksinə, vəziyyəti gərginləşdirməkdə davam etdiyini bildirən nazir müavini qarşı tərəfin müxtəlif təxribat xarakterli hərəkətlərdən istifadə etməklə Azərbaycanın və bütövlükdə beynəlxalq ictimaiyyətin iki ölkə arasında sülhün bərqərar olması və münasibətlərin normallaşdırılması istiqamətində ardıcıl səylərini sarsıtmaq cəhdlərindən söz açıb. Bu xüsusda nazir müavini aprelin 11-də Ermənistanın Gorus rayonunun Dığ kəndi istiqamətindən Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan Respublikasının Laçın rayonu ərazisindəki Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması nəticəsində Azərbaycan Ordusunun hərbçilərinin şəhid olduğunu və yaralandığını bildirib.

Nazir müavini beynəlxalq ictimaiyyətin sülh sazişi üzrə danışıqlara dair ciddi çağırışları fonunda Ermənistanın bu kimi təxribatlarının sülh prosesində maraqlı olmadığının bariz nümunəsi olduğunu iclas iştirakçılarının diqqətinə çatdırıb.

Çıxışında Laçın yolunun, guya, Azərbaycan tərəfindən bağlanması ilə bağlı erməni tərəfinin fərziyyələri ilə bağlı məsələyə aydınlıq gətirən nazir müavini Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarının, bu sərvətlərin Ermənistana daşınmasının və sırf humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının yolverilməz olduğunu vurğulayıb. Suveren Azərbaycan ərazilərində bu kimi fəaliyyətlərin Azərbaycan dövlətinin təhlükəsizliyinə və bütövlüyünə ciddi təhlükə yaratdığını bildirib.

Bu xüsusda nazir müavini Azərbaycanın Ermənistandan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın, eləcə də Praqa və Soçi razılaşmalarının bütün müddəalarının, xüsusən də qeyri-qanuni erməni silahlı birləşmələrinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən çıxarılmasının təmin olunması, habelə nəqliyyat kommunikasiyalarının açılması, dövlət sərhədinin delimitasiyası ilə bağlı danışıqlar prosesinin davam etdirilməsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində real addımlar atmasını gözlədiyini vurğulayıb.

# Yeni strateji tərəfdaş

## İlham Əliyevin Bosniya və Herseqovinaya rəsmi səfəri, imzalanan birgə bəyannamə münasibətlərin daha da dərinləşməsinə yeni impuls verdi

Əvvəli 1-ci səh.

### Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qardaşlaşan Bakı və Sarayevo şəhərləri

Azərbaycanın Balkan ölkələri ilə münasibətlərində Bosniya və Herseqovina ilə əlaqələr mühüm yer tutur. Azərbaycan öz xarici siyasətində bütün ölkələrlə qarşılıqlı faydalılıq prinsipi, hörmət, ehtiram əsasında inkişaf etdirilməsinin tərəfdaşı kimi çıxış edir və bu da özünü Bosniya və Herseqovina arasında münasibətlərdə də çox qabarıq şəkildə göstərir.

Bosniya və Herseqovinanın əhalisinin 51 faizini müsəlmanlar təşkil edir. Azərbaycanın bu ölkə ilə münasibətlərinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin təşəbbüsü ilə 1972-ci il oktyabrın 20-də Bakı və Sarayevo şəhərləri arasında dostluq və əməkdaşlıq sazişi imzalanıb.

İki ölkə arasında daim yüksək səviyyədə olan siyasi dialoq 2012-ci il oktyabr ayının 18-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin münasibətlərin tarixində ilk dəfə olaraq Azərbaycana rəsmi səfərindən sonra daha da genişlənib. Bu səfər zamanı imzalanan sənədlər, aparılan danışıqlar münasibətlərin inkişafına yeni dinamizm gətirib.

Yüksəksəviyyəli sonuncu belə səfər isə bu ilin fevralında reallaşıb. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edib və martın 1-də Prezident İlham Əliyev ilə görüşüb. Həmin görüşdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi münasibətlərin çox yaxşı səviyyədə olduğu qeyd edilib, iqtisadi-ticari əlaqələrin daha da gücləndirilməsinin, həmçinin biznes dairələri arasında birbaşa təmasların təşviqinin vacibliyi bildirilib. Bu xüsusda iqtisadiyyat, ticarət, investisiya, enerji və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğu vurğulanıb. Jelka Tsviyanoviç görüşdə Azərbaycan Prezidentini ölkəsinə səfərə dəvət etmişdi.

İlham Əliyev də bu ölkəyə səfəri zamanı mətbuata bəyanatla çıxışında həmin dəvəti xatırladaraq "Bir ay yarım bundan əvvəl Bakıda görüşmüşdük. Siz məni ölkənizə dəvət etmişdiniz və mən böyük məmnuniyyətlə bu dəvəti qəbul edib bu gün Sizin ölkənizdəyəm"- fikrini səsləndirdi.

İlham Əliyev bu səfəri dəyərləndirərkən bildirdi ki, bu gün münasibətlərin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar yeni imkanlar açır. O cümlədən imzalanmış strateji tərəfdaşlıq haqqında birgə bəyannamə gələcək inkişafın istiqamətlərini göstərir: "Biz müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələr aparacağıq. Eyni zamanda iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. Birgə komissiya, yəni Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilmişdir. Bu gün aparılan danışıqlar əsnasında eyni zamanda konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq".

Strateji tərəfdaşlıq əlaqələrinin xüsusi əlaqələr olduğunu deyən İlham Əliyev bunun hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyduğunu vurğuladı və hər iki ölkənin bu məsuliyyətə hazır olduğunu söylədi. Prezident əminliklə bildirdi ki, hər iki ölkə, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

### 5 milyon dollarlıq ticarət dövriyyəsi, 79-cu xarici ticarət tərəfdaşı

Azərbaycan ilə Bosniya və Herseqovina arasında iqtisadi münasibətlər sürətlə inkişaf etsə də, mövcud göstəricilər bu sahədəki potensialı tam əks etdirmir. Belə ki, 2022-ci ildə Bosniya və Herseqovina Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 5 milyon dollar, o cümlədən idxalın həcmi 2 milyon dollar, ixracın həcmi isə 3 milyon dollar təşkil edib. 2021-ci illə müqayisədə ötən il Bosniya və Herseqovina ilə ticarət dövriyyəsi üç dəfə artıb.

İqtisadi əlaqələri dəyərləndirən İlham Əliyev qeyd edib ki, əməkdaşlığın digər istiqamətləri ilə bağlı ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Azərbaycan Bosniya Herseqovinaya sərmayə qoymaqda maraqlıdır. Eyni zamanda energetika sahəsində çox geniş imkanlar var. Azərbaycanın təşəbbüskarı olduğu "Cənub qaz dəhlizi"nin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddətdir ki, bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir: "Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir".

### "Ölkəmizdə bir çətinlik baş verəndə Azərbaycan hər zaman yanımızda olub"

Xanım Jelka Tsviyanoviç isə Azərbaycana, xüsusən də İlham Əliyevə ölkəsinə göstərilən hərtərəfli yardıma görə təşəkkürünü bildirərək deyib ki, 2014-cü ildə bu ölkədə baş vermiş daşqın zamanı xalq böyük çətinliklərlə üzləşib. Həmin zaman Azərbaycan dost ölkənin yanında olub. Həmçinin koronavirus və pandemiya dövründə də Azərbaycan bu ölkəyə yardım əlini uzadıb: "Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdur".

Jelka Tsviyanoviç vurğulayıb ki, imzalanan birgə bəyannamə iki ölkəni strateji tərəfdaşa çevirib və bu sənəd daha sıx siyasi dialoqun həyata keçirilməsinə, eyni zamanda daha səmərəli iqtisadi əməkdaşlığa imkan yaradacaq. Bunun sayəsində işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcək, eyni zamanda təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq.

Qeyd edək ki, 2014-cü ildə Bosniya və Herseqovinada baş vermiş təbii fəlakət nəticəsində sel daşqınlarından zərərçəkmiş insanlar üçün Azərbaycan tərəfindən 336 min dollar dəyərində humanitar yardım göndərilib. Koronavirusla mübarizəyə dəstək məqsədilə Azərbaycandan bu ölkəyə 2020-ci ildə 244 min dollar dəyərində tibbi və gigiyenik məhsullardan ibarət humanitar yardım, 588 min dollar məbləğində humanitar məqsədli maliyyə yardımı edilib. Azərbaycan 2021-ci ildə Bosniya və Herseqovinaya 160 min dollar dəyərində 40 min doza "AstraZeneca" peyvəndi göndərib.

### Birgə layihələrin həyata keçirilməsində səmərəli platforma

İlham Əliyevin Bosniya və Herseqovinaya səfəri bir daha göstərdi ki, iki ölkə arasında tərəfdaşlıq qarşılıqlı hörmət və dostluq üzərində qurulub, keçirilən görüşlər, aparılan müzakirələr əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə stimul verəcək.

Bununla yanaşı, hökumətlər arasında Birgə İqtisadi Komissiyanın yaradılması əlaqələrin genişlənməsində, müxtəlif sahələrdə layihələrin həyata keçirilməsində səmərəli platforma olacaq.

Bu səfər həm ikitərəfli, həm də beynəlxalq qurumlar səviyyəsində münasibətlərə yeni çalarlar gətirilməklə əlaqələrin güclənməsinə, eləcə də ticari-iqtisadi, investisiya, enerji, nəqliyyat, humanitar, turizm və digər sahələrdə əməkdaşlıq üçün mövcud olan imkanlardan daha dolğun şəkildə istifadə edilməsinə mühüm töhfə olacaq, münasibətlərin yeni inkişaf mərhələsinə keçməsinə müsbət impuls verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Daxili İşlər Nazirliyinin kollegiya iclası olub





Aprelin 14-ü Daxili İşlər Nazirliyində mülkiyyət əleyhinə cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılmasının, prosessual araşdırmalar zamanı qanunçuluğa və uçot-qeydiyyat intizamına riayət edilməsinin, ailə münaqişəsi zəminində törədilən cinayətlərin profilaktikası sahəsində görülən işlərin vəziyyətinə həsr olunmuş kollegiya iclası keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov möhkəm təməllərə söykənən ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyətin digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə cari ilin birinci rübündə məqsədyönlü şəkildə davam etdirildiyini bildirib.

Ümumi cinayətlərin açılması 81,9 faiz təşkil edib və 80,3 faizi böyük ictimai təhlükə törətməyən və az ağır növlər olub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 9.448 cinayətin 83,5 faizi, o cümlədən keçmiş illərdən bağlı qalmış 95 cinayət açılıb. Qəsdən adamöldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, mənzillərdən edilən oğurluqlar, mal-qara oğurluqları, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən və odlu silahın tətbiqi ilə baş verən hüquqazidd əməllər 2022-ci ilin 3 ayı ilə müqayisədə azalıb. Ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adamöldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, habelə quldurluqların açılması yaxşılaşıb. İstintaq prosesində görülmüş tədbirlərlə cinayətlərdən zərər çəkmiş şəxslərə vurulmuş maddi ziyanın 78,5 faizi ödətdirilib.

Həmçinin yerli və dövlətlərarası axtarışda olan 1572 təqsirləndirilən şəxs tutulub, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilən tədbirlərlə 170 cinayətkar qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 59 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 1 ton 418 kiloqram, yəni ötən ilin analoji dövrü ilə müqayisədə 354 kiloqram çox narkotik vasitə çıxarılıb. Müxtəlif kriminal əməllər törətmiş 4 min nəfər məhkəmə məsuliyyətinə verilib.

Ölkədə keçirilmiş 183 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə, habelə işğaldan azad edilmiş ərazilərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti hüquq qaydasının təmini vəzifələrini tam yerinə yetirib.

Kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə 1258 vətəndaşın qəbulu həyata keçirilərək qaldırılan məsələlərin əksəriyyəti yerində həll edilib, 23 min 42 vətəndaş müraciəti hərtərəfli və obyektiv araşdırılıb, təşəbbüskarlar hüquqları izah edilməklə yazılı məlumatlandırılıb. Nazirliyin "102" Xidmətinə və qaynar xətlərinə daxil olan, eləcə də sosial şəbəkələrdə yayımlanan hər bir şikayətə çevik reaksiya verilib, insanların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi təmin edilib.

Kollegiyada bayır xidmətinin fəaliyyətinin təşkili və vətəndaşların narazılığını doğuran hüquqpozmaların qarşısının alınması üzrə verilmiş tapşırıqların icrası barədə nazir müavini polis general-mayoru Oqtay Kərimov, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə təşviq edilməsi məsələsi ilə əlaqədar Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov, gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi polis general-mayoru Arzu Daşdəmirov, Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi polis general-mayoru Emil Usubov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi polis general-mayoru Sərdar Səfərov məruzə ediblər.

Müzakirə olunan məsələlər ətrafında bir sıra ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, şəxsi heyətin xidməti vəzifələrin icrasını böyük əzmlə həyata keçirdiyini, xüsusən respublikada və onun paytaxtı Bakı şəhərində ağır və xüsusilə ağır cinayətlərin açılmasında yüksək peşəkarlıq, qətiyyət və operativlik göstərmiş nazirliyin və ərazi polis qurumlarının 136 əməkdaşının mükafatlandırıldığını diqqətə çatdırıb.

Eyni zamanda hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin və vətəndaş məmnunluğunun təmin edilməsinin vacibliyini nəzərə çatdıraraq bu istiqamətlərdə fəaliyyətin səmərəliliyinin artırılması, ümumi işə mənfi təsiri olan halların qarşısının alınması ilə bağlı vəzifələri müəyyən edib, eləcə də tapşırıq və tövsiyələrini verib.

Nazir general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcək.

# Ermənınin vəhşi xisləti dəyişmir

## Dünya Hayastanın cinayət əməllərinə susmamalıdır



**Azərbaycan həkimləri tibbi yardıma ehtiyac duyan ermənilərə kömək edirlər**



**Əsir düşən azərbaycanlı gəncə qarşı ənənəvi erməni vəhşiliyi törədilir**

Aprelin 4-də azərbaycanlı həkimlərin Xankəndi-Laçın yolunda Qarabağda yaşayan erməniəsilli vətəndaşlara tibbi yardım göstərmələri, onlarla bərabər Xankəndiyə yollanaraq oradakı xəstəxanamızda da həkimlik missiyalarını layiqincə yerinə yetirərək həmin vətəndaşlarımızın həyatlarını xilas etmələri ilə bağlı Azərbaycan mediasında xəbərlər yer aldı.

Xalqımızın humanizminə sadə bir nümunə olan həmin hadisənin üzərindən cəmi 10 gün keçdikdən sonra, aprelin 13-də isə Hayastan KİV-ində ermənilər tərəfindən əsir götürülmüş və dəhşətli işgəncələrə məruz qalmış azərbaycanlı əsgər Axundov Hüseyn Əhliman oğlunun görüntülərini əks etdirən foto və videolar yayıldı.

Və cəmi 10 gün ara ilə baş verən elə bu iki bir-birinə zidd hadisənin fonunda Cənubi Qafqazdakı hazırkı real situasiyanı, hansı dövlətin sülh, hansı xalqın gərginlik və müharibə tərəfdarı olduğunu bariz şəkildə ortaya qoydu.

### Hayastanda əsir götürülən hərbçimizə dəhşətli işgəncələr verilib

Xatırladaq ki, bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb.

Sosial şəbəkələrdə yayılmış videogörüntülərin birində əsir götürülmüş Axundov Hüseyn Əhliman oğluna qarşı fiziki işgəncə və qeyri-insani rəftar halları əks olunub. Hayların etnik zəmində azərbaycanlılara qarşı törətdikləri növbəti zorakılıq faktını özündə əks etdirən bu görüntülərdən də aydın olur ki, ermənilər əsgərimizi möhkəm döyərək ona fiziki işgəncə veriblər.

Hayların əsir əsgərimizə qarşı törətdikləri bu cinayət əməlləri beynəlxalq hüquqa ziddir və bir daha təkzibolunmaz şəkildə təsdiqləyir ki, ermənilər xalqımıza qarşı vəhşiliklərini davam etdirirlər, özü də dünyanın gözü qarşısında.

O dünyanın ki, 1988-1994-cü illər ərzində, atəşkəs dövründə, eləcə də İkinci Qarabağ müharibəsi zamanı və ondan sonrakı dövrdə mülki və hərbi şəxslərimizə qarşı müharibə cinayətləri törədən, vətəndaşlarımıza qarşı soyqırımı həyata keçirən, girov, əsir götürərək olmazın işgəncələrə məruz qoyan, öldürən, ölkəmizə qarşı işğal siyasəti yeridən, təxribatlar törədən dövlət siyasəti faşizmə köklənən Hayastana gözün üstündə qaşın var demir, qansız ermənilərin insanlıqdan uzaq qatil əməllərinə göz yumur.

Hayastan tərəfindən əsirlərə qarşı nümayiş etdirilən bu zorakılıq 1949-cu il Cenevrə Konvensiyalarının, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın (CERD), beynəlxalq humanitar və insan haqları hüququndan irəli gələn digər beynəlxalq öhdəliklərin Hayastan tərəfindən kobud şəkildə pozulmasıdır.

### Beynəlxalq təşkilatlar zorakılıq faktlarını araşdırmalı və lazımi qiymət verməlidirlər

Hayastanda hərbçimizə işgəncə verilməsi faktı ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında bildirilir ki, Ermənistan tərəfindən etnik zəmində zorakılığın növbəti nümunəsi olan sözügedən vəziyyət ilə əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar müvafiq olaraq məlumatlandırılıb.

Məlumatda vurğulanır ki, aidiyyəti beynəlxalq təşkilatlar sözügedən zorakılığa, o cümlədən Ermənistan tərəfindən son 30 ildən artıq müddətdə azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, itkin düşən 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq faktlarını araşdırmalı və lazımi qiymət verməlidirlər.

Məsələ ilə əlaqədar Azərbaycan ombudsmanı Səbinə Əliyeva bəyanat verib: "Azərbaycan ombudsmanı olaraq hərbi qulluqçumuza qarşı bu cür qeyri-insani rəftar göstərilməsi faktı ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət edərək, bu fakta reaksiya verməyə və Ermənistanı beynəlxalq hüququn üzərinə götürdüyü tələblərinə riayət etməyə çağırmağa dəvət edirəm. Eyni zamanda Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyindən təcili olaraq həmin hərbi qulluqçularımıza baş çəkilməsini və onların vəziyyəti ilə bağlı məlumatların verilməsini tələb edirəm".

Azərbaycanın qeyri-hökumət təşkilatları da Hayastanda 2 əsgərimizin saxlanması və onlara qarşı qeyri-insani rəftarla bağlı beynəlxalq ictimaiyyətə müraciət ediblər: "Biz müvafiq beynəlxalq təşkilatları və ədalət keşiyində duran qurumları insan hüquqlarına və beynəlxalq humanitar hüquqa bu qeyri-bərabər hörmətsizlik qarşısında səssiz qalmamağa, bu məsələ başda olmaqla növbəti faciələrin qarşısını almaq üçün təcili tədbirlər görməyə çağırırıq".

### Dörd minə yaxın azərbaycanlının taleyi barədə hələ də məlumat yoxdur

Hayastanın xalqımıza qarşı törətdiyi cinayətlər yuxarıda sözügedən faktlarla yekunlaşmır. Birinci Qarabağ müharibəsindən etibarən erməni silahlı qüvvələri tərəfindən azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı qırğınlar törədilib, 1992-ci ildə Xocalıda soyqırımı həyata keçirilib. Bu günədək Hayastan Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verməyib.

İşğal dövründə Hayastan torpaqlarımızı mina tarlasına çevirib və ilkin hesablamalara görə, ərazilərimizdə bir milyondan çox mina basdırıb. Hayastan torpaqlarımıza basdırdığı minaların dəqiq xəritələrini verməkdən boyun qaçırmaqla yanaşı, 44 günlük müharibədən sonra da terrorçu əməllərindən vaz keçməyərək Laçın yolundan istifadə edərək ərazilərimizdə mina basdırmaqda israrlı olub. Xeyli sayda hərbi və mülki şəxsimiz Hayastanın mina terrorunun qurbanı olub.

Elə aprelin 13-də Laçın rayonunun Sus kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə mina partlayışı hadisəsinin baş verməsi və nəticədə bir nəfər mülki şəxsin xəsarət alması ermənilərin mina terrorunun xalqımızın həyatına təhlükə olduğunu bir daha sübut edir.

Dünyanın gözü qarşısında əl atdığı bu hərbi cinayətlərə görə Hayastan təəssüf ki, beynəlxalq səviyyədə hüquqi məsuliyyətə cəlb olunmayıb.

### Bütün bu cinayət əməllərinin hesabını "dəmir yumruq" soruşacaq

Ən dəhşətli məqamlardan biri isə zaman keçsə də, erməni xislətinin dəyişməməsi ilə bağlıdır. Diqqət edin, aprelin 13-də ermənilər işgəncə verdikləri hərbçimizin fotolarını və videosunu böyük sevinclə paylaşdılar, bu vəhşi əməlləri ilə fəxr duyduqlarını ifadə etdilər.

"Xocalı hadisələrinədək azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq".

Gətirdiyimiz bu sitat isə Xocalıda əli yüzlərlə mülki azərbaycanlının qanına batan Ermənistanın sabiq prezidenti, müharibə cinayətkarı Serj Sarkisyanın 2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala verdiyi müsahibəsindəki qandondurucu fikirlərindəndir. Qatil Sarkisyan jurnalistin "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına isə cavab olaraq vicdan əzabı çəkmədən kinlə demişdi: "Heç bir peşmanlığım yoxdur".

Görün, üzərindən illər keçsə də, Hayastanın xalqımızı hədəf alan faşizm ideologiyalı siyasəti dəyişmir, əksinə, gündən-günə daha da amansız, qaniçən olur.

Amma "dəmir yumruq" necə ki döyüş meydanında Hayastanı qarşısında diz çökdürüb yalvarmağa məcbur etdi, eləcə də faşist xislətli ermənilərin xalqımıza, ölkəmizə qarşı törətdiyi cinayət əməllərinin hesabını da bir-bir soruşacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



**Heydər Əliyev İli 2023**



# Qafqazın lideri

44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğalçı Ermənistan üzərində qazanılan qələbədən rahatsız olan bəzi uzaq və yaxın dövlətlər regionu yenidən qarışdırmağa, sülhün qurulmasına və əməkdaşlığa mane olmağa çalışırlar. Həmin dövlətlər Qafqazı nə qədər dərindən bilirlər? Belə siyasət onu yürüdənlərə xeyir gətirə bilərmi? Bu suallara cavab vermək üçün həmin dövlətlərin anadan olmasının 100-cü ilində Ulu Öndər Heydər Əliyevin Qafqaz problemlərinə dair baxışlarını bilmələri və ibrət dərsləri almaları faydalı olardı.

1993-2003-cü illərdə Heydər Əliyev nitqində, müsahibələrində, ikitərəfli və çoxtərəfli danışıq və görüşlərində Qafqaz problemlərinə, regionda baş verən ictimai-siyasi, hərbi və digər proseslərə münasibət bildirmişdir. O, ilk növbədə, soyuq müharibə başa çatdıqdan və yeni müstəqil dövlətlər yarandıqdan sonra Qafqaz regionunun dərindən öyrənilməsinin zəruriliyini söyləmişdir.

Heydər Əliyevin Qafqaz regionu məsələlərinə baxışlarını aşağıdakı kimi sistemləşdirmək olar: Qafqazın geosiyasi mövqeyi, başlıca problemləri, böyük və qonşu dövlətlərin Qafqaza dair siyasəti; Qafqazda münaqişələr, dövlətlərarası münasibətlər, regional təhlükəsizlik və sülh məsələləri; ikitərəfli və çoxtərəfli əməkdaşlıq; millətlərarası münasibətlər; dinlərarası dialoq; Qafqazın gələcəyi və sairə. Bu məsələlərin tarixi-xronoloji ardıcıllıqla araşdırılması Heydər Əliyevin Qafqaz problemlərinə baxışlarının mahiyyətini və məqsədlərini öyrənməyə, müvafiq dərslər almağa imkan verir.

XX əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəllərində dünyada baş verən təlatümlü proseslərin gedişində soyuq müharibənin başa çatması, SSRİ-nin dağılması dünyanın böyük dövlətlərinin və qonşu ölkələrin diqqətini Qara dəniz, Azov dənizi və Xəzər dənizi arasında Şərq və Qərbi, Şimal və Cənubu birləşdirən vacib strateji məntəqələrdən biri olan Qafqaza yönəltdi. Cənubi Qafqazda isə dünyanın ürəyi hesab edilən Avrasiyaya gedən yolda yerləşən Orta Asiyaya keçiddə etibarlı körpü, vazkeçilməz ölkə Azərbaycan Respublikasıdır.

Qafqazda baş verən mürəkkəb və ziddiyyətli proseslər, qanlı münaqişələr təkcə daxili amillərin təsirini, əsassız iddiaları deyil, eyni zamanda böyük dövlətlərin və qonşu ölkələrin siyasətini, əlverişli geosiyasi mövqelərə, zəngin təbii sərvətlərə yiyələnmək uğrunda aparılan fəaliyyəti əks etdirir. Ona görə də hələ sovet dövründən Qafqazı mükəmməl bilən Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti olduğu illərdə, ilk növbədə, Şərq ilə Qərbin qovşağında qısa yol olan, müxtəlif xalqları və mədəniyyətləri birləşdirən Qafqaz regionunun dünya siyasətində tutduğu əlverişli geosiyasi mövqeyinə xüsusi diqqət yetirməyi vacib hesab edirdi. Gürcüstan televiziyasının müxbirinə 1996-cı ilin mart ayında verdiyi müsahibəsində Heydər Əliyev Qafqazın geosiyasi əhəmiyyəti barədə deyirdi ki, baş verən proseslər təkcə bu regionda yerləşən ölkələr, yaşayan xalqlar üçün deyil, dünyanın bir çox digər ölkələri üçün də böyük əhəmiyyət kəsb edir.

Regionda müxtəlif dövlətlərin maraqlarının toqquşması problemlərin səbəblərindən biri idi. Xəzər dənizinin karbohidrogen ehtiyatlarının işlənilməsinə maraq göstərən və Cənubi Qafqaza kapital qoyuluşu ilə gələn Qərb dövlətlərini ilk növbədə özlərinin mənfəətləri düşündürürdü.

Süni surətdə yaradılmış SSRİ-nin dağılması reallığı ilə barışmayan, Cənubi Qafqaza özünün "arxa bağçası" kimi baxan və regionda baş verən proseslərə ilk öncə milli təhlükəsizliyi nöqteyi-nəzərindən yanaşan, Qərb ölkələrinin bu regiona gəlməsinin əleyhinə olan Rusiya Federasiyası maliyyə imkanları olmadığından, kapital qoyuluşu ilə mövqelərini qoruyub saxlaya bilmədiyindən ənənəvi "parçala, hökm sür" siyasətini yürüdərək münaqişələr yaradırdı. Bu ölkənin iqtisadi maraqları bütövlükdə ümumi strateji, siyasi və təhlükəsizlik maraqlarının tərkib hissəsi kimi sonra gəlirdi.

Regiona Avropa ölkələri və ABŞ-nin gəlməsində maraqlı olmayan qonşu İran İslam Respublikası da Azərbaycan Respublikasının digər ölkələrlə münasibətlərinə, ilk növbədə, enerji sahəsində əməkdaşlığına milli təhlükəsizliyinə təhdid kimi baxdığından daha çox müxtəlif üsullarla təzyiqlər göstərməyə və islam fundamentalizmini yaymağa üstünlük verirdi.

Cənubi Qafqazın gələcəyini münaqişələrsiz, region dövlətləri arasında mehriban qonşuluqda və dinc inkişafda görən Türkiyə Cümhuriyyəti burada etnik-milli və dini baxımdan böyük üstünlüyə malik idi. Region əhalisinin təxminən 70 faizini azərbaycanlılar, müsəlmanlar təşkil edirdi.

Böyük və qonşu ölkələrin bəzilərinin Cənubi Qafqaz dövlətlərinə münasibətdə tətbiq etdikləri ikili standartları yolverilməz hesab edən Heydər Əliyev vurğulayırdı ki, regional prosesləri yalnız Qafqazın mürəkkəbliyini, geosiyasi əhəmiyyətini nəzərə almaqla və tarazlaşdırılmış yanaşmalarla nizamlamaq mümkündür. Onun fikrincə, xüsusən Rusiya Federasiyasının Cənubi Qafqaz dövlətlərinə münasibətdə yürütdüyü siyasətində fərqli yanaşmalar həm bu ölkənin özünə, həm də region dövlətlərinə ziyan vururdu. Heydər Əliyev Qafqazdakı şəraitin yalnız regiondakı deyil, qonşu ölkələrin də daxili ictimai-siyasi həyatına təsir etdiyi qənaətində idi.

Qafqaz problemlərinə ədalətli yanaşmanın tərəfdarı olan Heydər Əliyev belə hesab edirdi ki, digər ölkələr özlərinin maraqları naminə Cənubi Qafqazı qarışdırmamalı, xalqları, dövlətləri qarşı-qarşıya qoymamalı, münaqişələr yaratmamalı, hərbi mövcudluqlarını artırmamalı və regionu qan gölünə çevirməməlidirlər. Heydər Əliyev regionda xarici dövlətlərin hərbi bazalarının olmasını ziyanlı və lazımsız hesab edirdi, konkret olaraq Rusiyanın Cənubi Qafqazda hərbi bazasının qurulmasının əleyhinə idi. Cənubi Qafqaz ölkələrinin hərbi ittifaqlara qoşulmasının əleyhinə çıxan Heydər Əliyevin fikrincə, belə vəziyyət regionda sülh və əməkdaşlıq imkanlarını aşağı salırdı.

Münaqişələr və müharibələr nəticəsində daimi yaşayış yerlərindən didərgin düşmüş qaçqın və məcburi köçkünləri Cənubi Qafqazın başlıca problemlərindən biri kimi görən Heydər Əliyev hesab edirdi ki, onu həll etməkdən ötrü beynəlxalq və regional təşkilatlar səy göstərməlidirlər. Çünki həmin ağrılı problemi yoluna qoymadan regionda normal həyat qurmaq mümkün deyildi.

Heydər Əliyev Avropa dövlətlərinin rəhbərləri ilə görüşlərində Qafqaz regionunu dərindən tanımalarını, maraqlarının harada olduqlarını dəqiq bilmələrini, tarazlaşdırılmış siyasət yürütmələrini tövsiyə edir və qarşılıqlı münasibətlərində Azərbaycan Respublikasının imkanlarını daim önə çəkirdi.

Heydər Əliyev özünü Sovet İttifaqının varisi sayan Rusiyanın Cənubi Qafqazda sülhə töhfə verməsini istəyirdi. Bu ölkənin xarici işlər naziri İqor İvanovu 1999-cu il sentyabrın 2-də qəbul edərkən Cənubi Qafqaz ölkələri ilə münasibətlərin güclənməsi sahəsində Rusiyanın siyasətində müəyyən dönüş yaratmaq niyyətini bəyənən, passiv olmasını ziyanlı sayan Heydər Əliyev bunun səbəbini böyük ölkə kimi Yer kürəsinin bir sıra regionlarında çoxlu dünya problemləri ilə məşğul olması ilə əlaqələndirirdi. Onun fikrincə, Qafqaz, o cümlədən Cənubi Qafqaz Rusiya üçün hər cəhətdən vacib region olmuşdu və olaraq qalırdı. Çünki Azərbaycan Respublikası və Rusiya Federasiyası həmsərhəd idilər, iki əsrə yaxın birlikdə olmuşdular, onları bir çox amillər yaxınlaşdırırdı. Heydər Əliyev dünyanın mühüm strateji məntəqəsi olan Cənubi Qafqaz problemlərinin həllinə, region dövlətləri ilə daha sıx münasibətlər yaradılmasına dair Rusiyanın Ermənistana münasibətdə yürütdüyü fərqli siyasəti düzgün xətt hesab etmirdi.

Cənubi Qafqazda münaqişələrin davam etməsini zərərli sayan Heydər Əliyev bu regiona Rusiyanın xüsusi diqqət yetirməsini vacib sayırdı. Çünki bu bölgə uzun illər boyu Rusiyanın və SSRİ-nin tərkibində olmuşdu. Lakin SSRİ dağıldıqdan sonra Rusiya Cənubi Qafqazın problemlərinin aradan qaldırılmasına ciddi səylər göstərmir, əksinə, onu daha da dərinləşdirirdi. Bu isə bütün Qafqazda təhlükəsizliyə təhdid idi. Ona görə də Heydər Əliyev, ilk növbədə, münaqişələrin həllini, hər bir müstəqil dövlətin ərazi bütövlüyünün tanınmasını, sülh və sabitlik yaradılmasını vacib hesab edirdi.

Qafqazda yaşayan xalqların etnik, milli və dini mənsubiyyətinin müxtəlifliyi həm bu regionun zənginliyidir, həm də uzun illər boyu imperiyanın siyasəti nəticəsində süni surətdə yaradılmış və sovet dövründə davam etdirilmiş mövcud problemlərdən bəzi dövlətlərin öz maraqları naminə sui-istifadə etməsinin təsirli amillərindən biridir. Həmin dövlətlər bu müxtəliflikdən özlərinin niyyətlərini gerçəkləşdirmək üçün zaman-zaman istifadə edərək günahsız qanların tökülməsinin baiskarı olmuşlar. Onlardan fərqli olaraq Heydər Əliyev Qafqaz regionunda yaşayan xalqların etnik və dini baxımdan müxtəlifliyini zənginlik, qarşılıqlı faydalanma və mehriban qonşuluğa xələl gətirməyən, əksinə, onları yaxınlaşdıran amillər kimi görərək mövcud olan problemlərin tənzimlənməsi üçün çağırışlar edir və buna çox çalışırdı.

Qafqazda sülh və təhlükəsizlik məsələlərinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1996-cı ilin martında Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə birlikdə "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında" bəyannaməni imzaladı. O, ümid edirdi ki, bəyannaməyə Qafqazın sülhsevər qüvvələri, dövlətləri qoşulacaqlar və bu, sülh, əmin-amanlıq yaratmaq üçün yaxşı bir əsas olacaq və yeni yollar açacaqdır.

Heydər Əliyevin fikrincə, Qafqazda sülhü möhkəmləndirmək təşəbbüsündən yüksək heç nə ola bilməzdi. Ancaq bu təşəbbüsün həyata keçirilməsi asan deyildi, çünki onun əleyhinə çıxanlar da var idi. Heydər Əliyev hesab edirdi ki, regionda sülhün bərqərar olmasına müqavimət göstərənlər Qafqazda da, dünya ictimaiyyətinin gözündə də təcavüzkar, münaqişə və sabitsizlik tərəfdarı kimi görünənlərdi. O, bu məsələdə sağlam düşüncənin üstün gələcəyinə, Qafqazda münaqişələr və sabitsizlik ucbatından baş verənlərə baxmayaraq, sülhə doğru inamla irəliləməyə, buranın dinc, təhlükəsiz, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq regionu olacağına inanırdı. Şimali Qafqazda yaranmış şəraitlə əlaqədar bildirirdi ki, Azərbaycan dövləti həmişə separatçılığın, terrorçuluğun əleyhinə olub və indi də əleyhinədir.

Heydər Əliyev bu məsələdə özünün prinsipial mövqeyini Müstəqil Dövlətlər Birliyinin dövlət başçılarının 1996-cı il yanvarın 19-da Moskvada keçirilən görüşündə gürcü-abxaz münaqişəsinə dair Prezident Eduard Şevardnadzenin təklifi müzakirə olunarkən söyləmiş və onu müdafiə etmişdi. Bildirmişdi ki, Azərbaycanın və Gürcüstanın öz ərazi bütövlüyü uğrunda apardığı mübarizə ədalətlidir, Azərbaycan həmişə haqq işinin yanındadır.

Qafqaz ölkələri rəhbərlərinin və xalqlarının əməkdaşlığını vacib sayan Heydər Əliyev 1996-cı il iyunun 3-də Ermənistan, Gürcüstan və Rusiya dövlət başçılarının, habelə Rusiya Federasiyasının subyektləri olan Şimali Qafqaz respublikaları, diyarları və vilayətləri rəhbərlərinin Kislovodskda keçirilən görüşündəki nitqində deyirdi ki, Qafqaz Yer kürəsinin bir çox regionlarından özünün bir sıra xüsusiyyətləri, müstəsna gözəl təbiəti, çoxmillətli tərkibi, burada yaşayan xalqların özünəməxsus ənənə və adətləri ilə səciyyələnir. Qafqazın tarixinə bu xalqların dostluğu və qardaşlığı haqqında neçə-neçə parlaq səhifələr yazılmış, Sovet İttifaqının süqutundan sonra regionun siyasi xəritəsi əhəmiyyətli dərəcədə dəyişmiş, müstəqil suveren dövlətlər - Azərbaycan Respublikası, Ermənistan Respublikası və Gürcüstan Respublikası yaranmışdır.

Qafqazı qarşıdurma, rəqabət, toqquşma deyil, sülh və əməkdaşlıq regionu kimi görən, sülh və təhlükəsizlik paktı ideyasını irəli sürərək gerçəkləşdirilməsinin vacibliyini bildirən Heydər Əliyev ATƏT-in 1999-cu ildə İstanbulda keçirilən Zirvə toplantısında etdiyi nitqində sülh və təhlükəsizlik məsələlərinə daha geniş baxaraq vurğulayırdı ki, regional proseslərin tənzimlənməsini və əməkdaşlığı nəzərdə tutan bu paktda təkcə Rusiya deyil, Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı, Türkiyə və ATƏT-in maraqlı olan digər ölkələri də iştirak edə bilərlər. Bundan ötrü regionda təhlükəsizlik təmin edilməli, etnik təmizləmənin və separatizmin aradan qaldırılması üçün birgə səylər göstərilməli, xarici hərbi qüvvələr çıxarılmalı idi. Belə bir paktın reallaşdırılması və davamlılığı üçün dövlətlərin, xüsusən, güc mərkəzlərinin ikili standartlardan imtina etmələrinin vacibliyini, eyni zamanda dövlətlərin keçmişdə baş vermiş hansısa xüsusi məsələlərə bağlı qalmasının da sülh və təhlükəsizliyin əldə olunmasına təhdid törətdiyini vurğulayırdı.

Pakta hətta Ermənistanın da qoşulmasını mümkün hesab edən Heydər Əliyevin fikrincə, bundan ötrü dövlətlər bir-birinə qarşı əsassız ərazi iddiaları irəli sürməməli, bir ölkənin ərazisində digərinin hərbçiləri saxlanılmamalı və regiondan xarici hərbi qüvvələr çıxarılmalı idi.

Qafqaza bütöv baxan Heydər Əliyev hesab edirdi ki, həm cənubi, həm də şimali Qafqazda sabitliyin qurulması bir-biri ilə sıx bağlıdır. Şimali Qafqazda yaranan istənilən şərait Cənubi Qafqaza da təsir edirdi.

Bir dövlətin digərinin ərazisini işğal etməsi, qaçqınlar və məcburi köçkünlər məsələsi Qafqazda şəraiti mürəkkəbləşdirən amillərdən biri idi. Ərazi işğallarına qarşı qətiyyətlə çıxan Heydər Əliyev münaqişələrin və müharibələrin insanların həyatına mənfi təsir etdiyini bildirərək deyirdi ki, həm gürcü-abxaz, həm də Ermənistan ilə Azərbaycan arasındakı münaqişə, hərbi təcavüz nəticəsində ərazilərin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması, daimi yaşayış yerlərindən didərgin düşmüş qaçqın və məcburi köçkünlərin olması ümumən Qafqazda vəziyyəti mürəkkəbləşdirirdi. Müvafiq beynəlxalq hüquq normalarına tam şəkildə riayət edilməsini vacib sayan Heydər Əliyev bildirirdi ki, Azərbaycanın qonşulara heç bir iddiası yoxdur, sərhədlərin dəyişdirilməsinin əleyhinədir və belə bir vəziyyəti də heç bir zaman qəbul etməyəcəkdir. Elə ona görə də Azərbaycan dövləti ərazi bütövlüyünün tapdalanmasına heç vaxt yol verə bilməzdi, çünki baş verənlərin hamısı beynəlxalq hüquq normalarına zidd idi.

Regionda sülh yaratmaq niyyətlərini ifadə edərək Tbilisidə bəyannaməni imzalamaqla Heydər Əliyev və Eduard Şevardnadze öz xalqlarının gələcəyi, Qafqazdakı vəziyyət barədə narahat olduqlarını, bütün Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsinin nə qədər zəruri olduğunu dünyaya bildirmişdilər. Böyük əks-səda doğurmuş, rəğbətlə qarşılanmış həmin bəyannamənin davamı olaraq Kislovodskda dörd dövlətin - Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın başçıları Qafqazda sülhün, əmin-amanlığın təmin edilməsinə dair sənəd imzalamışdılar. Vacib bir prosesin bünövrəsini qoyan bu sənəd Qafqazda sülhə, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünə, bütün münaqişələrin dinc vasitələrlə aradan qaldırılmasına və fəal iqtisadi əməkdaşlığa gətirməli idi. Heydər Əliyevin fikrincə, Qafqazda sülhə nail olmaqdan ötrü qarşıdurmalardan, münaqişələrdən, separatçılıqdan, terrorçuluqdan əl çəkmək, dinc münasibətlərin inkişafı yoluna qədəm qoymaq lazım idi. Yalnız bu halda bütün Qafqaz xalqları və ölkələrinin milli mənafelərini həyata keçirmələri, iqtisadi və sosial sahələrin inkişafında yüksək nailiyyətlər qazanmaları üçün daha əlverişli imkanlar açılardı.

Münaqişələrin davam etməsinə baxmayaraq, bəzi ölkələr Qafqaz dövlətlərinin ümumi parlamentinin və sülhməramlı qüvvələrinin yaradılmasına dair ideyalar irəli sürürdülər. Regionda normal dövlətlərarası münasibətlərin formalaşmasının yolunun ilk növbədə münaqişələrin həllindən keçdiyini görən Heydər Əliyev belə hesab edirdi ki, bunsuz Qafqazda süni şəkildə siyasi inteqrasiya mümkün deyildir. Münaqişələri tənzimləmədən, işğala son qoymadan və sülh müqaviləsi imzalamadan Ermənistanla əməkdaşlıq ziyanlı olardı.

Heydər Əliyevin qənaətinə görə, Rusiyanın Qafqazda mövqelərini möhkəmləndirməyə çalışması təbii hal idi, çünki Cənubi Qafqaz regionu uzun illər boyu çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində olmuşdu. Mövqe qazanmaq üçün digər dövlətlər də müxtəlif vasitələrlə çalışdıqlarından Heydər Əliyev belə hesab edirdi ki, Türkiyə də Qafqazda mövqe tutmaq üçün çalışmalı idi. Çünki region əhalisinin böyük əksəriyyəti olan türk, müsəlman və başqa xalqlar Qafqazda Türkiyənin nüfuzunun artırılmasını arzulayırdılar.

Qafqazda əməkdaşlığa mane olan ən böyük amillərdən biri regionun silah anbarına çevrilməsi idi. İşğalçı Ermənistanın silahlandırılmasını regionda sülh üçün təhdid hesab edən Heydər Əliyev Rusiyanın bəzi dairələri tərəfindən bu ölkəyə gizli olaraq 1 milyard dollar dəyərində silahlar verilməsinin Azərbaycan və bütün Qafqaz ölkələri, eyni zamanda Türkiyə üçün çox böyük təhlükə doğurduğu qənaətində idi. Belə siyasət təcavüzkarı şirnikləşdirir, Qafqazda sülh yaratmağa və əməkdaşlığa mane olurdu. Bu isə bütövlükdə Cənubi Qafqaz dövlətlərinin müstəqilliyini təhdid edir, normal inkişafına, dünya ölkələri ilə əməkdaşlığına əngəllər törədirdi.

Yaranmış vəziyyətdən çıxış yolunu Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktının qurulmasında görən Heydər Əliyev ona görə də qeyd edildiyi kimi, ATƏT-in İstanbul sammitində belə bir təklifi irəli sürmüşdü. Gürcüstan bu təklifi bəyənmiş, Türkiyə də ona tərəfdar çıxmışdı. Heydər Əliyevin fikrincə, belə bir paktın baş tutması dünyanın ən mürəkkəb regionlarından biri olan Qafqazda və xüsusən Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın yaradılması üçün yaxşı əsas ola bilərdi. Amma buna nail olmaqdan ötrü regiondakı bütün münaqişələrə, o cümlədən Abxaziya münaqişəsinə son qoyulmalı, Gürcüstanın ərazi bütövlüyü təmin olunmalı və ata-baba yurdlarından didərgin düşmüş insanlar özlərinin daimi yaşayış yerlərinə qayıtmalı idilər. Əgər belə olardısa, bütün münaqişələr aradan götürülərdisə, sülh əldə edilərdisə, Cənubi Qafqazın çox böyük gələcəyi və yaxşı inkişaf imkanları olardı.

Cənubi Qafqazın üç ölkəsi arasında sülhün əldə olunmasını əməkdaşlıq üçün zəruri hesab edən Heydər Əliyevin baxışına görə, bu, qısa bir zamanda sosial-iqtisadi inkişafı təmin edər və xalqların rifah halı daha da yüksələrdi. Belə bir təcrübəni Gürcüstan və Azərbaycan arasında bütün sahələrdə həyata keçirilən əməkdaşlıq göstərmiş və qonşu ölkəyə faydalar gətirmişdi.

Münaqişələri regional təhlükəsizlik, sabitlik, xalqların əmin-amanlığı və ölkələrin normal inkişafı üçün ciddi əngəl hesab edən Heydər Əliyev dinc Qafqazın yaradılması mövqeyində qətiyyətlə dayanırdı. Belə hesab edirdi ki, region öz tarixinin mürəkkəb dövrünü yaşayır. Münaqişələr əməkdaşlığa mane olduğundan, ölkələrin uğurlu inkişafını çətinləşdirdiyindən və gələcək üçün böyük təhlükə törətdiyindən Heydər Əliyev belə bir mövqe tuturdu ki, bütün münaqişələrin aradan qaldırılması, sülh, mehriban qonşuluq, dostluq münasibətləri yaradılması üçün maksimum tədbirlər görmək lazımdır. Onun fikrincə, münaqişələrin aradan qaldırılması Gürcüstanın, Azərbaycanın və Ermənistanın da iqtisadiyyatının inkişafına böyük təkan verərdi.

1990-cı illərin ortalarından etibarən bəzi Qərb dövlətləri və dairələri Azərbaycanın regionda çoxtərəfli əməkdaşlıq formatında reallaşdırdığı iqtisadi layihələrə Ermənistanı da qoşmağa çalışırdılar. Belə mövqe bir sıra amillərlə əlaqədar idi. Onlar hesab edirdilər ki, Azərbaycanın əsas ixrac neft boru kəməri Ermənistan ərazisindən keçərdisə və rəsmi İrəvan digər layihələrdə iştirak edərdisə, guya Azərbaycan-Ermənistan münasibətlərində yumşalma baş verə bilərdi. Lakin bu düşüncələr və yanaşmalar yanlış idi. Ona görə ki, belə hal təcavüzkarı daha da şirnikləşdirər, gücləndirər və işğal davam edərdi. İşğalın davam etməsinə baxmayaraq, Ermənistanla əməkdaşlığı təklif edən dövlətlər və dairələr ya erməni ünsürünün psixologiyasını bilmir, ya da bilərəkdən özlərinin və bu qurama dövlətin maraqlarını üstün tuturdular.

Təklifi irəli sürərkən onlar Ermənistanı ağır vəziyyətdən çıxarmağa, özlərinə daha çox bağlamağa, üzərində Rusiyanın təsirini azaltmağa çalışırdılar. Həmin dövlətlər və dairələr eyni zamanda Ermənistandan gələcəkdə Azərbaycana və Türkiyəyə qarşı bir alət kimi istifadə etməyi də düşündürdülər. Əsas ixrac neft boru kəmərinin Ermənistan ərazisindən keçərək Türkiyəyə getməsi işğalçı ölkəni təkcə şirnikləşdirməz, eyni zamanda həm Azərbaycana, həm də Türkiyəyə qarşı təzyiq vasitəsinə çevrilərdi. Hətta imkan yarandıqca Ermənistan siyasi məqsədlərinə çatmaq və ya onları dünyaya bəyan etmək üçün boru kəmərində terror aktları da törədə bilərdi.

ABŞ, Fransa və digər ölkələrdəki erməni icması və təşkilatları belə layihələrdə Ermənistanın iştirakının təmin olunmasından ötrü bütün mümkün yollardan istifadə edirdilər. Ona görə də əsas ixrac neft boru kəmərinin Gürcüstan ərazisindən keçirilməsi məsələsi gündəliyə gələndə onun əleyhdarları olan erməni və digər dairələr ətraf mühit mühafizəçiləri adı altında ekologiyaya guya ziyan vurduğunu bəhanə edərək çirkin təbliğata başlasalar da uğursuz oldular.

Qafqaz ölkələri və xalqları arasında əməkdaşlığın əleyhinə olmayan Heydər Əliyev bildirirdi ki, bunun üçün bəlli şərtlər yerinə yetirilməlidir. O, ikitərəfli və çoxtərəfli formatda keçirilən görüşlərində və nitqlərində Qafqaz dövlətləri arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasından ötrü ilk növbədə əsassız ərazi iddialarından imtina edilməsinin, separatçılığa və düşmənçiliyə son qoyulmasının vacibliyini söyləyirdi.

Qafqazda düşmənçiliyə, işğallara son qoyulduqdan sonra dövlətlər arasında əməkdaşlığın və inteqrasiyanın vacibliyini Heydər Əliyev müxtəlif toplantılarda birmənalı olaraq ifadə edirdi. Qafqazı təkcə sülh və əməkdaşlıq regionu deyil, həm də Avropa ilə Asiya arasında əlverişli nəqliyyat dəhlizi kimi görən Heydər Əliyevin fikrincə, əməkdaşlıq tarixi Böyük İpək yolunun bərpasına və ümumi inkişafa gətirib çıxarardı. Məlum olduğu kimi, 1993-cü ildə Brüsseldə keçirilmiş Avropa İttifaqının konfransında TRASEKA yaradılmış və ilkin olaraq ona 8 dövlət qoşulmuşdu. Tarixi İpək yolunun bərpasının sonrakı mərhələsində, 1996-cı ilin may ayında Türkmənistanın Sərəxs şəhərində tranzit yüklərin sərbəst, itkisiz və güzəştli tariflərlə daşınmasına dair Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan dövlət başçıları tərəfindən tranzit daşımaların tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında saziş və dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsinə dair müqavilə imzalanmışdı. 1996-1998-ci illərdə həmin proqrama Ukrayna və Moldova, 2000-ci ildə isə Bolqarıstan, Rumıniya və Türkiyə qoşuldular.

Sərəxs sazişi imzalandıqdan sonra Avropadan Asiyaya daşınan yüklərin həcmi xeyli artmışdı. Məsələn, əgər 1995-ci ildə daşınan yüklərin ümumi həcmi 352 min ton idisə, 1997-ci ilin sonlarında 1 milyon 340 min tona çatmışdı.

Azərbaycanın Qərbə açılan qapısı olan Gürcüstanın ağır vəziyyətinin mənfi təsirlərinin olduğunu dərindən bilən Heydər Əliyev çıxış yolunu əməkdaşlıqda və bu ölkənin tranzit imkanlarında görürdü. Belə hesab edirdi ki, ixrac neft boru kəmərinin və nəqliyyat-kommunikasiya xətlərinin Gürcüstandan keçməsi bu ölkəni ağır vəziyyətdən çıxara və Azərbaycanla Gürcüstanı bir-birinə daha çox bağlaya bilər. İlkin neftin Gürcüstan ərazisi vasitəsilə Qara dəniz sahilinə nəqli barədə imzalanmış sənədlərin Azərbaycanın və Gürcüstanın iqtisadiyyatı üçün əhəmiyyətinin böyük olduğunu deyən Heydər Əliyev bu boru kəmərləri və kommunikasiya xətlərini dostluq, əməkdaşlıq xətti hesab edirdi. Onun baxışına görə, Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Qara dəniz sahilinə neft boru kəmərinin çəkilməsi iqtisadi, sosial xarakterli bir çox maraqları özündə birləşdirirdi.

Heydər Əliyevin fikrincə, əsas ixrac neft boru kəmərinin Gürcüstan ərazisindən keçirilməsi təkcə iqtisadi deyil, eyni zamanda siyasi, geosiyasi baxımdan əhəmiyyətli olub, bu ölkənin dövlət müstəqilliyinin möhkəmləndirilməsindən ötrü beynəlxalq təminatın gücləndirilməsi demək idi.

Boru kəmərlərinin və kommunikasiya xətlərinin fasiləsiz fəaliyyətini təhlükəsizliyin etibarlı təmin edilməsi ilə birbaşa əlaqələndirən Heydər Əliyev 2001-ci il 29 sentyabr tarixli çıxışında deyirdi ki, Cənubi Qafqazda hərbi münaqişələr olduğu və həmin hərbi münaqişələrdən həm Gürcüstanın, həm də Azərbaycanın əziyyət çəkdiyi nəzərə alınaraq, bu kəmərlərin təhlükəsizliyinin təmin edilməsi maksimum tədbirlər görülməsini tələb edir, çünki onlar artıq ayrı-ayrı ölkələrin deyil, bütün dünya birliyinin sərvətinə çevrilmişdir. Təhlükəsizliyin təmin edilməsini böyük və çətin iş hesab edən Heydər Əliyev bildirirdi ki, əgər indiyədək qarşıda dayanan vəzifələrin öhdəsindən gəlinmişdirsə, deməli, bu vəzifələrin də öhdəsindən gəlmək mümkündür.

*(Ardı var)*

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü, professor***



# Zərifə Əliyeva - 100











**Dünyada ən qiymətli nemət sağlamlıqdır deyirlər!**

**Və bəzən biz bunu sağlamlığımızı itirdikdən sonra dərindən dərk edirik.**

**El-oba, xalq üçün gərəkli insanlar da belədir!**

**Onları itirdikdən sonra yerləri boş qalır, gözlərimiz daim axtarır-arayır...**

**Akademik Zərifə xanım Əliyeva xalqımızın qəlbində özünə yurd salmış gərəkli, fədakar, həm də təvazökar insanlardandır.**

**Ömrünü-gününü təkcə ailəsinə, övladlarına deyil, həm də insanların sağlamlığına həsr etmişdir.**

**İnsanların gözünə nur, ürəklərə işıq bəxş edərdi...**

**Bir alim kimi daim arayıb-axtarmış, Azərbaycan üçün xarakterik sayılan göz xəstəliklərinin müalicəsi üçün uzun illər tədqiqatlar aparmış, üsul və vasitələr tapmışdır.**

**Zərifə xanım Əliyevanın həm də özünəməxsus həkim fəlsəfəsi, xəstələrə yanaşma metodu, prinsipləri olmuşdur.**

**Bütün bunları o, qələmə aldığı "Yüksək əqidə" kitabında həssaslıqla əks etdirmişdir.**

**Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə bu il həm də akademik Zərifə xanım Əliyevanın yüz illik yubileyi qeyd olunacaqdır.**

**Şanlı yubiley ərəfəsində akademik Zərifə xanım Əliyevanın "Yüksək əqidə" (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı) kitabından parçaları dərc edir, onun əziz və unudulmaz xatirəsini ehtiramla anırıq.**






*Akademik Zərifə xanım Əliyeva*

# Yüksək əqidə

*(Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)*

İxtisasca həkim olan Nəriman Nərimanov Azərbaycandakı vəziyyət barədə mərkəzə məruzə edərkən qeyd edirdi ki, taun ilə mübarizədə onlarla tibb işçisi qəhrəmanlıqla həlak olmuşdur.

Ancaq doktor Nəriman (fəhlələr onu belə çağırırdılar) V.İ.Leninə özünün soyuq boranlarda xəstələnmiş və ölmüş həkim və sanitarları əvəz etməsindən, sutka ərzində 1-2 saat az yatmasından bircə kəlmə belə söz açmırdı. Çünki epidemiya ocaqlarında o doktor Nəriman olurdu. Buradan kənarda isə taunlu xəstələrin yerləşdirilməsi, onlara su gətirilməsi və başqa sanitar-gigiyenik problemlərin həll edilməsini təşkil etməyi öz vəzifəsi bilirdi.

N.Nərimanov tibbi biliklərin yayılmasına, vacib tibbi problemlərin həll edilməsinə xüsusi diqqət yetirirdi. O, "Traxoma haqqında", "Vərəm haqqında", "Taun haqqında", "Qadın aləmi" və s. elmi-kütləvi əsərlər yazmışdır.

Hər gün, hətta bazar günlərində belə haqqı ödənilməyən xəstəxanada işləyən N.Nərimanov gecə və gündüz çağırışlara gedir, ictimai yerlərdə və fəhlə klublarında məruzə və mühazirələr oxuyur, sanitar-maarif işi haqqında qəzetlərdə məqalələr yazırdı. "Neft sənayesi işçilərinə həkim yardımının təşkili və qaydaları məsələlərinə dair" məqaləni buna misal göstərmək olar. N.Nərimanov bu məqalədə çox vacib olan sosial məsələlərə toxunaraq cəmiyyətdə həkimin yeri və vəzifələrini bir-biri ilə uzlaşdırmışdır. Demək olar ki, yeni formasiyada həkimin mənəvi inkişafının yollarını göstərir və yazırdı:

"Zəhmətkeşlərin səhhətinin qorunmasının yaxşılaşdırılması məsələlərini həll edərkən tibb elminin inkişafına Lenin çox fikir verirdi. Elm adamlarına, onların iş və məişət şəraitinə xüsusi qayğı göstərirdi".

Azərbaycanın döyüş səhnəsində epidemiya əleyhinə mübarizə əsas yeri tuturdu. Tibb işçilərinin özlərinin müxtəlif və qeyri-stabil siyasi baxışlarına baxmayaraq, Bakı şəhəri partiya təşkilatının apardığı partiyasiyasi işin nəticəsində özlərinin həkim və inqilabi borclarını başa düşərək epidemiya əleyhinə tədbirlərdə fəal iştirak edirdilər.

Qafqaz ordusunun baş cərrahı professor V.İ.Razumovskinin rəhbərliyi ilə Zaqafqaziya universitetinin (Tiflis ş.) Tibb fakültəsinin bir qrup əməkdaşları Bakıda universitet açılması qərarına gələrək tezliklə bu işi həyata keçirməyə başladılar. Azərbaycanın qabaqcıl ziyalıları S.Ağamalıoğlu, Q.X.Şahtaxtinski, A.D.Orucəliyev, K.A.Camalbəyov və başqaları universitetin açılması üçün heç nəyə baxmadan mübarizəyə qalxdılar, universitetin açılmasında yardımçı oldular.

Beləliklə, mədəniyyət və elm ocağının yaradılması əleyhinə olunan cəhdlər iflasa uğradı. Azərbaycanda tibb, tarix və fəlsəfə fakültəsi olan ilk ali təhsil ocağı - Bakı Universiteti açıldı. Onun rektoru V.İ.Razumovski oldu. Tezliklə professor V.İ.Razumovski Bakıdan köçdü. Lakin o, respublika ilə əlaqəni kəsmədi. Öz məktublarının birində yazırdı:

"Şərq və Qərbin sərhədində yerləşən Bakı Universiteti Şərqi və Qərbi Avropanın ənənələri və məsləhətlərini elmi əsaslarla uzlaşdıraraq (insanlığın) bəşəriyyətin elmi dairəsini genişləndirərək, bizi sosial məsələlərin də həllinə yaxınlaşdırır. Mən Bakı Universitetinin böyük gələcəyinə inanıram. Mən onun gənc, cəsarətli ilk yaradıcılarının səyləri nəticəsində gələcəkdə inkişaf edən yeni nəslin tələblərinin möhkəm təməlini görürəm". Belə gənc, cəsarətli səylərə malik, Tibb fakültəsinin ilk xadimlərindən olan və Peterburqdan Azərbaycana gələn professor A.M.Levin, Cərrahiyyə fakültəsinin professoru - A.A.Oşman və bakılılar - hospital cərrahiyyəsi kafedrasının professoru - B.K.Finkelşteyn, histologiya və embriologiya kafedrasının professoru M.S.Milman, farmasiya magistri M.K.Qolberq, kimyaçı L.Q.Qureviç, zooloq A.N.Derjavin və başqaları daxil idi. Onların arasında milli təbabəti inkişaf etdirən azərbaycanlı həkimləri də qeyd etmək lazımdır. Bunlar - Azərbaycan Epidemiya əleyhinə tədbirlərin təşkili və aparılması üçün lazımi həkim briqadaları formalaşırdı. 1943-cü ildə təkcə rayonlarda malyariya ilə mübarizə üçün 17 həkim briqadası ezam edildi. Həkim briqadaları Azərbaycanın 40 rayonunda fəaliyyət göstərirdi. Bu dövrün ağır problemlərinin olduqca çox olmasına baxmayaraq, respublikamız və gələcəyimiz olan uşaqlar diqqətdən kənarda qalmırdılar, onlar həmişə qayğı mərkəzində idilər. Komandir və döyüşçülərin uşaqları üçün Hacıkənddə, Şuşada, Bilgəh və Mərdəkanda sanatoriyalar yaradıldı. Gəncə şəhərində 50 yerlik südəmər uşaq evi və 100 yerlik körpələr evi açıldı. Körpələr evlərinin əksəriyyətində sanitar qrupları təşkil edildi, bir çoxu isə sutkalıq işə keçirildi.

1941-ci ildə Azərbaycanın dövlət büdcəsində uşaq evləri, bağçaları və internatları saxlamaq üçün ümumi xərcləri 52,3 mln. rubldan 74,8 mln. rubla qədər artdı. Təxirəsalınmaz mühüm məsələ uşaq qidalanmasının təşkili idi. Partiya və hökumət təşkilatlarında bu məsələ dəfələrlə müzakirə olundu.

Hökumətin qərarı ilə ticarət təşkilatlarına həvalə edildi ki, uşaq müalicə müəssisələrini fasiləsiz olaraq qida məhsulları, əsasən, 2 ton süd məhsulları, 5 ton kisel, bir milyon insan dozasından az olmamaq şərti ilə dozasız "S" vitamini ilə təmin etsin.

Bu və digər çoxsaylı dəlillər bəşəriyyəti tibbi əxlaqi keyfiyyətlərin aliliyinə cəlb etməlidir. Lakin bu mənəvi keyfiyyətlər faşist-həkimlər tərəfindən pozularaq, zəbt olunmuş ərazidə və konslagerlərdə insanlar üzərində müxtəlif eksperimentlər və vəhşiliklər aparılırdı.

Sonralar məlum oldu ki, faşistlər sovet ordusunda olan 73% yaralıların döyüş meydanına qayıtmasını təmin edən tibbi xidmət maşınını yarada bilməmişdilər. Yaralı hitlerçilərin yalnız 40 %-dən azı döyüş meydanına qayıda bilirdi. Bu isə bizim həkimlərin gərgin əməyini, yüksək-mənəvi siyasi, qəhrəmanlıq keyfiyyətlərini əks etdirirdi.

Tibb işçiləri 10 mindən artıq yaralının qorunması, toxumalarının, müxtəlif zədələnmələrinin müalicəsi üçün çoxsaylı yeni metodlar işləyib hazırlayırdılar. Belə tədqiqatlar F.Əfəndiyevin "Döş qəfəsinin zədələnmələri zamanı plevral boşluğa qansızmalar" mövzusunda doktorluq dissertasiyası, M.A.Mir-Qasımovun "Kəllə sümüklərinin travmatik osteomieliti və onun müalicəsi", professor Trubinin "Gözün odlu silahla yaralarının müalicəsi", prof. Z.Məmmədovun "Yumşaq toxumanın zədələnməsində naftalan müalicəsi" mövzusunda doktorluq dissertasiyaları aiddir.

Həqiqətən belə elmi işlər, yeni müalicə metodlarının işlənib hazırlanması, yaralıların sağlamlıqlarının bərpasına kömək etdi. SSRİ Tibb Elmləri Akademiyasının prezidenti N.Burdenko sovet tibb işçilərinin bu əməyini yüksək qiymətləndirərək, vüqarla yazırdı: "Bizim vətənimizin ağır sınaq dövründə, hitlerçilərin bəşəri mədəniyyət nümunələrinin məhv etdikləri bir vaxtda, bizim elmimiz müdrik xalqımızla birlikdə mübarizə aparmış, məhz elmimiz sırf xalq elmidir.

İkinci Dünya müharibəsi illərində 115 mindən artıq tibb işçisi, o cümlədən də Azərbaycandan da olan çoxlu sayda həkimlər də orden və medallar ilə təltif olunmuşlar. Sovet İttifaqı Qəhrəmanı adına 13 həkim layiq görüldü.

Onların arasında həkim-təyyarəçi kosmonavt B.B.Yeqorov və Saratov Tibb İnstitutunun məzunu V.Q.Lazarev də var idi.

Bunlar nəinki tibb elminin, eləcə də bütün sovet xalqının şöhrəti olmaqla, Vətən qarşısında vətəndaşlıq borcunu yüksək əxlaqi-mənəvi keyfiyyətlərlə yerinə yetirməklə hamıya nümunədirlər.

Müharibədən sonrakı illərdə respublikanın minlərlə sıravi həkimləri öz əməyi ilə zəhmətkeşlərin sağlamlığının keşiyində dayanırdı. Onlardan bəziləri tibb elminin inkişafında sərf etdikləri yüksək əməyə, insanların müalicəsində göstərdikləri yüksəkkeyfiyyətli müalicəyə və ictimai işlərdə fəal iştirakına görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdülər. Onlar arasında Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, görkəmli həkim və alim M. A. Topçubaşov, Azərbaycan Tibb İnstitutunu bitirmiş, Astara kənd xəstəxanasında uzun müddət işləyən həkim B. Əliyeva da var idi. Bütün bu həkimlərin hər biri haqqında ətraflı və çox yazmaq olar. Güman edirik ki, onlar haqqında ayrıca kitab nəşr olunacaq. Onlar ümumxalq məhəbbəti qazanmışlar və buna layiqdirlər.

Elmlər Akademiyasının gələcək birinci prezidenti, xalqın böyük hörmətini qazanmış M.A.Mir-Qasımov, məşhur cərrah, vitse-prezident M.A.Topçubaşov, prof. M.B.Sultanov, A.K.Əlibəyov və B.B.Qayıbov idi.

Tibb fakültəsinin dekanı İ.İ.Şirokoqorov belə yazırdı: "Tibb fakültəsi öz görkəmli professor heyətinin tərkibinə görə öz vaxtının ən yaxşı fakültələri sırasında dayanırdı".

1922-ci ilin yayında həkimlərin ilk buraxılışı oldu. 30 nəfər həkim adına layiq görüldü. Belə qiymətli diplomun sahibləri içərisində ilk qadınlar A.İ.Şaxtaxtinskaya və D.P.Sultanova da var idi. Onlar milli səhiyyənin çox görkəmli mütəxəssisləri oldular.

Sonralar respublika zəhmətkeşlərinin sağlamlığının keşiyində 10 minlərlə qadın-həkim ordusu dayandı. Onlar bütün Azərbaycan tibb işçilərinin 70 faizini təşkil edirdi.

1922-ci ildə Tibb fakültəsində ilk doktorluq dissertasiyası müdafiə olundu. Bir neçə ildən sonra isə bir neçə nəfər azərbaycanlı həkimlər tibb elmləri doktoru elmi dərəcəsini alaraq, nəticədə professor, kafedra müdiri, elmi məktəblərin əsasını təşkil etdilər. Onlar öz yetirmələrinə ixtisas bilikləri öyrətməklə yanaşı, yüksək mənəvi-əxlaqi keyfiyyətləri inkişaf etdirirdilər. Bunlar - M.A.Mir-Qasımov, M.B.Sultanov, S.İ.Vəlixan, A.X.Cəfərov, İ.M.İsmayılzadə, A.Əlibəyov, M.A.Topçubaşov, M.Ə.Əfəndiyev və başqaları idi.

Azərbaycanın gənc həkim-mütəxəssisləri Şərq və Qərbin yüzilliklərlə formalaşmış ən yaxşı ənənələri əsasında tərbiyə edilib böyüyürdülər. Onlar öz müəllimlərinə ehtiram, yüksək etik münasibət, yüksək insanpərvərlik və öz ölkəsinə, torpağına son dərəcə sadiqliklə inkişaf edirdilər. Bu planda məşhur N.Nərimanovun öz oğluna yazdığı məktub-vəsiyyətnaməsi təqdirəlayiqdir:

"Əziz oğlum, Nəcəf! Əgər mənə yaşamaq qismət olsa, mən səni elə tərbiyə eləməyə çalışacağam ki, sən bəşəriyyətə xeyir gətirə biləsən. Əgər mənim nəsibim ölmək olsa, onda mən səndən xahiş edəcəyəm ki, sən insanlara heç olmasa atanın azca da olsa edə bilmədiyi qədər yaxşılıq et. İnanıram ki, mənim başladığım işləri sən davam etdirəcəksən".

Sonralar zabit Nəcəf Nərimanov İkinci Dünya müharibəsi illərində döyüş meydanında cəsarətli, fədakar döyüşçü kimi həlak olmuşdur. O, komandiri olduğu hissəni düşmən üzərinə hücuma apararkən həlak olmuşdur. İnanırıq ki, o, düşmən üzərinə hücuma keçəndən axır anlanna qədər qələbəyə inanmışdır. Atasının keçirdiyi qələbə sevinci, ona vəsiyyət olunmuş "sənin atanın bacardığı qədər etdiyi azacıq yaxşılıq qədər də sən et" idi.

İkinci Dünya müharibəsinin odlu illərində azərbaycanlıların yüksək mənəvi-əxlaqi keyfiyyətləri aydın şəkildə özünü göstərdi. Belə bir sərt imtahanda, yoxlamada bizim həkimlər davamlılıq, öz yüksək məğrurluğunu göstərməyib, harada göstərəcəkdilər? Bu imtahandan onlar namusla, polad kimi möhkəmliklə çıxdılar. Qeyri-insani gərginlik şəraitində yuxusuz gecələrdə, aclıqda respublika həkimləri qısa müddətdə hospitallar yaratdılar və onları yeni tibbi ləvazimatlarla, yüksəkixtisaslı mütəxəssislər və tibb işçiləri ilə təmin etməyə nail oldular. Hərbi travmaların, sağalmayan yaraların, yanıqların, donmaların müalicəsində Azərbaycanın möcüzəli təsirə malik kurort mənbələrindən (palçıq, naftalan, mineral odlar və s.) geniş istifadə olunurdu.

*(Ardı var)*

*Əvvəli qəzetin 29 mart və 4, 6, 14 aprel saylarında*



# Zərifə Əliyeva - 100






# Görkəmli alim, təkrarsız insan ömrünün işıqlı xatirələri

Elə insanlar var ki, olduqları hər yerə sanki nur bəxş edir. Hər zaman seçilir, sevilirlər. Onları fərqləndirən yaxşı cəhətləri saymaqla bitməz.

Böyük zəkaları, bacarıqları, zəhmətsevərlikləri, sadəlikləri, səmimiyyətləri, mehribanlıqları və qayğıkeşlikləri ilə hər kəsə nümunə olurlar. Fitri istedadlarının dəyərini yaxşı bilir, onu hədər etmirlər. Yorulmadan çalışır, səy göstərirlər. Yalnız özlərinin deyil, bütövlükdə mənsub olduqları xalqın adını ucaldan, bütün dünyada tanıdan işlər görür, əsərlər yaradırlar. Eyni zamanda istedadlılara qayğı ilə yanaşır, yol göstərirlər. Taleyin hökmü ilə bu dünyadan köçüb gedəndə onlardan işıqlı xatirələr qalır. Bu il 100 illik yubileyi qeyd edilən görkəmli alim, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi Zərifə Əziz qızı Əliyeva belə işıqlı insanlardan, böyük şəxsiyyətlərdən biridir.

Onun uzun illər çalışdığı, inkişafında böyük xidmətlər göstərdiyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov deyir ki, Zərifə xanım Əliyevanın nurlu xatirəsi bu institutda daim yaşayır. Yüksək insani keyfiyyətləri ilə mənəvi ucalığın zirvəsinə çataraq əbədiyyətə qovuşmuş 100 illik yubileyini qeyd etdiyimiz unudulmaz Zərifə xanım Əliyeva təkrarsız bir insan idi: "Elə buna görə də təsadüfi deyil ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Onun təbib əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir".

Müsahibimiz diqqətə çatdırır ki, tarix bizə bir şəxsin simasında rəhbərlik və elmi tədqiqatçılıq istedadının, tükənməz əməksevərlik və ramedici nəzakətliliyin xoşbəxt vəhdətini birləşdirən çox az nümunələr vermişdir: "Akademik Zərifə xanım Əliyeva məhz bütün bu keyfiyyətlərə malik olmuşdur. Akademik Zərifə Əziz qızı müasir Azərbaycan oftalmologiya elminin zirvələrindəndir".

Nazim Qasımov bu həqiqətə də diqqəti çəkir ki, bütün potensial imkanlarını realizə və inkişaf etdirmək onu formalaşdıran mühitdə mümkün olub: "Axı Zərifə xanım istedadlı və gözəl bir ailədə - görkəmli dövlət xadimi, Azərbaycanın böyük səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya gəlib. Belə ki, bu böyük insanın əksər xüsusiyyətləri qızı Zərifə xanıma da xas olub". Müsahibimiz vurğulayır ki, ən yüksək keyfiyyətlər - səmimilik, alicənablıq, qayğıkeşlik, birinci növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına sönməz məhəbbət Zərifə xanım Əliyevaya xas cəhətlər idi.

Zərifə xanım Əliyeva mənalı, zəngin ömür yaşayıb. Bu ömür 1923-cü ilin 28 aprelindən 1985-ci ilin 15 aprelinədək davam edib. Ancaq onun bu dünyadan köçməsi ilə bitməyib. Böyüklüyü qədər sadə olmağı bacaran, qayğıkeşliyi, səmimiyyəti ilə tanıyanları heyran edən Zərifə xanım Əliyeva işığa bürünmüş xatirələrdə yaşayır. Zərifə xanım Əliyevanın alim ömrü isə qoyub getdiyi dəyərli elmi əsərlərində, yetirmələrinin, eləcə də ona istinad edən hər bir alimin tədqiqatlarında davam edir.

O, xəstələrə şəfa vermək, ümid olmaq üçün müqəddəs həkimlik peşəsini seçib. 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. 1948-ci ildə Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçib. 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi fəaliyyətə başlayıb, ordinatorluqdan baş elmi işçiyədək uğurlu yol keçərək böyük mütəxəssis kimi formalaşıb.





Zərifə Əliyevanın elmi fəaliyyətinin ilk dövründən söz açan Nazim Qasımov həmin vaxtlar alimin traxomanın erkən diaqnostikası, müalicəsi və profilaktikasına dair aktual elmi araşdırmalar apardığını qeyd edir: "Namizədlik dissertasiyasında əksini tapmış bu elmi axtarışların nəinki elmi, həmçinin böyük praktik əhəmiyyəti vardır. Minlərlə insanın korluqdan xilas olaraq ictimai faydalı əməyə qayıtmasını mümkün etməsi bu elmi tədqiqatların mühümlüyünə dəlalət edir. Beləliklə, Azərbaycanda traxoma xəstəliyinin ləğvinə yönəldilmiş kompleks tibbi tədbirlər məhz Zərifə xanım Əliyevaya məxsusdur. Malyariya və traxomaya qarşı fədakar mübarizə aparan Əziz Əliyev estafeti qızına vermiş oldu. Fundamental elmi axtarışlardan maksimum praktik nəticə əldə etmək xüsusiyyəti Zərifə xanım Əliyevanın həm bu, həm də sonrakı işləri üçün xarakterikdir".

Yorulmadan oxuyub öyrənən, araşdırmalar aparan alim 1960-cı illərdə dünya təcrübəsində birincilər sırasında görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlayıb. Müsahibimiz Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətlərindən birinin də məhz yod və şin sənayesinin zərərli təsirlərindən gözün zədələnməsinin öyrənilməsi olduğunu vurğulayır: "Dünya ədəbiyyatında bu fundamental tədqiqatın analoqu yoxdur. Bu problem üzrə Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının nəticələri haqqında dərc olunmuş 30-dan çox elmi işdə tetraxloretilen, pestisid, stirol buxarlarının orqanizmə xroniki təsiri zamanı görmə üzvünün və onun funksiyalarının vəziyyəti əks etdirilir".

Aparılmış fundamental elmi işlərin nəticələri Zərifə xanımın 1976-cı ildə Helmhols adına Elmi-tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil edirdi. Bu məşhur institutun dahi alimləri və ixtisaslaşmış şuranın üzvləri işə yüksək qiymət verməklə çoxillik tədqiqatların nəticələrini monoqrafiya, dərs vəsaiti və metodik tövsiyə şəklində çap etdirməyi məsləhət görürlər: "Zərifə Əliyevanın doktorluq dissertasiyasının müdafiəsi zamanı elmi şuranın sədri tərəfindən deyilən ifadə yadda qalır: Əməkdar elmlər doktorunu parlaq müdafiə ilə təbrik edirəm. Bu böyük xoşbəxtlik idi!"

Tibb elminin inkişafında böyük işlər həyata keçirən alimin səmərəli fəaliyyətindən danışan müsahibimiz deyir ki, yaradıcılıq uzaqgörənliyi və həyatın nəbzini düzgün təyin etmək bacarığı Zərifə xanım Əliyevaya dünya praktikasında ilk dəfə olaraq istehsalat şəraitində - Bakı Məişət Kondisionerləri Zavodunun sexlərində elmi-tədqiqat laboratoriyasını yaratmağa imkan verdi. Bu laboratoriya elmi axtarışlar aparmaqla yanaşı, görmə orqanının xəstəliklərinin erkən aşkar olunması və müalicəsində böyük rol oynayırdı. Zərifə xanım elmi axtarışlarda müəyyən qanunauyğunluğa riayət edirdi. O deyərdi: "Tədqiqatları təkmilləşdirməklə biz daha bir pillə yüksəlir və qarşımızda yeni geniş üfüqlər açılır". Zərifə Əliyeva hərbi-səhra cərrahı N.İ.Piroqovun sözlərini tez-tez tələbələrinə xatırladırdı: "Elmi axtarışlarda istiqamət və metod - ən əsasıdır. Düzgün üsulları və istiqaməti tapmadan çox vaxt itirməklə özün də çaşırsan".

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunub. Onun əmək fəaliyyətinin böyük bir hissəsi bu institut ilə bağlıdır. Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti, sonra professoru və ömrünün sonunadək müdiri vəzifəsində çalışıb. Nazim Qasımov Zərifə Əliyevanın bu institutun fəaliyyətində, inkişafında gördüyü böyük işlərdən danışır: "1977-ci ildə tibb elmləri doktoru Zərifə xanım Əliyeva Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının professoru seçilib, pedaqoji işlə bərabər daha effektli elmi-tədqiqat işinin təşkilinə böyük enerji ilə başlayıb. Belə ki, 1974-cü ildə "Gözün herpetiv xəstəliyi" və "Kəskin virus könyüktivitləri" elmi tədqiqatları həkimlər üçün dərs vəsaiti kimi dərc edilib.

1980-ci ildə Zərifə Əliyeva tərəfindən üç monoqrafiya - "Rezin istehsalında gözün peşə xəstəliyi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" çapdan çıxıb".

Böyük istedadı və gərgin əməyi bəhrəsini verirdi. Alimin fəaliyyəti dəyərli tədqiqat əsərləri ilə diqqəti cəlb edirdi. Professor Zərifə Əziz qızı Əliyevaya 1980-ci ildə elmi xidmətlərinə və elmi pedaqoji kadrların hazırlanmasına görə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adı verilib. 1981-ci ildə isə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, həmçinin "Rezin istehsalında gözün peşə patologiyası" monoqrafiyasına görə SSRİ elmlər akademiyası tərəfindən Zərifə Əliyeva akademik M.İ.Averbax adına mükafata layiq görülüb. Bu, professor Z.Əliyevanın elmi xidmətlərinə verilən qiymət idi.

"1982-ci ildə professor Zərifə Əliyevanı Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasına kafedra müdiri seçirlər. Onun elmi fikirləri və kompleks elmi tədqiqatları daha geniş vüsət alır. Zərifə Əliyevanın rəhbərlik etdiyi kafedra oftalmologiyanın aktual problemlərinin, xəstənin müasir incə klinik müayinə üsullarının işlənib hazırlanması üzrə Azərbaycanın aparıcı mərkəzinə çevrilir. Zərifə xanım Əliyevanın klinikası və kafedrası ilə Azərbaycan Dövlət Tibb İnstitutunun digər profilli kafedra və klinikaları, həm də Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutu kollektivləri arasında elmi yaradıcılıq əlaqələri çox məhsuldar olub. Zərifə Əliyeva məktəbinin yetirmələri və davamçıları olan, kafedranın və görmə üzvünün fiziologiyası və peşə patologiyası elmi-tədqiqat laboratoriyasının bütün əməkdaşları elmi yaradıcılıqlarının rəngarəngliyi ilə özlərini istedadlı həmfikirlər və müasirlər kimi göstərirlər.

Nazim Qasımov Zərifə xanım Əliyevanın elmi və elmi-pedaqoji kadrların hazırlanması və tədqiqatların aparılması üçün kafedra və laboratoriyanın təchizatına böyük diqqət yetirdiyini nəzərə çarpdırır. Qeyd edir ki, o, çox qısa vaxtda kafedra və laboratoriyanın maddi-texniki bazasını zənginləşdirdi.

Müsahibimiz professor Zərifə Əliyevanın bu gün də unudulmayan mühazirələrindən də danışır: "Zərifə xanım Əliyeva gözəl mühazirəçi olub. Onun mühazirələri, çıxışları həmişə yeniliyi və orijinallığı ilə diqqəti cəlb edib. Zərifə Əliyeva aydın danışıq və ifadə mədəniyyətinin zirvəsinə çatmış və "Elə fikir yoxdur ki, onu sadə, aydın və qəbul ediləcək ifadə etmək mümkün olmasın" (A.İ.Kersen) düsturu ilə yüksək sözün məxsusi məktəbini yaradıb".

Zərifə Əliyevanın rəhbərliyi ilə mühazirələrin, məşğələlərin metodik işlənib hazırlanmaları yeni məlumatları genişləndirilib. Nəticədə, kafedranın təhsil-metodik işi keyfiyyətcə yeni səviyyəyə yüksəlib və daha effektli olub. Alim böyük həvəslə öz biliyini gənc həkimlərə və elmi işçilərə verirdi. Hədsiz yığcamlığı, ciddi intizamı, yüksək məsuliyyət hissi, fikrinin məntiqi ardıcıllığı, yüksək ümumi mədəniyyəti və insanlara diqqəti ümumi və tematik təkmilləşmə kurslarının dinləyicilərində böyük təəssüratlar yaradırdı. İnstitutun Elmi Şurasının yığıncaqlarında, elmi konqreslərdə, simpoziumlarda, konfranslarda çıxış edərkən Zərifə xanım öz prinsipiallığı, savadlılığı, geniş düşüncəsi, ideya yeniliyi, yüksək humanizmi ilə həmişə seçilirdi.

Zərifə xanımın praktik həkimlik fəaliyyəti xüsusən qeyd edilməlidir. O, həmişə əməkdaşlarından xəstələrə böyük məhəbbət və hörmət tələb edirdi, çox vaxt təkrarlayırdı: "Müalicə həkimi xəstənin ən doğma adamıdır". Zərifə xanımı həkimlərin mənəvi tərbiyəsi, tibbi etika və deontologiyası düşündürürdü. Bu sahəyə "Yüksək istedad" adlı monoqrafiyası həsr edilib. Zərifə xanım Əliyeva təkmilləşmə kurslarında dinləyicilərinə həkimlik deontologiyası barəsində belə deyirdi: "Xəstə sənin əlini sıxıb səmimi-qəlbdən - həkim, çox sağ ol! - deyəndə öz elminin nailiyyətinə sevin".

Müsahibimiz Zərifə Əliyevanın ömrünün son illərini də xatırlayır: "1982-ci ildə professor Zərifə Əliyevanın Moskva alimlərinin əməkdaşlığı ilə "İridodiaqnostikanın əsasları" və "Şəkərli diabet zamanı göz xəstəlikləri" kimi nəhəng işləri çapdan çıxdı. Professor Z.Əliyeva və onun şagirdlərinin dakriologiyanın mühüm problemlərindən birinin işlənib hazırlanmasında elmi tədqiqatları əhəmiyyətli dərəcədə müvəffəqiyyətlidir. Bu problem üzrə 1983-cü ildə professor Z.Əliyeva və tibb elmləri doktoru professor M.Y.Sultanov tərəfindən hazırlanmış iki monoqrafiya "Gözyaşı axıtmanın fiziologiyası" və "Gözyaşı axıtmanın cərrahi müalicəsinin müasir üsulları" çap olunub. Zərifə Əliyevanın tibb elmindəki böyük xidmətləri 1983-cü ildə onu Azərbaycan Elmlər Akademiyasına akademik seçilməsinə gətirdi. Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının akademiki, professor Zərifə Əliyevanın vaxtsız ölümü olmasaydı, onun elmi-pedaqoji fəaliyyəti daha da möhtəşəm olardı".

Bütün fəaliyyəti boyu tibb elminin və səhiyyənin ön sıralarında olmuş Zərifə Əliyeva Oftalmoloqların Ümumittifaq Elmi-Tibbi Cəmiyyətinin və Ümumittifaq "Bilik" Cəmiyyətinin İdarə Heyətinin üzvü, sovetlər birliyində Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavin olub. "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinə daxil idi. Xidmətləri orden və medallarla təltif edilmişdi. Eyni zamanda onu yaxından tanıyan elm və mədəniyyət xadimləri görkəmli alimin xidmətlərini yüksək qiymətləndirirdilər. Tanınmış oftalmoloqlar, RTEA-nın akademiki A.P.Nesterovun, PTEA-nın müxbir üzvü L.K.Moşetovanın, professor A.B.Şulpinanın akademik Zərifə Əliyeva haqqında dedikləri dəyərli sözlər buna nümunədir.



Zərifə xanım Əliyeva özü müvəffəqiyyətlərinə çox tənqidi yanaşırdı. Uğurları onu arxayınlaşdırmır, daha böyük işlərə sövq edirdi. Akademik Zərifə Əziz qızı Əliyeva tarixə nəinki istedadlı alim, klinisist, elmin təşkilatçısı kimi, eyni zamanda gözəl pedaqoq və yeni alimlər nəslinin tərbiyəçisi kimi daxil olub. Azərbaycanda aparıcı oftalmoloji məktəblərdən birini o yaradıb. Minlərlə həkim onun rəhbərliyi altında insanlara sağlamlıq və yaradıcı əmək sevinci qaytarmağı öyrənib.

Rektor müsahibəmizin sonlarında Zərifə Əliyevanın bu institutun fəaliyyətində yüksək xidmətlərini bir daha vurğuladı: "Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professor-müəllim heyəti minnətdarlıq hissi ilə Z.Ə.Əliyevanı yad edir, onun xatirəsi qarşısında baş əyir. O, öz yaradıcılıq enerjisi ilə instituta hərarət verib və sonrakı inkişafını müəyyən edib. Zərifə xanım Əliyeva yaradıcı insan idi. Onun, insanlara məhəbbətdən ruhlanan əməyi onlara mübarizədə qalib gəlməkdə kömək etməyə yönəlmişdi".

Görkəmli dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı olan Zərifə xanım bacarıqlı ailə başçısının qüdrətli dövlət başçısı kimi mənsub olduğu xalqı işıqlı ideallara qovuşdurmaq yollarındakı qətiyyətli mübarizəsinə etibarlı dayaq olub. Övladları İlham Əliyev və Sevil Əliyevanın parlaq, işıqlı Vətən övladları kimi tərbiyə olunmalarında da cəmiyyətşünaz göz həkiminin, ziyalı Azərbaycan qadınının əvəzsiz rolu minnətdarlıqla qeyd olunmalıdır. O, müstəqil Azərbaycanın son 200 ildə ən böyük qələbəsini qazanan, Müzəffər Ali Baş Komandan, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev kimi böyük dövlət xadimini Azərbaycan xalqına bəxş edib. Zərifə Əliyevanın xatirəsi Azərbaycan xalqının yaddaşında daim yaşayacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



# Türkiyə Azərbaycanın gücünə güc qatır

## Şuşa Bəyannaməsi qardaş ölkələrin strateji tərəfdaşlığını daha da möhkəmləndirib

Asiya, Afrika və Avropanın kəsişməsində yerləşən, Aralıq, Qara və Egey dənizləri ilə əhatə olunan, Bosfor və Dardanel boğazlarına sahib olmaqla strateji cəhətdən əlverişli mövqedə yerləşən 100 yaşlı Türkiyə Cümhuriyyəti bu gün dünyada güc mərkəzi olan dövlətlərdən biridir.

Təbii resurslarla zəngin olan Yaxın Şərq və bu resurslara ehtiyacı yaranan Avropa arasında yerləşməsi, eləcə də bu ehtiyatların Avropaya nəqlində tranzit cəhətdən mühüm əhəmiyyət kəsb etməsi Türkiyəyə hərtərəfli dvidendlər qazandırır. Həmçinin hər bir enerji-nəqliyyat layihələri onun rolunu daha da artırır.

### "Böyük iyirmilik" dövlətlərinin ən önəmli üzvlərindən biri

Son 20 ildə isə qardaş ölkə Prezident Rəcəb Tayyib Ərdoğanın yürütdüyü müstəqil siyasət sayəsində böyük tarixi uğurlara imza atıb. Dayanıqlı inkişafını qoruyub-saxlayan Türkiyə iqtisadi qüdrətini artıraraq "Böyük iyirmilik" dövlətlərinin ən önəmli üzvlərindən birinə çevrilib.

Qlobal siyasətdə əhəmiyyətli rol oynayan Türkiyənin razılığı olmadan regionda heç bir siyasi proses həyata keçirilmir. Bütün bunların arxasında Türkiyənin iqtisadi və hərbi qüdrəti dayanır. Ölkənin iqtisadi qüdrətinin gündən-günə yüksəlməsini dövlət büdcəsinin gəlir və xərcləri, valyuta ehtiyatlarının yüksəlməsi də bir daha təsdiqləyir. Dövlətin 2023-cü il üçün büdcəsinin xərcləri 4 trilyon 470 milyard TL, gəlirləri isə 3 trilyon 810 milyard TL-dir. Büdcə kəsirinin ÜDM-yə nisbətinin isə 3,5 faiz olacağı proqnozlaşdırılır. Mövcud məzənnə ilə büdcənin gəlirləri təxminən 205 milyard dollar, xərcləri 241 milyard dollardır.

Ölkənin müdafiə büdcəsi 2020-ci ildə 17,4, 2021-ci ildə isə 15,4 milyard dollar olub. Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən Türkiyənin Strategiya və Büdcə Komitəsi tərəfindən hazırlanan "Ortamüddətli Proqram"da (2023-2025) təsdiq edilib.

Dünya Bankının məlumatına görə, Türkiyənin 2019-cu ildə müdafiə büdcəsi bütün zamanların rekordunu qıraraq 20,6 milyard dollar olub. Bununla belə, COVID-19 epidemiyası səbəbindən 2020 və 2021-ci illərdə büdcə azaldı. Amma Türkiyənin müdafiə büdcəsi 2023-cü ildə 388 milyard lirə ilə bütün zamanların rekordunu yeniləyəcək. Prezident Rəcəb Tayyib Ərdoğan isə bəyan edib ki, Türkiyənin müdafiə büdcəsi gələcəkdə 75 milyard dollara çatdırılacq.

Bu gün Türkiyə Avropanın ən güclü dövlətinə çevrilməkdədir. Ölkənin 2023-cü il üçün strateji hədəfləri ixracın həcmini 500 milyard dollara çatdırmaqdır.

Əlbəttə ki, Türkiyənin iqtisadi qüdrətinin artması türk dünyasının yüksəlişini istəməyən bəzi dövlətlərdə narahatlıq yaradıb. Bütün imkanlarını Türkiyənin inkişafını əngəlləməyə yönəldən bəzi dairələr qardaş ölkəni beynəlxalq terror təşkilatları ilə vuruşmağa məcbur edirlər. Beynəlxalq terrorizmə qarşı mübarizə təşkilatlarının açıqladığı məlumatlara görə, son 5 ildə dünyada Türkiyə dövləti qədər terrora məruz qalan ikinci bir ölkə yoxdur. 40 ilə yaxındır PKK, ASALA və digər terror təşkilatları ilə mübarizə aparan Türkiyə dövləti son 4 ildir ki, İŞİD kimi dəhşətli bir terror təşkilatı ilə də üz-üzədir.

Bütün bunlara baxmayaraq, 100 yaşlı Türkiyə bütün çətinliklərin, problemlərin öhdəsindən gəlir və istənilən sahədə düşmənlərinə layiqli cavab verir. Bütün bunlar dövlətin hərbi və iqtisadi qüdrətinin yaratdığı reallıqlar fonunda baş verir.

### Dünyanın ən güclülərindən olan Türkiyə Ordusu və hərbi sənayesi davamlı inkişafdadır

"Son illərdə Türkiyə hərbi sənayesinin inkişafı ilə dünyaya meydan oxuyur" desək, yanılmarıq. Qlobal silah bazarında da ölkənin payı artmaqda davam edir. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) 2018-2022-ci illəri əhatə edən hesabatına əsasən, son illərdə pilotsuz uçuş aparatları (PUA), zirehli texnika və raket sistemləri ilə müdafiə sənayesində ciddi irəliləyiş əldə edən Türkiyə dünyanın 12-ci ən böyük silah ixracatçısıdır.

Bu il rəsmi Ankara müttəfiq ölkələrə silah ixracını 6 milyard dollar artırmağı, yeni silah və texnika istehsal etməyi planlaşdırır. 2023-cü ildə yerli şirkətlər tərəfindən hazırlanan MMU döyüş təyyarəsi, "Hürjet" reaktiv təlim təyyarəsi, "Gökbey" helikopteri, "hava-hava" tipli raketlər, "Baykar" şirkətinin "Bayraktar", "Akıncı" və "Qızıl alma" pilotsuz qırıcıları, həmçini müdafiə sənayesinin "Tayfun" ballistik raketləri, "Altay" tankları, "Siper" hava hücumundan müdafiə sistemləri sahəsində ciddi inkişaf qeydə alınacaq.

Türkiyənin "Baykar" şirkəti son illərdə müdafiə sənayesində mühüm layihələr həyata keçirir. Uzunmüddətli vəzifələri yerinə yetirmək üçün nəzərdə tutulan PUA-lar, pilotsuz qırıcı təyyarələr ilə Türkiyə dünyada Hale sinfindən olan uçuş aparatları istehsal edən dördüncü ölkədir.

Şirkətin istehsal etdiyi PUA-lar, "Bayraktar TB3" pilotsuz təyyarələrin ən son versiyaları ilə təchiz edilən "TCG Anadolu" desant gəmisi isə qardaş ölkənin hərbi sənayedə necə irəlilədiyini, inkişafını aydın göstərir. Bunlar saydığımız yalnız bir neçə nümunədir.

Vətən müharibəsindən sonra Türkiyə ordu modelinin ölkəmizdə tətbiqi, qardaş ölkənin hərbçiləri ilə keçirilən birgə təlimlər, qabaqcıl təcrübənin öyrənilməsi, hərbi avadanlıqların, texnikaların birgə istehsalı bu ölkənin hərbi sahədə dünyada öz sözünü demiş dövlətlərdən biri olduğunu da sübut edir.

Azərbaycanın Türkiyə ilə müttəfiqliyinin böyük əhəmiyyəti var. Çünki Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü 10 ordusundan biridir. Türkiyə Silahlı Qüvvələrinin arsenalında müasir, təkmilləşdirilmiş hərbi texnikalar, silah-sursat yer alır. Bununla yanaşı, bu ölkənin istehsal etdiyi hərbi avadanlıqlar dünyada tanınır və müxtəlif ölkələrin ordusunda istifadə olunur. Bu baxımdan Türkiyəni dövrün hərbi gücə malik böyük dövlətlərindən biri hesab etmək olar.

### Şuşa Bəyannaməsi iki dövlətin təhdidə məruz qalmasının qarşısını almaq üçün ciddi sənəddir

Tarixi köklərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri Vətən müharibəsindən başlayaraq strateji tərəfdaşlıqda yeni istiqamət aldı. İkinci Qarabağ savaşında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda digər rəsmilərin ölkəmizə dəstək nümayişi, hər an yanımızda olduqlarını bildirməsi bir çox dövlətlərin işlərimizə qarışmasına imkan vermədi.

Müharibədən sonrakı dövrdə münasibətlər daha da inkişaf etməyə başladı. Bu əlaqələrin rəsmi sənədi isə 2021-ci il iyunun 15-də mədəniyyət paytaxtımız Şuşada imzalandı. Rəcəb Tayyib Ərdoğan ilk Qarabağ səfərində Prezident İlham Əliyevlə birgə tarixi sənədi yenilədilər. Beləliklə, Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq və əlaqələr strateji tərəfdaşlıq müttəfiqlik səviyyəsinə yüksəldi.

Tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoyan Şuşa Bəyannaməsi "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, həmçinin "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni özündə rəhbər tutur. Bu, ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, hərbi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini ehtiva edir.

Sənəddə beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanır. Həmçinin müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyi ifadə edilir.

Bütün bunlar Türkiyənin son illərdə hərbi, iqtisadi, siyasi sahədə güclü dövlətə çevrildiyini bir daha bəyan edir. Azərbaycanın da hərbi gücünə güc qatan qardaş ölkə ilə müttəfiqliyi rəsmiləşdirən bu sənədlə güclərimizi daha da artırır.

Bəyannaməyə əsasən, Azərbaycan və Türkiyə müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edəcək.

Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq.

Tarixi sənəddə vacib məqamlardan biri də iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərdir ki, bununla bağlı işlər daha da sürətlənib.

Xüsusən Türkiyənin hərbi sahədə böyük təcrübəsi, müdafiə sənayesinin inkişafı nəzərə alınaraq, ölkəmizin də bu təcrübələri öyrənməsi və müdafiə sənayesində, həmçinin orduda istifadəsi Azərbaycan Silahlı Qüvvələrini də dünyanın güclü, peşəkar kadrlarla və müasir hərbi texnika, silah-sursatla təchiz olunmuş ordusuna çevirib.

### Türkiyənin inkişafı Azərbaycan və türk dünyası üçün vacib amildir

Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi mühüm əhəmiyyət kəsb edən və çoxşaxəli sənəddir. Bəyannamədə həm Qars müqaviləsi, həm də əvvəlki illərdə iki ölkə arasında münasibətlərlə bağlı imzalanmış müqavilələr birləşdirilərək çox ciddi sənəd kimi ortaya qoyulub. Sənəddə birmənalı şəkildə Azərbaycan-Türkiyə münasibətində həm regional, həm də beynəlxalq səviyyədə olan məsələlər, iki ölkənin bir-birinə necə gərəkli olması göstərilib.

Sənəddə hərbi sahədə Türkiyə modelinin tətbiqindən başlamış birgə təlimlərin keçirilməsi, hər hansı dövlətin ərazi bütövlüyünə təhdid olarsa, BMT-nin Nizamnaməsinə uyğun olaraq məsləhətləşmələr aparılması və buna əsasən müvafiq qərarların qəbul edilməsi kimi məsələlərin əksini tapması çox mühüm əhəmiyyət kəsb edir.

Deputat vurğulayıb ki, əsgəri mübadilə, təlimlərin keçirilməsi, müasir texnologiyalardan istifadə olunması, hərbi sənaye kompleksinin birgə istehsalı, Təhlükəsizlik Şuralarının tədbirlərinin birgə keçirilməsi də nəzərdə tutulub: "Şuşa Bəyannaməsində, həmçinin Ermənistanın Türkiyəyə müxtəlif iddialarının qarşısının alınması üçün birgə bəyanatların verilməsi də yer alır. Bir sözlə, bu, iki dövlətin hər hansı təhdidə məruz qalmasının qarşısını almaq üçün istinad edilə biləcək ciddi sənəddir. Türkiyənin son illərdə müdafiə sənayesi sahəsində çox ciddi irəliləyişləri var. Bunu 44 günlük Vətən müharibəsində də gördük. Türkiyədən alınmış ən müasir texnologiyalardan, eyni zamanda hava hücumundan müdafiə sistemindən istifadə müharibədə qələbə qazanmağımızda böyük rol oynadı".

A.Nağıyev qeyd edib ki, Türkiyənin hərbi sahədə inkişafı həm Azərbaycan, həm də gələcəkdə böyük türk dünyası üçün vacib məsələdir. Məhz Silahlı Qüvvələrin inkişafı, iki ölkə arasında hərbi sahədə fikir mübadiləsi aparılması, birgə təlimlər türk dünyasının gələcək inkişafına, təhlükəsizliyinə təhdidin qarşısının alınması üçün ən mühüm sığortadır. Hərbi sənaye kompleksinin təkmilləşdirilməsi perspektivdə istər Türkiyənin və Azərbaycanın, istərsə də müqaviləmiz olan digər dövlətlərin də inkişafı üçün görülən işlərdir.

Türkiyənin son illərdə hərbi müdafiə sənayesi sahəsində irəliləməsinin ancaq müsbət hal olduğunu vurğulayan deputat əlavə edib ki, "bir millət, iki dövlət" prinsipindən çıxış edən ən yaxın dostumuz Türkiyədir. "Qardaş ölkənin istənilən sahədə inkişafı böyük əhəmiyyət kəsb edir. Bu tək region üçün deyil, həm də beynəlxalq səviyyədə öz işini görür. Dünyada artıq görüntülər var ki, beynəlxalq güc beynəlxalq hüquqdan üstündür. Buna görə də Türkiyənin hərbi sahədə inkişafı, demək olar ki, Azərbaycanın inkişafıdır", - deyə A.Nağıyev bildirib.

### Şuşa Bəyannaməsi regionda təhlükəsizliyin təmin olunmasında böyük əhəmiyyət daşıyır

Şuşa Bəyannaməsinin hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunmasında böyük əhəmiyyət daşıdığını qeyd edən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, məhz bu sənədin imzalanması Azərbaycanın Vətən müharibəsindəki qələbəsini həzm etməyən molla rejiminə qarşı da çəkindirici faktor rolunu oynadı.

Ekspert vurğulayıb ki, həm Vətən müharibəsində, həm də ondan sonrakı dövrdə Türkiyə ilə Azərbaycan arasında hərbi, texniki, iqtisadi, siyasi, diplomatik sahədə əməkdaşlıq özünün müsbət nəticələrini daha qabarıq şəkildə göstərir: "Hazırda bir çox silah sistemləri üzrə dünyanın ilk sıralarnda yer alan Türkiyə və İsrailin Azərbaycanla yaxından əməkdaşlıq etməsi öz müsbət nəticələrini regionda nümayiş etdirir. Türkiyənin müdafiə sənayesi sahəsində sürətlə irəliləməsi ölkəmiz üçün də böyük əhəmiyyət daşıyır".

Ölkəmizin də Türkiyənin müdafiə sənayesi sahəsində əldə etdiyi nailiyyətlərdən yüksək səviyyədə yararlanmağa çalışdığını qeyd edən Ədalət Verdiyev hesab edir ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan qurumlar Türkiyə ilə əməkdaşlıqda maraqlı olmalı və onların müsbət təcrübəsini ölkəmizdə tətbiq edərək dünya bazarında yaranmış silah-sursat qıtlığının aradan qaldırılması istiqamətində vacib və önəmli addımlar atılmasını sürətləndirməlidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# "Bu səfər iki qədim türk dövlətinin möhkəm dostluq, qardaşlıq və qarşılıqlı faydalı əlaqələrinin rəngarəng çələngi kimi yaddaşlara həkk olundu"

## Qazaxıstanlı jurnalist Azərbaycan Prezidentinin Astana səfəri haqqında təəssüratlarını qəzetimizlə bölüşüb



Prezident İlham Əliyevin Astanaya səfərindən müəyyən zaman keçsə də, dost ölkənin kütləvi informasiya vasitələrində geniş şərh olunur. Qazaxıstanlı həmkarlarımızdan aldığımız məktublarda da bu səfərin hər iki xalq üçün necə dərin məna kəsb etməsindən danışılır.

"Azərbaycan Prezidenti İlham Əliyevə xalqımızın sevgisi elə dərindir ki, onun Qazaxıstana gəlişini adi sözlərlə ifadə etməyə çətinlik çəkirəm. Bu, sanki mümkün deyil. Mübaliğəsiz deyək ki, İlham Əliyevi Astanada gülərüzlü insanlarımız və bir də bu yerlərin özünəməxsus təravətli baharı qarşıladı. Bu səfər iki qədim türk dövlətinin möhkəm dostluq, qardaşlıq və qarşılıqlı faydalı əlaqələrinin rəngarəng çələngi kimi yaddaşlara həkk olundu. Azərbaycanla Qazaxıstanın qarşılıqlı əlaqələrini bütün istiqamətlərdə uğurla tərəqqiyə səmtlənən müsbət nümunələrin vahid modeli kimi nəzərdən keçirmək mümkündür". Bu sözləri bizə Qazaxıstandan "Qazaxtanu" jurnalının baş redaktoru Baxtıbay Jumadildin yazıb. O, MDU-nun Jurnalistika fakültəsini bitirib, Qazaxıstanda imzası tanınan jurnalistlərdəndir.

Azərbaycan Prezidentinin Qazaxıstana səfərinin digər dövlət başçılarından nə ilə seçildiyini Baxtıbay belə izah edir: "Qazaxlar üçün elə bir siyasi dövlət xadimi yoxdur ki, onun nüfuzu hamımızın rəğbət bəslədiyi Heydər Əliyevin nüfuzunu üstələsin və ya ondan yüksək qiymətləndirilsin. Bu dahi şəxsiyyətin adının yenidən qurulan Astananın ən gözəl mərkəzi küçələrindən birinə verilməsi də Ulu Öndərimizə olan tükənməyən sevgimizin təzahürüdür. Astana böyüdükcə bu küçə də mərkəzə daha yaxın düşür. Məhz bu amillərə görə bizim Prezidentimiz bu küçəyə Heydər Əliyevin adının verilməsini qərara aldı. Onu da qeyd edim ki, küçənin açılışına saysız-hesabsız insan toplaşmışdı. Eyni gündə axşam bütün dövlət televiziya kanalları ilə türk xalqlarının böyük oğlu Heydər Əliyevin gördüyü nəhəng işlərdən bəhs edən film nümayiş etdirildi. Onu da qeyd etmək vacibdir ki, bu, başqa ölkənin liderinə həsr olunmuş yeganə filmdir".

B.Jumadildin yazır ki, Azərbaycan Prezidenti İlham Əliyevin Astana səfərini şərh edərkən onun Qazaxıstanda böyük rəğbət və dərin sevgilərlə qarşılanmasını məxsusi qeyd etmək lazımdır. İlk baxışdan nəzərə çarpan odur ki, bu bağlılığın tarixin dərinliklərindən sızan möhtəşəm keçmişi mövcuddur. Birinci növbədə Heydər Əliyevin uzun illər Qazaxıstana olan böyük sevgisini xatırlamalıyıq. Tarixin ən gərgin dönəmlərində Ulu Öndər qazaxlara dəstək vermiş, onların çətinliklərinə həyan durmuşdur. Məhz buna görə qazax xalqı onu məhəbbətlə yad edir, xatırlayır. Azərbaycanla Qazaxıstanı daha sıx dostluq telləri ilə bağlayan ən mühüm amillərdən biri də İlham Əliyevin Ali Baş Komandan kimi sonuncu Qarabağ müharibəsində erməni işğalçıları üzərində qazandığı möhtəşəm qələbədir. Aradan illər keçəcək, qərinələr ötəcək və bu möhtəşəm qələbə hərb tarixinə türk dünyasının ən möhtəşəm zəfəri kimi həkk olunacaq.

J.Baxtıbay belə hesab edir ki, bu qələbə yalnız Azərbaycan üçün yox, bütün türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən unikal tarixi hadisədir: "Zaman bu qələbəni tarixin ən uzaq səhifələrinə daşıdıqca, o daha parlaq şölələnəcək".

Onu da qeyd edək ki, B.Jumadildin Azərbaycanda olarkən qəzetimizlə əməkdaşlıq etmiş, geri döndükdən sonra isə "Qazaxtanu" jurnalının növbəti nömrələrindən birini Azərbaycana həsr etmişdir. J.Baxtıbay Azərbaycanı dərin sevgilərlə belə xatırlayır: "İnsanlarınız ağlasığmaz dərəcədə qonaqpərvər və saxavətlidirlər. Biz Azərbaycanı gəzirdik, hər yerdə soruşurdular ki, hardansınız? Qazaxıstan deyəndə hamının gözlərində sevginin dərinliyindən doğan qənirsiz bir təbəssüm alışırdı. Bu hissləri unutmaq çətindir".

Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Yaradıcılıq İnkişaf Mərkəzi tikilir. Qardaş ölkənin məşhur simalarından birinin adı ilə bağlı mərkəzin işğaldan azad edilmiş ərazilərdə inşası bizim qələbəmizə verilən yüksək dəyərdir. Bütün bunlar özünü hələ də hamıdan "ağıllı" olduğuna inanan Ermənistanın "toyuq korluğundan" necə əziyyət çəkməsini göstərir. Artıq nəinki Azərbaycan, bütün türk xalqları tarixi geri vərəqləyir və erməni quldur dəstələrinin Türkiyədən tutmuş Orta Asiyaya, Qazaxıstanadək olan ərazilərdə törətdikləri qırğınları və genosid aktlarını öyrənir, özünə "əzabkeş" titulu döyüb sinəsindən asan xalqın nə qədər qaniçən cinayətlərə müəlliflik etdiyini üzə çıxarırlar. Artıq hamıya gün kimi aydındır ki, Azərbaycan erməni faşizmi ilə mübarizədə tək deyil.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Yanvar-mart aylarında qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 4,9 faiz artıb

2023-cü ilin yanvar-mart aylarında ölkədə 30 milyard 310,6 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,4 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,9 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 4,9 faiz artmışdır.

ÜDM istehsalının 47,5 faizi sənaye, 9,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,0 faizi tikinti, 2,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə sahələrinin, 17,6 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 2991,2 manata bərabər olmuşdur.

## Əsas kapitala 3,5 milyard manatdan çox vəsait yönəldilib

**Cari ilin yanvar-mart aylarında əsas kapitala 3 milyard 523,1 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 40,3 faiz çox vəsait yönəldilmişdir.**




Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 23,8 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 51,7 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 1 milyard 941,3 milyon manatı və ya 55,1 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 396,5 milyon manatı (39,6 faizi) xidmət sahələrinə, 185,3 milyon manatı (5,3 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2577,3 milyon manatını və ya 73,2 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2 milyard 517,5 milyon manatı və ya 71,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 45,8 faiz, büdcə vəsaitləri 39,0 faiz, əhalinin şəxsi vəsaitləri 6,4 faiz, bank kreditləri 4,1 faiz, sair vəsaitlər isə 4,7 faiz təşkil etmişdir.

## Azərbaycanda ilk dəfə birinci rübdə 1 milyard dollara yaxın ixrac həyata keçirildi

Yanvar-mart ayları ərzində Azərbaycanın qeyri-neft ixracı 23,2 faiz artaraq 912,2 milyon ABŞ dolları səviyyəsinə çatıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin rəhbəri Nicat Hacızadə AZƏRTAC-a bildirib ki, ilk dəfədir ilin ilk rübündə Azərbaycan tərəfindən 1 milyard ABŞ dollarına yaxın ixrac həyata keçirilib. Ötən illərdən fərqli olaraq qeyri-neft ixracının əsas hərəkətverici qüvvəsi elektrik enerjisi olub: "2023-cü ilin ilk üç ayı ərzində elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 551,7 milyon kVt/st, yəni 7,7 faiz artaraq 7 756,2 milyon kVt/st olub. 2023-cü ilin ilk rübündə Azərbaycanın elektrik enerji istehsalının 16,6 faizi ixraca yönəlib. Belə ki, cari ilin birinci rübü ərzində elektrik enerjisi ixracı 6,1 dəfə və ya 234,7 milyon artaraq 281,1 milyon ABŞ dolları təşkil edib. 2022-ci ilin qeyri-neft ixracının strukturunda 6-cı mövqedə qərarlaşan elektrik enerjisinin ticarət gəlirləri 121,6 milyon ABŞ dolları dəyərində olub. Nəticə etibarı ilə 2023-cü ilin elektrik enerjisi ixracı 2022-ci ilin yekun ixrac dəyərindən 2,3 dəfə çoxdur. Yalnız mart ayında isə elektrik enerjisi istehsalı 11,7 faiz, ixracı isə 22 dəfə artıb".

Nicat Hacızadə qeyd edib ki, elektrik enerjisi ixracının əhəmiyyətli səviyyədə artımı Türkiyəyə həyata keçirilən ixracın sürətli artımı ilə əlaqədardır. 2023-cü ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları təşkil edib. Yalnız fevral ayında isə qardaş ölkəyə ixracın dəyəri 2 dəfə artaraq 167,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Adıçəkilən ixrac dəyərinin əhəmiyyətli artımının əsas səbəbi elektrik enerjisi ilə əlaqədardır.

N.Hacızadənin təqdim etdiyi statistik məlumatlara əsasən, 2023-cü ilin yanvar-mart ayları ərzində yeyinti məhsullarının ixracı 5,7 faiz artaraq 169,9 milyon ABŞ dolları təşkil edib. Bu göstərici qeyri-neft ixracının 18,6 faizini təşkil etməklə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 bənd daha azdır. 2023-cü ilin 3 ayı ərzində aqrar və aqrar-sənaye məhsullarının ixracı 3,4 faiz artaraq 178,9 milyon ABŞ dolları təşkil edib. Sözügedən artımın əsas hərəkətverici qüvvəsi ötən illərdən fərqli olaraq kənd təsərrüfatına dayanan sənaye istehsalı ilə əlaqədardır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə aqrar-sənaye məhsulları ixracı 19,6 milyon ABŞ dolları və ya 56,3 faiz artıb. Adıçəkilən sənayenin istehsalının artımı emal edilən heyvan mənşəli məhsullar, eləcə də alkoqollu və alkoqolsuz içkilər hesabına baş verib. Bu içkilər ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,1 dəfə artıb.

# Bu gün BTC regionun neft ixracı arteriyasıdır

## 20 il əvvəl isə torpağa kəmərin ilk boruları düzülürdü

Regionun neft ixracı arteriyası - Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri 17 ilə yaxındır təhlükəsiz, ahəngdar surətdə fəaliyyət göstərir. 20 il əvvəl isə Səngəçaldan başlayaraq Umbakı dağlarına doğru qazılmağa başlayan xəndəklərə onun ilk boruları düzülürdü. Kəmərin təməli 2002-ci il sentyabrın 18-də qoyulsa da, geniş hazırlıq tədbirlərindən sonra fiziki tikinti işlərinə növbəti ilin aprelində start verilmişdi.



BTC Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biridir və Ulu Öndərin adını şərəflə daşıyır. Bu layihənin uğur salnaməsi Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir. BTC çox sınaqlardan keçib. Məlum olduğu kimi, istər ölkəmizin daxilində, istərsə də xaricdə bir sıra qüvvələr müxtəlif əsassız bəhanələrlə onun çəkilişinə mane olmağa cəhd göstərirdilər. Lakin Ulu Öndərin səyləri və dünyadakı siyasi nüfuzu sayəsində maneələrin hamısı dəf olundu. İnşaat işləri ümumilikdə bir neçə il davam etdi. Belə ki, xəttin Azərbaycan hissəsində tikinti işləri 2004-cü ilin sentyabrında sona çatdı. Həmin ilin oktyabrında isə kəmərin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsinə həsr olunmuş "Qızıl qaynaq" mərasimi keçirildi. 2005-ci ilin mayında BTC-nin Azərbaycan, oktyabrında Gürcüstan hissəsi istifadəyə verildi. Kəmər tam bir sistem kimi 2006-cı ilin iyul ayında istismara daxil oldu. BTC-nin Ceyhan terminalına çatdırdığı xam neftlə ilk tanker isə 2006-cı il iyunun 4-də yüklənmişdi. O vaxt təqribən 600 min barel "Azəri-Çıraq-Günəşli" nefti "British Hawthorn" tankerinə vurularaq Ceyhandan dünya bazarlarına göndərilmişdi.

Uzunluğu 1768 kilometr olan BTC Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilib. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keçdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Qəhrəman Maraş, Osmaniyə və Adanadır.

BTC-nin gündəlik ötürücülük gücü 2009-cu ilin yazınadək bir milyon barel idi, həmin vaxtdan indiyədək isə 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür. Üç tranzit ölkə ərazisində kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Ölkəmizdəki daha bir stansiya Yevlax rayonu ərazisindədir. Növbəti iki stansiya Gürcüstanda və dördü Türkiyədə fəaliyyət göstərir.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir. Kəmər eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir.

Kəmərin çəkilişi üçün 220 min boru hissəsi qaynaqla bir-birinə calanıb. Tikintinin ən qızğın dövründə işə 22 min insan cəlb edilib. Bunların 80 faizə qədəri inşaat işləri gedən ərazilərin öz sakinləri olub. Kəmərin araya-ərsəyə gəlməsi üçün 110 milyondan artıq adam-saat sərf edilib. Daha bir maraqlı fakt: tikintiyə xidmət edən maşınlarla ümumi uzunluğu 200 milyon kilometrdən artıq olan yol keçilib. Bu isə Yer kürəsi ətrafında 10 dəfə dövrə vurmağa bərabərdir.

Beləliklə, BTC dünya miqyasında dövrümüzün ən böyük və ən mürəkkəb mühəndis-texniki qurğularından biri hesab edilir. 2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC barədə demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Hazırda BTC, əsasən, "Azəri-Çıraq-Günəşli"nin neftini və "Şahdəniz"in kondensatını daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur. Artıq BTC-yə "Tengiz" yatağından hasil edilən neftin vurulmasına da başlanıb. Bu ay kəmər həmin yataqdan 125 min ton neft nəql edəcək. Qazaxıstanın magistral neft kəmərinin milli operatoru olan "KazTransOil" şirkəti xəbər verir ki, magistral neft kəməri ilə BTC istiqamətində növbəti neft partiyasını göndərib. Şirkət Aktau limanında "Prezident Heydər Əliyev" tankerinə 9959 ton "Tengiz" nefti yükləyib.

Qazaxıstan neftinin BTC ilə nəqli SOCAR və "KazMunayQaz" şirkəti arasında ildə 1,5 milyon ton neftin tranzitini nəzərdə tutan saziş çərçivəsində həyata keçirilir. 2023-cü ilin sonuna kimi Xəzər dənizi ilə ayda 12-14 tanker reysinin həyata keçirilməsi planlaşdırılır. SOCAR Qazaxıstan neftini BTC-yə qəbul etmək üçün 2022-ci ildə Səngəçal terminalının ərazisində toplayıcı boru kəmərləri şəbəkəsinin yenilənməsi istiqamətində mühüm layihələr həyata keçirib. Bu layihələr BTC-nin ötürmə gücündən istifadə səviyyəsini artırıb.

İstismara verildiyi vaxtdan 2022-ci ilin sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 531 milyon tondan çox (3,99 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5244 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Xatırladaq ki, BTC Ko.-nun səhmdarları bp (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

BTC tikinti mərhələsindən başlayaraq regiona əhəmiyyətli faydalar gətirib və müsbət dəyişikliklərə yol açıb. Layihə başlandığı vaxtdan kəmərin marşrutu boyunca yüzlərlə icma ilə sıx əməkdaşlıq şəraitində çoxsaylı sosial təşəbbüs həyata keçirilib və bu fəaliyyət davamlı xarakter daşıyır. Kəmər Bosfordan yan keçməklə, onsuz da yüksək hərəkət sıxlığı olan boğazlar vasitəsilə neftin nəqlinin və bununla bağlı ekoloji risklərin azaldılmasına xidmət edir. BTC-ni səssiz kəmər də adlandırırlar. Çünki boruları torpaq altında basdırılıb, bu isə müasir dövrdə karbohidrogenlərin nəqlinin ən təhlükəsiz yolu sayılır. BTC öz möhkəmliyini və təhlükəsizliyini bu il Türkiyədə zəlzələ baş verərkən bir daha nümayiş etdirdi. Belə ki, kəmərin yüksək keyfiyyətlə istehsal olunmuş və etibarlı örtüklənmiş borularına heç bir ziyan dəymədi.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan dünyanın cazibə mərkəzinə çevrilib

## Beynəlxalq güclər Zəngəzur dəhlizinin açılmasında maraqlıdır

Dünyada yeni düzənin formalaşması uğrunda açıq savaş gedir. Əvvəllər bu mövqe müharibəsi diplomatik görüşlərdə bağlı qapılar arxasında baş verirdi. İndi isə mübarizə döyüş meydanlarına köçərək açıq savaş müstəvisinə keçib. Bu üzdən dünya özünün ağrılı günlərini yaşayır.

Yaşadığımız əsrdə ticarət və maliyyə məsələləri elə səviyyədə bir-birinə bağlanıb ki, onu hissələrə ayıranda iqtisadi inkişafa çox böyük zərər dəyir. Üstəlik, qarşılıqlı məlum sanksiyalar. Elə buna görə Beynəlxalq Valyuta Fondunun (BVF) cari maliyyə ili üçün proqnozu ürəkaçan deyil. BVF-nin direktoru Kristalina Georgiyeva "Biz 2023-cü ilin daha çətin il olacağını gözləyirik" proqnozunu boş yerdən verməmişdir. İndiki məlum qarşıdurmalar fonunda özgə nə gözlənilləndir ki...

Açıq desək, dünyada gedən bu qarşıdurmaya ABŞ-lə Çin öndərlik edir. Gərginlik ABŞ-nin birinciliyi əldən verməmək istəyi, Çinin isə səssiz şəkildə birincilik səviyyəsinə yaxınlaşması üzündən baş verir. Dünyanın aparıcı beyin mərkəzlərinin və tanınmış iqtisadçıların proqnozlarına görə, Çin 2030-cu ildə dünyada iqtisadi güc kimi ABŞ-ni ötərək birinci yerdə qərarlaşacaq. Təbii ki, Amerika bununla razılaşmır, məqbul və ya qeyri-məqbul üsullardan istifadə edib prosesi öz xeyrinə dayandırmaq istəyir.

Sual yarana bilər: bəs Azərbaycan bu proseslərdə hansı yerdə qərarlaşıb? Cavab çox sadədir: baş verən proseslərin düz ortasında. Ona görə ki, Çinin inkişafı Orta dəhlizdən asılıdır. Çin təkcə Avropa ilə 1,5 trilyon dollarlıq qarşılıqlı ticarət aparır. Bununla yanaşı, ÇXR Orta Şərq və Şimali Afrika ilə olan ticarətini də artırmaq istəyir. Azərbaycan isə Orta dəhlizdə açar ölkədir. Ölkəmiz həmçinin "Şimal-Cənub" beynəlxalq marşrutunda bu statusdadır. İndi sözün həqiqi mənasında Azərbaycan dünyanın cazibə nöqtəsinə çevrilib.




Bir-biri ilə ciddi rəqabət aparan Çinlə ABŞ son vaxtlar ortaq mövqe nümayiş etdirirlər. Aralarında olan əsas fərq isə dəhlizə siyasi nəzarət məsələsində üstünlük əldə etmək istəyidir. Bu üzdən son dövrlər ABŞ Orta Asiyadakı türk dövlətləri ilə münasibətləri yaxşılaşdırmaq üçün səy göstərir. Amerikanın yüksək çinli məmurlarının həmin ölkələrə səfərlərini intensivləşməsi də bununla bağlıdır. Rusiya Ukrayna ilə müharibədən əvvəl Orta dəhlizin fəaliyyətinə mane olmaq istəyirdi. Şimal qonşumuz bunu Çindən Avropaya gedən marşruta alternativ kimi görürdü. Ukrayna ilə müharibədən sonra isə özü məcburən Orta dəhlizin fəaliyyətində maraqlı ölkəyə çevrilib.

Məlumdur ki, 44 günlük müharibədəki zəfərimizdən sonra regionda yeni reallıq yaranıb. Bu reallıq indi beynəlxalq əhəmiyyət qazanır. Yəni çoxlarının maraq göstərdiyi Orta dəhliz yeni imkanlar əldə edir. Zəngəzur dəhlizi hesabına bu qlobal marşrutla yükləri daha geniş coğrafiyaya təhlükəsiz və tez çatdırmaq mümkün olacaq. Çünki Zəngəzur dəhlizi Türkiyə vasitəsilə Yaxın Şərqə və Şimali Afrikaya yüklərin sürətlə çatdırılmasında ən önəmli marşrutdur.

Yəqin elə bu səbəbdəndir ki, son vaxtlar ABŞ Orta dəhlizlə bağlı açıq mövqe bildirərək onun əhəmiyyətini vurğulayır. ABŞ-nin Ticarət katibinin qlobal bazarlar üzrə köməkçisi, eyni zamanda Ticarət Xidmətləri üzrə baş direktoru Arun Venkataraman aprelin əvvəlində Bakıda olarkən demişdir: "ABŞ Orta dəhlizin inkişafını dəstəkləyir. Bu təşəbbüsün inkişafı, Orta dəhlizin tam işlək vəziyyətə gətirilməsi ticarət imkanlarını, dövriyyəni artıracaq". Göründüyü kimi, Amerika dövləti də Zəngəzur dəhlizinin, yəni regionda kommunikasiyaların açılmasında və ticarət dövriyyəsinin artmasında maraqlıdır.

Məlumdur ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsinə qarşı İran birbaşa, Fransa isə dolayısı ilə mane olmaq istəyir. İranın bu yolun açılmasını istəməməsinin səbəbi, heç də bəyan etdiyi kimi, bölgədə mövcud sərhədlərin dəyişdirilməsi deyil. Çünki bu zaman sual olunur: Zəngəzurdan keçən keçmiş marşrutun bərpası hansı ölkənin ərazi bütövlüyünü pozur? Amma İran bu suala cavab vermək əvəzinə, "sərhədlərin pozulması bizim qırmızı xəttimizdir" deyib durur.

İranın bu mövqeyinin nə sərhədlərin dəyişməsi, nə də Ermənistana olan xüsusi sevgisi ilə əlaqəsi var. Onun qarın ağrısı itirəcəyi milyardlarla dollar, həmçinin tədricən bölgədə və dünyada əhəmiyyətsiz ölkəyə çevrilmək qorxusudur. Torpaqlarımızı işğaldan azad edən kimi İran qaça-qaça gəlib ölkəmizə Zəngəzur dəhlizinin cəmi 5 kilometr məsafəsində Naxçıvana yeni yolun çəkilməsini təklif etdi. Azərbaycan üçün məqbul olan bu təşəbbüsə müsbət cavab verildi. Çünki alternativlər nə qədər çox olarsa, ölkəmizin xeyrinədir. Lakin sən demə, İran bu yolla Zəngəzur dəhlizinin çəkilməsinin qarşısını almaq istəyirmiş və bu məqsədlə tələm-tələsik Araz çayı üzərindən körpü tikilməsi barədə ölkəmizlə raşılığa da gəlmişdi. Sonra görəndə ki, Azərbaycanın Zəngəzur dəhlizinin açılmasında mövqeyi qətidir, başladı təxribatlara. Bu məsələdə İranın narahatlığını başa düşmək o qədər də çətin deyil. Cənub qonşumuz qeyd etdiyimiz hiyləgər diplomatik gedişlə həm dünyanın ən önəmli nəqliyyat marşrutunu, həm də türk dünyasının birliyini nəzarət altına almaq istəyir. Düşünür ki, bu cür hiyləgər gedişlə həm siyasi, həm də iqtisadi dividendlər qazana biləcək.

Prezident İlham Əliyev İranın bu məkrli siyasi gedişini gördüyü üçün Zəngəzur dəhlizinin açılmasını təkidlə tələb edir. Dövlət başçısı ölkəmiz və bütün dünya üçün əhəmiyyətli olan bu marşrutun İranın sürüşkən siyasətindən asılı vəziyyətə düşməsinə imkan vermir. Ən önəmlisi isə dünyanın gələcəyində önəmli rol oynayacaq türk dünyasının birliyinə İran rejiminin əngəl olmaq imkanlarını sıfıra endirir. Prezident İlham Əliyevin "Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq" ifadəsi təsadüfi deyil.

Bu gün Zəngəzur dəhlizinin açılmasında maraqlı ölkələrin gücü İrandan qat-qat çoxdur. Birləşmiş Krallıq, Avropa Birliyi, Çin, Rusiya Zəngəzur dəhlizinin açılmasına birbaşa dəstək verirlər. Artıq ABŞ-nin da mövqeyi bəllidir. O ki qaldı, N.Paşinyanın aradabir səsləndirdiyi "Zəngəzur dəhlizi açılmayacaq" bəyanatına, bunu ciddiyə almaq lazım deyil. Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın dediyi kimi, "İndi heç kəs Ermənistanın fikrini soruşmur".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Mədəniyyət





● 15 Aprel Beynəlxalq Mədəniyyət Günüdür

1935-ci il aprelin 15-də Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" müqavilə imzalanıb. 1998-ci ildə "Mədəniyyətin Müdafiəsi Beynəlxalq Liqası" adlı ictimai təşkilat bu tarixin Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunması təşəbbüsünü irəli sürüb. Dünyanın bir çox ölkəsində o vaxtdan 15 Aprel Beynəlxalq Mədəniyyət Günü kimi qeyd edilir.



# Zəngin mədəni irsi Azərbaycan xalqının ən böyük mənəvi sərvətidir

Bu əlamətdar tarix beynəlxalq hüquq təcrübəsində Rerix paktı kimi də tanınır. Belə ki, ilk dəfə 1931-ci ildə Belçikanın Brügge şəhərində keçirilən konfransda rəssam Nikolay Rerix Ümumdünya Mədəniyyət Gününün qeyd olunmasını təklif edib.

Bu günlə bağlı daha bir yaddaqalan hadisə 2008-ci ildə olub. Həmin ilin dekabrında Rusiya, İtaliya, İspaniya, Argentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilatlarının təşəbbüsü ilə 15 aprelin dünya bayrağı altında Ümumdünya Mədəniyyət Günü kimi təsdiqi üçün beynəlxalq hərəkat yaradılıb.

15 Aprel Beynəlxalq Mədəniyyət Günü hər il Azərbaycanda müxtəlif tərbirlərlə qeyd olunur.

### *Nəsildən-nəslə ötürülərək yaşayan qədim el sənətləri*

Dünyanın qədim sivilizasiya mərkəzlərindən biri olan ölkəmiz mədəniyyətinin zənginliyi və özünəməxsusluğu ilə heyranedicidir. Daş dövrünə aid Azıx mağarası, Qobustan qayaüstü rəsmləri və daha neçə-neçə abidələr xalqımızın əsrlər, minilliklər öncəsindən xəbər verir.

Azərbaycanın bütün bölgələrində qədim dövrlərdən başlayaraq el sənətləri yaranıb və inkişaf edib. Ölkənin müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş nümunələr bunu təsdiq edir. Tədqiqatçılar Gəncə, Gədəbəy, Naxçıvan, Mingəçevir, Qazax və digər yerlərdə aşkarlanan metaldan düzəldilmiş sənət əsərlərinin yaşı 5000 ilə yaxın olduğunu bildiriblər.

Mütəxəssislər bu qənaətə gəliblər ki, qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri əcdadlarımızın hələ eramızdan əvvəl II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və digər zinət əşyaları hazırladıqlarını göstərir.

Azərbaycanın ayrı-ayrı ərazilərindən tapılan, fərqli dövrlərə aid edilən qab-qacaq, silah və bəzək əşyaları onları hazırlayan ustaların da nə qədər bacarıqlı, mahir usta olduqlarını söyləməyə əsas verir. Ustalar öz bildiklərini şagirdlərinə də öyrədiblər. Beləcə, el sənəti nəsildən-nəslə ötürülərək yaşayıb inkişaf edib. Həmin nümunələr həm də əcdadlarımızın məişəti, güzəranı və zövqündən xəbər verir.

Tədqiqatçılar qeyd ediblər ki, araşdırmalar zamanı əldə edilən misdən, tuncdan, qızıldan düzəldilmiş ev avadanlıqlarının, zinət əşyalarının üzərinə həkk edilmiş rəsmlər, eləcə də gildən hazırlanmış kiçik heykəllər göstərir ki, Azərbaycanda qədim zamanlarda təsviri sənət, heykəltəraşlıq mövcud olub.

Ölkəmizin ərazilərində həyata keçirilən arxeoloji qazıntılar nəticəsində e.ə. III minilliyə aid tuncdan hazırlanan iynə və bizin tapılması isə azərbaycanlıların qədimdən özlərinə paltar tikməyi bacardıqlarını deməyə əsas verir. Azərbaycanda geyim mədəniyyəti əsrlər boyu olub, getdikcə daha da inkişaf edib.

Tədqiqatçılar arxeoloji qazıntılar zamanı aşkarlanan materiallara, eləcə də yazılı mənbələrə əsaslanaraq azərbaycanlıların xalçaçılıqla hələ e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərindən məşğul olduqlarını sübuta yetiriblər. Qeyd ediblər ki, Herodot, Klavdi Elian, Ksenofont və digər qədim dünya tarixçiləri Azərbaycanda xalçaçılığın inkişafı barədə məlumatlar veriblər. Qarabağ, Təbriz, Quba, Bakı, Şirvan, Gəncə, Qazax xalçaçılıq məktəblərində toxunulmuş xalçalar gözəlliyi, zərifliyi ilə görənləri valeh edib. Həmin xalçalardan bu gün də dünyanın məşhur muzeylərində qorunub saxlanılanları var.

Memarlıq ənənələrinin qədim tarixə söykəndiyini Azərbaycanın müxtəlif ərazilərindəki tikililər də təsdiq edir. Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, Möminə xatun və Yusif ibn Küseyir türbələri, Şəki xanları sarayı və digər tikililər memarlıq sənətinin nadir inciləri kimi dəyərləndirilir.

### *Azərbaycanın mədəni irsi dünyada tanınır*

Mədəniyyətimizin qədimliyindən söz düşəndə bu xalqın lap qədim zamanlardan musiqiyə bağlı olduğunu da nəzərə almaq vacibdir. Araşdırıcıların diqqətini çəkən, böyük marağına səbəb olan faktlardan biri Qobustan qayaüstü təsvirləri arasında "Yallı" rəqsi edən insanların təsviridir. Bu təsvirlər əcdadlarımızın musiqiyə olan marağından xəbər verir.

Azərbaycan xalq musiqisi, mahnıları, muğamları, aşıq mahnıları əsrlərdir ki, dinləyənləri sanki ovsunlayır. Qeyd edək ki, musiqi mədəniyyətimizə maraq göstərən, heyran olan yalnız özümüz deyilik. Dünyanın bir çox ölkələrində muğamlarımızı böyük maraqla, vurğunluqla dinləyən musiqisevərlər var.

Qədimlikdən danışarkən ədəbiyyatımızı da yaddan çıxarmamalıyıq. Xalqımızın çox zəngin şifahi xalq ədəbiyyatı, folklor nümunələri var. Azərbaycan xalqı dünyaya Nizami Gəncəvi, Xaqani Şirvani, İmaddədin Nəsimi, Məhəmməd Füzuli və başqa qüdrətli şairlər bəxş edib. Sonralar ədəbiyyat yolumuzu Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və başqaları davam etdiriblər.

Azərbaycan mədəniyyətinin qədimliyi və zənginliyi başqa xalqların da diqqətini cəlb edib. Təsadüfi deyil ki, respublikamız 1992-ci il iyunun 3-də UNESCO-ya üzv qəbul edilib, 1996-cı ildən isə əməkdaşlığa başlayıb. Bu beynəlxalq təşkilat tərəfindən Azərbaycanda qeydə alınmış 3 Ümumdünya irsi, 19 qeyri-maddi mədəni irs, 2 əlyazma toplusu, 3 yaradıcı şəhər var.

Təəssüflə vurğulayaq ki, Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qarabağ və Şərqi Zəngəzur əraziləri 1990-cı illərdə Ermənistan tərəfindən işğal olundu. Həmin ərazilərimizdə 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri mövcud idi. Həmçinin 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi işğal olunmuş ərazilərdə qaldı. İşğalçı Ermənistanın beynəlxalq konvensiyaları, xüsusilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasını və ona dair protokollarını, eləcə də UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasını pozdu. Təcavüzkar ermənilər Azərbaycanın misilsiz mədəniyyət abidələrini amansızlıqla qarət etdilər, dağıtdılar.

2020-ci ildə Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub etdi. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız işğaldan azad olundu. Həmin ərazilərin təcavüzkar Ermənistan tərəfindən xarabalığa çevrildiyini yalnız Azərbaycan xalqı deyil, bütün dünya gördü. İşğal illərində erməni vandalları Qarabağda, Şərqi Zəngəzurda tarixi əhəmiyyətli abidələri qəsdən uçurub dağıtmış, qarət etmiş, talamışdılar. Abidələrin bir çoxundan isə müxtəlif məqsədlər, hətta tövlə kimi də istifadə etmişdilər.

Qeyd etdiyimiz kimi, Azərbaycan 1992-ci ildən bəri, yəni otuz bir ildir UNESCO-nun üzvüdür. Bu beynəlxalq təşkilatın respublikamızın da təsdiqlədiyi konvensiyalarından ikisi - Haaqa Konvensiyası və Ümumdünya İrs Konvensiyasının bilavasitə mədəni sərvətlərin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan UNESCO-nun fəal üzvü, etibarlı tərəfdaşı kimi üzərinə götürdüyü öhdəliklərə hər zaman sadiqdir. Lakin təəssüf ki, Azərbaycan tərəfindən ünvanlanmış çoxsaylı müraciətlərə baxmayaraq, UNESCO işğaldan azad edilmiş ərazilərə monitorinq aparılması üçün hələ də missiya göndərməyib.

Vətən müharibəsindən sonra Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərində tikinti-bərpa və quruculuq işlərinə başladı. Hazırda Qarabağda və Şərqi Zəngəzurda işğal nəticəsində böyük ziyan görmüş Azərbaycan abidələrinin, memarlıq irsinin bərpası və qorunması istiqamətində də olduqca vacib və əhəmiyyətli işlər həyata keçirilir. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizdə 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox tarix-mədəniyyət abidələri var. Xudafərin körpüləri, Şuşa qalası, Azıx mağarası, Gəncəsər, Xudavəng monastrları, Qutlu Musa türbəsi, Azıx mağarası Qarabağ və Şərqi Zəngəzurda dünya əhəmiyyətli tarix-mədəniyyət abidələridir. Artıq onlardan bəziləri bərpa edilib. Eyni zamanda Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi də bərpa olunub. Aşağı və Yuxarı Gövhər ağa, Saatlı Ağdam Cümə məscidlərinin bərpa işləri isə davam etdirilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Azərbaycan teatrı - 150

# Böyük ənənələri olan sənət məbədi

Azərbaycan mədəniyyətinin əsas qollarından biri peşəkar teatrımızdır. Teatrın inkişafı, eyni zamanda ədəbiyyatın, musiqinin, vokal sənətinin, rəngkarlığın, nitq mədəniyyətinin, rəqsin, fərdi aktyorluq və rejissorluq sənətinin, sənətşünaslığın inkişafı deməkdir. Avropa operasının yüzilliklər boyu keçdiyi keşməkeşli yaradıcılıq yolunu Azərbaycan teatrı bütün Şərqdə ilk dəfə olaraq Üzeyir bəy Hacıbəylinin timsalında "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər qısa bir müddətdə qət edib.



Üzeyir bəy bütün Şərqdə ilk dəfə olaraq "Arşın mal alan", "O olmasın, bu olsun" kimi klassik operettalar yazaraq onları Azərbaycan teatrının səhnəsinə gətirib çıxarıb. O vaxtadək Azərbaycan mədəniyyətinə tanımadığımız bir janrı - operettanı gətirərək onu mədəniyyətimizin məhz milli faktoruna çevirib.

XX əsrin əvvəllərində isə Azərbaycanda milli musiqili komediya janrı yaranıb. Opera kimi bu janrın da yaradıcısı dahi bəstəkar Üzeyir bəy Hacıbəyli olub. Onun 1909-cu ildə yazdığı "Ər və arvad" musiqili komediyasının ilk tamaşası 24 may 1910-cu ildə Bakıda, Nikitin qardaşlarının sirk binasında göstərilmişdir. Məhz bu tamaşa ilə də Azərbaycan Musiqili



Komediya Teatrı təşəkkül tapmışdır. Sonrakı illərdə Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan" (1913) musiqili əsərləri oynanılmışdır.

Həmçinin inqilaba qədərki dövrdə Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan", "Evlikən subay", M.Kazımovskinin "Molla Cəbi", "Vurhavur" musiqili komediyaları da tamaşaya qoyulmuşdur. Bu tamaşaların ərsəyə gəlməsində H.Ərəblinski, M.Əliyev, Ə.Ağdamski, Ə.Hüseynzadə, H.Abbasov, A. və Y.Olenskayalar, R.Darablı və Ə.Anaplı kimi sənətkarların böyük xidmətləri olmuşdur.

1938-ci ilə qədər musiqili komediyalar Azərbaycan Opera və Balet Teatrında oynanılırdı. 1938-ci ildə müstəqil Musiqili Komediya Teatrı (Azərbaycan və rus bölmələri ilə) təşkil edildi və teatr 1938-ci ilin sentyabrından rəsmi olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrı statusu aldı.

1939-cu ildə teatrın Azərbaycan bölməsində "Beş manatlıq gəlin" (S.Rüstəmov), "Ər və arvad" (Ü.Hacıbəyli), "Evlikən subay" (Z.Hacıbəyov), sonralar isə "Toy kimindir?" (A.Məşədibəyov), "Qızıl gül" (S.Hacıbəyov), rus bölməsində isə "Mavi mazurka" (F.Leqar), "Arşın mal alan" (Ü.Hacıbəyli), "Sirk kraliçası" (İ.Kalman), "Malinovkada toy" (B.Aleksandrov) və digər tamaşalar səhnəyə qoyuldu.

1950-ci illərdə teatrın repertuarı F.Əmirovun "Ürəkçalanlar" (1944) və "Gözün aydın" (1946), Ü.Hacıbəylinin "Arşın mal alan" (1945), "Məşədi İbad" (1946), S.Rüstəmovun "Durna" (1947), S.Ələsgərovun "Ulduz" (1948) operettaları ilə zənginləşdi.

1956-1970-ci illərdə teatrın Azərbaycan bölməsində "Qızılaxtaranlar" (T.Quliyevin), "Ev bizim, sirr bizim" (Ş.Axundova), "Qayınana" (Z.Bağırov), "Hacı Kərimin aya səyahəti" (A.Rzayev), "Altı qızın biri Pəri" (T.Bakıxanov, H.Məmmədov), rus bölməsində isə "Sevastopol valsı" (K.Cistov), "Yüz şeytan və bir qız" (T.Xrennikov), "Silva" (İ.Kalman), "Kuba, məhəbbətim mənim" (R.Hacıyev) kimi tamaşalar oynanılırdı.

Ötən əsrin 70-ci illərində teatrın səhnəsində "Hicran" (E.Sabitoğlu, S.Rəhman), "Həmişəxanım" (S.Ələsgərov), "Sabahın xeyir, Ella" (T.Quliyev), "Qafqazlı qardaşqızı" (R.Hacıyev) və başqa əsərlər uğur qazandı.

Müxtəlif illərdə teatrda rejissorlar - A.M.Şərifzadə, H.Əliyev, H.İsmayılov, S.Dadaşov, Ş.Bədəlbəyli, Əliheydər Ələkbərov və başqaları, aktyorlardan Bülbül, H.Hacıbəyov, A.Terequlova, Ə.Qəmərlinski, E.Axundova, D.Şaraplı, C.Talışinskaya, H.Mironova, A.Cavadov, Ə.Anatollu, Ə.Qafarlı, K.Kərimov, M.Kələntərli, L.Abdullayev, İ.Hüseynov, B.Səfəroğlu, Alleqrov, dirijorlardan S.Hacıbəyov, S.Ələsgərov, K.Abbasov, rəssamlardan Ə.Abbasov, H.Mustafayev, F.Qusak və başqaları işləmişlər. Bundan sonra teatr daha geniş fəaliyyət imkanı qazanmış və bir-birinin ardınca yeni-yeni tamaşalar hazırlanmışdır.

Həmin dövrlərdə teatrda M.Vəlixanlı, A.Cavadov, Ə.Səfayi, Ə.Şirvanski, L.Abdullayev, S.Ağabəyov, M.Kələntərli, Ə.Qafarlı, N.Zeynalova, B.Səfəroğlu, H.Bağırov, S.Aslan, M.Əhmədov kimi görkəmli sənətkarlar fəaliyyət göstərmişlər. Bu aktyor truppası ilə yanaşı, rejissorlar - H.İsmayılov, N.Şərifov, Ş.Bədəlbəyli, dirijorlar - S.Ələsgərov, S.Hacıbəyov, K.Abbasov, T.Qəniyev və digər yaradıcı şəxslər Musiqili Komediya Teatrının və bütövlükdə Azərbaycan milli teatrının, milli mədəniyyətin inkişafında misilsiz xidmətlər göstərərək teatrı yaşatmış və inkişaf etdirmişlər.

1967-ci ildə "Milyonçunun dilənçi oğlu" tamaşasına görə dramaturq Ş.Qurbanov, bəstəkar S.Ələsgərov və rəssam B.Mirzəzadə Respublika Dövlət Mükafatına layiq görülmüşlər.

1985-1990-cı illərdə respublikada baş verən ictimai-siyasi hadisələr, Qarabağ müharibəsi teatrda çalışan sənət adamlarının yaradıcılığına mənfi təsir göstərmişdi. Uzun illik təmir işləri kollektivdə təəssüf ki, süstlük yaratmışdı. Lakin 1993-ci ildə Ulu Öndər Heydər Əliyevin göstərişi ilə binada təmir və bərpa işlərinə yenidən başlanılmışdı.

Ümummilli Lider 1998-ci il oktyabrın 10-da böyük sənət məbədinin açılışında iştirak etmişdi. Bütün bunlar teatrın yenidən inkişafına böyük təkan vermişdi. Kollektiv bir-birinin ardınca yeni-yeni tamaşalar hazırlayaraq repertuarı zənginləşdirməyə başlamışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2010-cu il tarixli sərəncamı ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binası 2011-2013-cü illərdə yenidən təmir olunaraq istifadəyə verildi. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 4 oktyabr tarixli qərarı ilə bu sənət ocağı Azərbaycan Dövlət Musiqili Teatrı adlandırıldı.



10 mart 2014-cü il - Azərbaycanda peşəkar milli teatr sənətinin yaranmasının 141-ci ildönümündə Azərbaycan Dövlət Musiqili Teatrının təntənəli açılışı mərasimi keçirildi. Bu əlamətdar hadisə münasibətilə "Musiqili teatr - bizik" tamaşası nümayiş olundu.

2019-cu il martın 5-də teatrların fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədilə Azərbaycan Prezidentinin imzaladığı sərəncama əsasən, bu teatra "akademik" statusu verildi.

Bu il sənət ocağında Xalq yazıçısı Anarın "Adamın adamı", Əliqismət Lalayevin Fikrət Əmirovun musiqisi əsasında yazmış olduğu "Bir nəfəs qədər" tamaşaları oynanılmışdır. Bundan başqa, musiqili teatrdan peşəkar milli teatrımızın yaranmasının 150 illik yubileyi münasibətilə "Premyeralar paradı" layihəsi çərçivəsində üç dildə üç yeni tamaşa - "Nəğməmə inam", "Kimyagər", "Anamın kitabı" tamaşaları səhnəyə qoyulmuşdur. Eyni zamanda Rauf Hacıyevin 100, Emin Sabitoğlunun 85 illik yubileyləri yüksək səviyyədə keçirilmiş, Polad Bülbüloğlunun ad günü qeyd edilmişdir.

Bir faktı da qeyd edək ki, "Anamın kitabı" tamaşasının premyerası uğurla keçmiş, anşlaqla qarşılanmışdır.

Hazırda teatrın istər Azərbaycan, istərsə də rus bölmələrində zəngin repertuarı formalaşmış, işgüzar və professional sənətçilər yorulmaq bilmədən əzmlə çalışırlar.

***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

● Xəbərlər

## Özbəkistanda "Şuşa günləri" çərçivəsində Qarabağa məxsus geyimlərdən ibarət sərgi açılıb



**Özbəkistanda keçirilən "Şuşa günləri" çərçivəsində Daşkənddə Dövlət Sənət və Mədəniyyət İnstitutunda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə layihəsi əsasında Qarabağ geyimlərinin moda sərgisi, Türk dövlətlərini təmsil edən "Yeddi gözəl" musiqi qrupunun konsert proqramı təqdim edilib.**

Tədbir iştirakçıları öncə Daşkənd Dövlət Sənət və Mədəniyyət İnstitutunda Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən yaradılmış Azərbaycan mədəniyyəti və incəsənəti auditoriyası ilə tanış olublar.

Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun konsert zalında davam edən tədbirdə İnstitutun rektoru Eldor Şermanov çıxış edərək türk dövlətləri, Azərbaycan və Özbəkistan arasında yüksələn xətlə inkişaf edən əlaqələr, tarixi münasibətlər haqqında danışıb, "Şuşa günləri"nə həsr olunmuş növbəti tədbirin Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunda keçirilməsinin bu təhsil ocağının tarixində mühüm hadisə olduğunu qeyd edib.

Azərbaycanın mədəniyyəti, ədəbiyyatı və incəsənətinə böyük şəxslər bəxş etmiş Şuşanın türk dünyasının mədəniyyət paytaxtı seçilməsini vurğulayan rektor şəhərin zəngin incəsənətinin öyrənilməsi və təbliğinin Özbəkistan üçün də maraq kəsb etdiyini söyləyib.

Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Türk dövlətləri arasında əməkdaşlıq, mədəni əlaqələrin inkişafı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyəti və layihələri haqqında məlumat verib. O, çoxsaylı tarixi abidələrlə məşhur, dahi şairlərin, mütəfəkkirlərin vətəni Şuşanın Azərbaycan və Türk dünyası mədəni həyatında rolu və yeri haqqında danışıb.

## Ölkəmiz 37-ci Beynəlxalq Musiqi Festivalında təmsil olunub

**Bu günlərdə Türkiyənin Ankara şəhərində CSO ADA Ankaranın Ana Salonunun səhnəsində 37-ci Beynəlxalq Musiqi Festivalı keçirilir.**



Bu mötəbər festivalın açılış günündə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi altında Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri iştirak edib. Tədbirin ilk konserti məhz Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə gerçəklənməsi sevindirici, eyni zamanda qürurvericidir.

Konsert proqramında tanınmış solistlər - Azərbaycan Respublikasının Xalq artisti Murad Adıgözəlzadə (fortepiano) və Əməkdar artist Elvin Xoca Qəniyev (skripka) öz ifalarını təqdim ediblər.

Proqramda Ferit Tüzünün "Çayda çıra", Fikrət Əmirovun violin, piano və orkestr üçün Konserti və Antonin Dvorjakın 9 nömrəli "Yeni dünyadan" Simfoniyası səslənib. Bu əsərlərdən əlavə ilk hissənin sonunda Corc Vilyamsın "Şindlerin siyahısı" kinofilminə yazılmış musiqisi ifa olunub. İfa Türkiyədə zəlzələ zamanı həyatlarını itirmiş insanların xatirəsinə həsr edilib. Konsert Niyazinin "Türk marşı" ilə tamamlanıb.

# Enerji şəbəkəsinə qoşulmaq üçün onlayn müraciət edən qeyri-əhali abonentlərinin sayı 5 dəfə artıb

Bu ilin I rübündə Azərbaycanda enerji təchizatı şəbəkəsinə qoşulmaq üçün onlayn müraciət edən qeyri-əhali abonentlərinin sayı ötən ilin eyni dövrünə nisbətən 5 dəfə çox olub. Bu barədə "Azərişıq" ASC-dən bildirilib.



Məlumata görə, martda "qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması" xidməti üzrə elektron müraciətlərin xüsusi çəkisi 53,6 %-ə çatıb.

Elektron müraciət sistemi 2019-cu ildən tətbiq olunur. Onun əsas məqsədlərindən biri də vahid platforma üzərindən müraciətlərin idarə olunması, operativliyin və səmərəliliyin artırılması və şəffaflığın təmin edilməsidir. Bu sistem İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Dövlət Vergi Xidməti, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və digər qurumlarla inteqrasiya olunduğu üçün sahibkarların elektrikə qoşulma ilə bağlı sənədlər toplusunu təqdim etməsinə ehtiyac qalmayıb.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) elektron müraciət sistemini innovativ layihə kimi qiymətləndirib. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində elektrik şəbəkəsinə qoşulma üzrə prosedurların sayı 7-dən 2-yə, müddəti isə 41 gündən 20 günə endirilib.

# "EnergyTech" hakatonuna start verilib





Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, "ASAN xidmət" və "Azərişıq" ASC-nin təşkilatçılığı ilə keçirilən "EnergyTech" hakatonuna start verilib.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin direktoru Vüsal Rüstəmov, "Azərişıq" ASC-nin "ASAN xidmət"lə İş departamentinin direktoru Fərruh Heybətov, "PAŞA Holding"də İnnovasiyalar üzrə proqram rəhbəri Fərrux Əliyev, hakaton iştirakçıları və digər aidiyyəti nümayəndələr iştirak ediblər.

İki gün davam edəcək hakatonun birinci günündə 13-25 mart tarixlərdə müraciət edən 90 iştirakçı arasından seçilən 20 komanda öz ideyalarının prototiplərini hazırlayacaq, ikinci günündə isə prototiplər münsiflər heyəti tərəfindən qiymətləndiriləcək və qaliblərə mükafatlar təqdim olunacaq.

Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinə uyğun olaraq elektrik şəbəkəsinə qoşulma sahəsində qanunvericiliyin daha da təkmilləşdirilməsi və xidmətlərin rəqəmsallaşdırılması sahəsində tədbirlərin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə yol xəritəsi hazırlanaraq Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri tərəfindən 7 oktyabr 2022-ci il tarixdə təsdiq edilərək dərhal icrasına başlanılmışdır. "EnergyTech" hakatonu yol xəritəsində nəzərdə tutulan tədbirlərin icrası ilk dəfə olaraq təşkil olunur və enerji təchizatı şəbəkəsinə qoşulma xidməti üzrə "e-sistem" istifadəçilərinin sayının artırılması, bu istiqamətdə operativliyin təmin olunması, xidmətdə keyfiyyət səviyyəsinin artırılması və vaxt itkisinin qarşısının alınması məqsədilə həyata keçirilir.

# Sarkisyan Paşinyanı saxtakarlıqda ittiham edir

## Hayastan sonu görünməyən növbəti siyasi böhrana yuvarlanır

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, 2018-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Yuri Xaçaturov tutduğu vəzifədən azad edilmişdi. Hayastanın iddialarına və istəklərinə baxmayaraq, təşkilatın baş katibi postu İrəvandan alınıb. Halbuki məğlub ölkə bu postu 2020-ci ilə qədər saxlamağa çalışırdı. Ölkədə inqilab yolu ilə hakimiyyəti ələ keçirən Nikol Paşinyan bu məsələdə kifayət qədər arxayın mövqe sərgiləyirdi. Elə bunun nəticəsi idi ki, Paşinyan 2008-ci ilin martında İrəvanda prezident seçkilərinin nəticələrinə etiraz edən nümayişçilərə qarşı ordunun tətbiq edilməsi işindən yapışdı, bir-birinin ardınca bu işdə əli olanlara, o cümlədən həmin dövrdə İrəvan qarnizonunun komandanı olmuş KTMT baş katibi, Rusiyaya sıx bağlı olan general Yuri Xaçaturova cinayət işləri qaldırılmasına getdi.

Paşinyanın hökuməti onun geri çağırılması və yerinə Hayastanın başqa nümayəndəsinin göndərilməsi mexanizmini tapmağa çalışırdı ki, Xaçaturov 2018-ci ilin noyabrında baş tutan Astana sammiti ərəfəsində özü istefa verdi.

Bu günlərdə baş nazir Nikol Paşinyan bildirib ki, 2011-2012-ci illərdə Rusiya ilk dəfə olaraq Azərbaycanla çoxmilyardlıq silah satışı müqaviləsi bağlayıb, eyni zamanda Hayastana silah tədarükünü ciddi şəkildə məhdudlaşdırıb. Bu barədə o, Serj Sarkisyanın yazdığı məktubdan öyrənib və həmin məktub arxivdə "tam məxfi" möhürü altında saxlanılıb. Sarkisyan bunu şərh edərək deyib ki, Hayastanın idarəçisi mənim imzaladığım məxfi məktubdan danışmağa çalışırsa, başqa nə deyə bilərəm: "Bircə onu deyə bilərəm ki, mən heç bir sənədə imza atmamışam, istər məktub, istər müqavilə, istər başqa bir sənəd, istər gizli, istərsə də adi sənəd olsun".

Hayastanın sabiq prezidenti qeyd edib ki, Nikol Paşinyan onun ittihamlarını inkar etməyib və bu birmənalıdır: "Paşinyan nə ilə məşğul idi? Onun üçün hamı günahkardır, hərbçilər günahkardır, komandirlər günahkardır, erməni kişilərinin hamısı günahkardır. Bəs Paşinyan nə edib? Yadınızdadırmı, Tavuşda bir hadisə olmuşdu, o bunu qələbə döyüşü hesab edirdi və ali baş komandan olmaqdan öyünürdü. Sonra da təkrar etdi ki, birdən çaşqın vəziyyətə düşməyin. Biz qarışdırmırıq. Ali baş komandan müsahibə vermək üçündür?"

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət daha da mürəkkəbləşməyə doğru gedir. Hələ ki bu ölkə sonu görünməyən növbəti siyasi böhrana yuvarlanır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərneftkimyaquraşdırma" QSC-nin səhmdarlarının nəzərinə!

"Azərneftkimyaquraşdırma" QSC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 01 iyun 2023-cü il tarixdə saat 16:00-a təyin edilmişdir. Ümumi yığıncağın keçiriləcəyi ünvan: AZ1108, Bakı şəhəri, Dərnəgül qəsəbəsi, məhəllə 2090, küçə 560/510.

Gündəlikdə duran məsələlər:

1. "Azərneftkimyaquraşdırma" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilin yekunlarına dair maliyyə-təsərrüfat nəticələrinin təsdiqlənməsi.

**Əlaqə telefonu: (050) 256-77-11**

***Rəhbərlik***



## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.04.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Fransa polisi növbəti dəfə qəddarlığı ilə diqqət çəkdi

## Fransızlar prezident Emmanuel Makronun Çinə səfərini biabırçılıq adlandırdılar

*Əvvəli 1-ci səh.*




Bildirilir ki, onlarla etirazçı LVHM şirkətinin qərargahına basqın edərək onun sahibi, Fransanın ən varlı adamı Bernard Arnaultdan daha çox vergi ödəməyi və bununla da sistemdəki boşluqları doldurmağı tələb ediblər.

Parisdə özlərini "texno-fəal" adlandıran bəzi etirazçılar "yaxşı əhvali-ruhiyyədə" musiqinin müşayiəti ilə yürüş keçiriblər.

Onlar sosial islahatlarla bağlı təklif olunan qanun layihəsini mənasız və zəif tərtib edilmiş sənəd adlandıraraq iqlim dəyişikliyi fonunda ölkə qarşısında daha vacib vəzifələrin olduğunu bildiriblər. İqlim fəalı Matilda Kayyar bununla bağlı deyib: "Biz bu islahatları dəstəkləyən sistemi rədd edirik. Bu sistem bizim daha çox istehsal etmək üçün çox çalışmağımızı istəyir, lakin biz heç vaxt özümüzə sual vermirik: niyə daha çox istehsal edək? Bir ovuc səhmdarı zənginləşdirməyə davam etmək üçünmü? Yoxsa artımı gözləmək və daha xoşbəxt olmaq naminə? Bu, əslində, bizi daha xoşbəxt etməyəcək. Qlobal istiləşmə və iqlim xaosu fonunda etməli olduğumuz şey nəyin zəruri olduğu və nəyin labüd olmadığı barədə düşünməkdir".

Gənc nümayişçilər Fransa rəhbərliyinin etirazları dayandıra bilməyəcəyinə əmindirlər və ümid edirlər ki, gec-tez qanun layihəsi geri götürülməli olacaq.

İqlim fəalları hesab edirlər ki, sosial islahatlardan imtina edilməlidir. Emmanuel Makron səhv etdiyini boynuna almır, lakin etiraf yeganə çıxış yoludur. Heç kim bu islahatı istəmir. Hətta iqtisadi baxımdan da zəif işlənilib. Bu ictimai hərəkatın hansı formada davam edəcəyi bilinməsə də, hər bir halda insanların qəzəbi bir anda yox olmayacaq. Müqavimət səngiməyəcək.

Dəmiryolçular ittifaqlarının üzvü Fabyen Vildyenin fikrincə, bu vəziyyətdən çıxmaq lazımdır. Ən yaxşı yol isə ya Konstitusiya Şurası, ya da davam edəcək təzyiq vasitəsilə islahatlarla bağlı qanunu ləğv etməkdir.

Emmanuel Makronun daxili siyasətdə olduğu kimi, xarici diplomatiyada da bərbad fəaliyyəti artıq dillər əzbəridir. Bunun bariz nümunəsi onun bu günlərdə Çin Xalq Respublikasına səfəri və Pekində yaşanan olaylardır. Görün Fransadakı sosial şəbəkə istifadəçiləri öz liderləri barədə nə düşünürlər.

Avner Solal Makronun xarici siyasətinin "uğurları"nı belə təsvir edib: "Diplomatiya bir insanı küsdürmədən ona "get işinlə məşğul ol" anlatmağı demək sənətidir. Si Cinpin çox yaxşı diplomat olduğunu sübut etdi".

Avner Fransa prezidentinin Çin prezidentindən xeyli aralıda nəhəng masa arxasında əyləşdiyini qeyd edib: "Bu o deməkdir ki, bundan sonra Fransanın dövlət kimi siyasi çəkisi yoxdur. Müqayisə üçün, Si Cinpinin Vladimir Putinlə az qala yanbayan oturan diplomatik görüşünün fotosuna baxın! Hər şey çox sadədir: məsafə nə qədər qısa olarsa, ölkə rəhbərinin həmsöhbətinə hörməti bir o qədər çoxdur".

Digər Fransa vətəndaşı Hinselin Giyyom da öz prezidenti haqqında sərt danışıb: "Makron özünü bütün dünyanın gözü qarşısında alçaltmaqda davam edir. Onun Ursula "ana" ilə (Ursula fon der Lyayen - Avropa Komissiyasının sədri- red.) Pekinə səfəri bu faktın, sadəcə, mükəmməl təsdiqidir".

Viktor Sinkler adlı fransız isə maraqlı bir detala diqqət çəkib: "Görünür, Çində Makron növbəti dəfə diplomatik səhv edərək bizi bir daha utandırıb. Məsələ burasındadır ki, başqa ölkədə ev sahibindən çox danışmaq düzgün deyil. Bu son dərəcə yersiz və tərbiyəsiz hərəkətdir".

Silvian Dorval Makron haqqında satirik şəkildə yazıb: "Tezliklə ona oturacaq belə verməyəcəklər: onu ayaq üstə saxlayacaqlar, Makron isə bunu heç hiss etməyəcək. O, özü haqqında həddən artıq çox düşünür və bu səbəbdən başqalarının ona qarşı nifrətini görmür".

Fransız Stefan Qazanyes isə ölkəsinin və xalqının düşdüyü bu acınacaqlı vəziyyətlə bağlı qəzəbini gizlədə bilmir: "Əvvəlcə Makron Vladimir Putini, indi də Si Cinpini ziyarət edərkən özünü biabır etdi... Yazıq Fransa! Makron özünü fransızlar üçün çətin anlarda Çinlə dostluq münasibətləri qurmağı bacaran böyük insan kimi təsəvvür edirdi, lakin o, öz ölkəsində qəddar diktator, beynəlxalq səviyyədə isə yazıq təlxək olaraq qalacaq".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi Cavid Əliyevə atası **YAŞAR MÜƏLLİMİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədova atası **ELMAZ MƏMMƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Binəqədi rayonu Xocəsən Bələdiyyəsinin sədri Nigar Məmmədova Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədova atası **ELMAZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmənin hakimi Əhməd Quliyevə oğlu **RƏŞADƏT QULİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5629**
**Sifariş 906**

**Qiyməti 40 qəpik**